

# Ərdoğandan Azərbaycan səfəri ilə bağlı paylaşım

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz tvitter hesabında Azərbaycana səfəri ilə bağlı paylaşım edib.

"Unikal" xəbər verir ki, Ərdoğan paylaşımında bildirib ki, Qarabağ zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı başa düşüləcək.

Səh.3



# Fazil Məmmədov biznesini Azərbaycandan köçürür

UNİKAL

№22 (2060) 18 İYUN 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru

Səh.8



# Azərbaycan üçün yeni dönəm başlayır

## Sabiq "vergilər şefi" də bir çox məmurlar kimi Londonu seçib

Sabiq Vergilər naziri Fazil Məmmədov Azərbaycandakı biznesini xaricə köçürməyə başlayıb. Onun xüsusilə otel və restoran ticarətini bundan sonra ölkə kənarında davam etdirmək niyyəti var. Əslində keçmiş nazir hələ əvvəldən xaricdə geniş biznes şəbəkəsi yaratmışdı. Məsələn, Fazil Məmmədovun Ukrayna paytaxtında 5 ulduzlu oteli, siqaret, təkər zavodu və böyük bazarı var. Kiyevdəki otel "11 Mirrors Design Hotel" adlanır. Onun Kiyevdəki "Vladimirski" bazarı böyük biznesinin kiçik bir parçasıdır. Kiyevdəki bazarlar arasında böyüklüyünə görə ilk üçlükdə olan bu bazarda paltar və meyvə-tərəvəz satılır. Kiyevin ən bahalı bazarı hesab olunur. Ukraynadakı təkər zavodunun 49 faizi, Xarkov siqaret zavodunun səhmlərinin 41 faizi...

Səh.6

## "Azərbaycanda Türkiyənin hərbi bazaları da olacaq"



Türkiyə Prezidentinin Azərbaycana, Şuşaya səfəri, orada aparılan müzakirələr, verilən mesajlar, imzalanan tarixi sənədlər yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Atlas Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Unikal"a müsahibəsində də elə bu ətrafda fikirlərini bölüşüb.

Səh.4

## Ziya Məmmədovun ətrafında halqa daralır



Yola salmaq üzrə olduğumuz həftə sabiq nəqliyyat naziri Ziya Məmmədov növbəti dəfə ölkə mətbuatının gündəminə gəldi. Öncə onun adının Kanadaya məxsus "Bombardier Transportation" şirkətinin İsveçdəki törəmə şirkətinin keçmiş menecerinə qarşı başlanan cinayət işində keçdiyi...

Səh.12

## Nazim İbrahimovun nə özünün, nə də qardaşlarının başı qalmaqallardan açılmır



Azərbaycanın ən qalmaqallı ailələrindən biri olan İbrahimovlarla bağlı xəbərlərin ardı-arası kəsilmir.Söhbət Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov və qardaşlarından gedir. Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, həmin qardaşlardan biri...

Səh.5

# "Olmadığım verilişlərdə adımı çəkməyin" - Xatirə aparıcılara səsləndi



***Aparıcı Mətanət Əliverdiyevanın verilişində müğənni Xatirə İslamın xına məclisi təşkil etməsi haqda dedikləri qarşı tərəfi əsəbiləşdirib.***

İfaçı məsələ ilə bağlı açıqlama yayıb. Xatirə bildirib ki, artıq xına məclisləri təşkil etmir: "Xına tərtibat işi ilə məşğul olmuram, ancaq oxuyuram. Bu qiymətlər də haradan idi bilmirəm. Gülünc idi. Mətanət xanım, bunu sizə zəng də edib deyə bilərdim. Amma efirdən dediyiniz üçün, mən də buradan açıqlama verirəm. Narahat olan qızlarımız da, zəng edib soruşur.

Bütün verilişlərin aparıcılarına üzümü tutub deyirəm: əzizlərim, dostlarım, mənim olmadığım yerdə adımı çəkməyin. Bunu sizdən dönə-dönə rica edirəm. Gəlin aramızda olan hörmət uzunömürlü olsun. Məni dəvət edəndə gəlmirəmsə, kim nə istədi danışmalıdır? Bəs peşəkarlıq, illərin salamı? Mətanət xanımı çox sevirəm, yatsam yuxuma girməzdi ki, nəyisə araşdırmadan açıqlama verə. Xına tərtibatı etmirəm, buna zamanım çatmır. Ona görə də lazım olanda biz də başqa yerə müraciət edirik. Hər kəsə işində uğurlar arzu edirəm, o iş zəhmət, vaxt tələb edir".

Qeyd edək ki, M.Əliverdiyeva aparıcısı olduğu "6/8 axşam şousu"nda Xatirənin xına məclisi təşkil etdiyini və buna görə 1000-5000 arası qonorar istədiyini deyib.

# "Uşağımız olsaydı, aramızda..." - Keçmiş ərindən danışdı

***"Qeyri-rəsmi nikahdan heç vaxt övlad dünyaya gətirmərəm. Mənim üçün problem olmaz, amma uşağa görə etmərəm. Nikah olmalıdır, istəmərəm övladıma kimsə tənəli yanaşsın. Amma mən ona hər şeyi başa salacam ki, dünya o deyil. Ele ailələr var ki, nikah var, amma ər qadını döyür, onlar boşana bilmir. Bu, uşaq, qadın üçün, böyük stresdir. Xoşbəxt deyillərsə, o evlilik niyə davam edir?".***





Bu sözləri müğənni Dilarə Kazımova "Üzə-düz" proqramında deyib. Sənətçi ikinci dəfə ailə qurub-qurmayacağı haqda sualları cavablandırıb. Dilarə daha sonra boşanmalardan söz açıb: "Hər iki tərəf yenidən başqa cür xoşbəxt ola bilər. Bütün dostlarım deyir ki, mən çox yaxşı ana ola bilərəm. Düzdür, tələbkar olacam, amma üstünə də çox getmərəm. Səhvləri özü keçib anlasın qoy. Çərçivələr isə hər zaman lazımdır. Həyatda hər şey ola bilər. Bəlkə də övladlığa uşaq götürərəm, öz övladım olsa belə. Özüm də atasız böyümüşəm, o körpəyə demək istəyərəm ki, həyatın gözəl tərəfi də var. Bu, çox böyük savab işdir".

Dilarə bildirib ki, xəyanəti heç vaxt bağışlamaz: "Hər davada lap 5 il sonra da olsa, mən ona göstərəcəm ki, bu söhbət hələ mənim beynimdədir. İstərəm o desin ki, artıq bizdə alınmır. Çünki insan sevməyəndə qarşındakı səni qıcıqlandırmağa başlayır. Keçmiş həyat yoldaşımla heç bir əlaqəm yoxdur. O Türkiyədə yaşayır, arada danışırıq. Mənim öz dostlarım var, həm artıq onunla dostluq nəyə lazımdır ki? Uşağımız olsaydı, bir bağlantı ola bilərdi. Biz normal şəkildə ayrıldıq".

Müğənninin anasının ona iradlarını da açıqlayıb: "Ana ilə bizim fikirlərimiz fərqlidir. O daha bağlı geyimlər məsləhət görür. Mübahisələr olur, amma artıq başa düşür ki, mən böyük qızam, öz beynim var. Bir iş olursa demeli, məqsəd var, layihə üçündür. Açıq-saçıq nəsə varsa, bu piarın bir hissəsidir. O bunu artıq başa düşür".



# Misirdə klip eşqi Sevdanın başına bəla oldu

***Müğənni Sevda Yahyayevanın Misir səfəri zamanı başına iş gəlib.***

"Unikal" xəbər verir ki, sənətçi bu haqda "ATV maqazin onlarla" proqramında danışıb. O bildirib ki, Misir piramidalarında klip çəkdirib, amma kadrları sildiriblər:

"Mülki geyimdə iki qadın yaxınlaşdı ki, nə edirsiz? Əlimizdə icazə kağızı var idi, göstərdik. Amma dedilər ki, icazə keçmir, nə çəkmişiniz silin. İmkan vermədilər, hər şeyi sildirdilər. Kamera çəkən də əli dəyib, başqa kadrları da sildi. Amma ruhdan düşmədim, gedib yenidən çəkdim. Onların acığına piramidalardan da görüntülər götürdüm". Qeyd edək ki, Sevda "Gəl mənə" klipini Misirdə ekranlaşdırıb.



# Nigar Şabanovaya XTQ nişanlısından SÜRPRİZ

***Əməkdar artist Nigar Şabanova sosial media hesabındakı paylaşımı ilə diqqət çəkib.***

Sənətçiyə XTQ nişanlısı sürpriz edib. Belə ki, Nigar "İnstagram" hesabında gül dəstəsi ilə foto paylaşaraq: "Gözəl sürprizin üçün təşəkkür edirəm, nəfəsim" sözlərini yazıb.

Qeyd edək ki, bir neçə gün öncə mediada Nigar Şabanovanın nişanını qaytarması xəbərləri yayılmışdı. Lakin özü bunu təkzib edib.



# Azərbaycansayağı "İcbari tibbi sığorta" və "Büdcəyə qənaət"

## Teyyub Qənioğlu: "Səhiyyə Nazirliyi və Əmək və Əhalinin Sosisal Müdafiəsi Nazirliyi əhalinin qəsdinə durublar, insanları incitmək yolunu tutublar"

***Uzun sürən müzakirələrdən, çək-çevirdən, bir neçə dəfə təxirə salındıqdan sonra nəhayət ki, Azərbaycanda "İcbari tibbi sığorta" tətbiq olunmağa başlayıb. Amma başlayıbmı? Azərbaycanda fəaliyyət göstərən və dövlətə məxsus olan xəstəxana və poliklinikaların mütləq əksəriyyətində hər şey "köhnə hamam-köhnə tas" vəziyyətindədir.***

Bu barədə fikirlərini "Unikal"la bölüşən Təkamül Partiyasının sədri Teyyub Qənioğlu deyib ki, "İcbari tibbi sığorta" tətbiq olunduqdan sonra həkimlərin əmək haqlarının artırılacağ deyilirdi, amma olmadı. Müxtəlif analizlərin və həkim qəbulunun pulsuz olacağı deyilirdi, amma olmadı. Onun sözlərinə görə, bu tibb müəssisələrinin mütləq əksəriyyətinin, o cümlədən Mərkəzi Klinik xəstəxananın, laboratoriyalarına analiz aparmaq üçün heç bir müvafiq preparatlar verilmir:

"Səbəb ənənəvi pul dövriyyəsi sisteminin pozulmasıdır. Heç kəs, xüsusilə rəhbərlik, "müftə" işləmək istəmir. Ona görə də, dövlət tibb müəssisələrində işləyən həkimlər analiz vermək üçün xəstələri özəl klinikalara göndərirlər. Özəl klinikalarda isə qiymətlər "ceyranın belindədir". Belə görünür ki, Səhiyyə Nazirliyi və Əmək və Əhalinin Sosisal Müdafiəsi Nazirliyi əhalinin qəsdinə durublar, onları incitmək yolunu tutublar. Səhiyyə Nazirliyi minlərlə imkansız vətədaşımız hesabına "vəsaitə qənaət etmək" (pul "qazanmağın" alternativ yolu yoxdur ki?) yolunu tutub (?). Əmək və Əhalinin Sosisal Müdafiəsi Nazirliyi isə, son illərin ən uğursuz kadrı olan nazirinin rəhbərliyi altında, "qanunsuz pensiya təyin edilməsi" bəhanəsi ilə, ucdantutma, yüzlərllə insanın pensiyası kəsir və bu yolla "büdcəyə qənaət edir". Heç kim inkar etmir ki, Azərbaycanda qanunsuz pensiya təyin edilməsi halları olub və belə getsə, yenə də olacaq. Ancaq qanunsuz pensiya təyinatının nəticəsi ləğv ediləndə nə üçün bu qanunsuz hərəkəti törədənlər məsuliyyətə cəlb edilmir? Çünki belə olacağı təqdirdə cavabdeh həkimlər bir çox hallarda pensiyaların qanuni təyin etdiklərini sübut edəcəklər. Bu isə "pensiya ödənişlərinə qənaət etdiyi" ilə öyünən nazir Sahil Babayevə sərf etmir. Qeyd edilən nazirliklərin rəhbərləri fərqində deyillər ki (bəlkədə qəsdən edirlər), onların bu hərəkətləri insanların, xüsusilə də, aztəminatlı insanların, əlillərin, qazilərin güzəranına ciddi əks təsir göstərir, cəmiyyətimizdə sosial gərginliyi artırır? Onlar nə üçün nəzərə almırlar (bəlkə də qəsdən edirlər) ki, insanlar, onları kimin incitməsindən asılı olmayaraq, günahı dövlətdə görürlər və beləlikə də, vətəndaşı dövlətdən narazı salırlar?

44 günlük Vətən Müharibəsində qazandığımız qələbədə ölkəmizdə xalq-iqtidar birliyinin bərqərar olmasının xüsusi rol oynadığını hamımız gördük. Ermənilərin, onların havadarlarının, xüsusilədə Rusiya "sülhməramlılarının" davranışları göstərir ki, müharibə hələ bitməyib və bizi gələcəkdə yeni sınaqlar gözləyir. Bu sınaqlardan uğurla çıxmağımızın, yeni-yeni qələbələrin yolu isə, ilk növbədə, xalq-iqtidar birliyinin davam etməsindən keçir. Bu birliyin pozulmasına, ölkədə sosial-siyasi gərginliyin yaradılmasına çalışanlara layiqli cəzalarının verilməsinin vaxtı çatmayıbmı?".

***Z.Məmmədli***

# Ziya Məmmədovun ətrafında halqa daralır

## Sabiq nəqliyyat naziri ətrafında ilginc proseslər cərəyan etməkdədir

***Yola salmaq üzrə olduğumuz həftə sabiq nəqliyyat naziri Ziya Məmmədov növbəti dəfə ölkə mətbuatının gündəminə gəldi. Öncə onun adının Kanadaya məxsus "Bombardier Transportation" şirkətinin İsveçdəki törəmə şirkətinin keçmiş menecerinə qarşı başlanan cinayət işində keçdiyi, ardınca isə bu cinayət işi ilə bağlı Bakıya çağırıldığı haqda xəbərlər yayıldı.***

Qeyd edək ki, Ziya Məmmədov vəzifədən çıxarılandan sonra Ucarda əkin-biçinlə məşğul olduğunu, mal-qara saxladığını, işçilərinin olduğunu açıqlamışdı. Belə aydın olmuşdu ki, sabiq nazirin günü kim baxır, yonca, taxıl, arpa sahələrini kim idarə edir" sualına da eyni cavab verilib.

Hələlik bu mövzuda əlavə məlumat yoxdur. Bircə o məlumdur ki, son zamanlar yaşananlar sabiq "nəqliyyat şefi" ətrafında həlqənin daraldığını göstərir. Belə görünür ki, Ziya müəllimin də cinayət məsuliyyətinə cəlb ediləcək keçmiş iri məmurların sırasına qoşula biləcəyi barədə bir müddətdir gündəmdə olan iddiaların reallaşması yetərincə ağlabatandır. Məsələ burasındadır ki, Baş prokurorluq digər hüquq-mühafizə orqanları ilə birgə genişmiqyaslı anti-korrupsiya tədbirlərinə start verib. Bu tədbirlər yalnız hazırda vəzifədə olan və büdcə xərcləmək səlahiyyətinə malik idi və xərcləyirdi də! Lakin həmin pulların böyük hissəsinin korrupsiya predmetinə çevrildiyi, vəsaitlərin yönəldildiyi layihələrin keyfiyyətsiz icrasından hamı yaxşı məlumatlıdır. Məsələn, onmilyonlarla manata başa gələn və 25-30 illik istismar müddəti qoyulan yolların cəmi bir neçə ay sonra dağılmağa başladığını, təmirə dayandığını xatırlamaq kifayətdir.

Sadəcə, son vaxtlar bu barədə yüksək səslə danışılmağa başlanması, üstəlik, Kanadaya məxsus "Bombardier Transportation" şirkətinin İsveçdəki törəmə şirkətinin keçmiş menecerinə qarşı başlanan cinayət işində Z.Məmmədovun adının keçməsi qətiyyən təsadüfə bənzəmir. Görünən odur ki, sabiq "nəqliyyat şefi"nin başı üzərindəki qara buludlar sıxlaşmaqdadır. Proseslər belə davam edəcəyi təqdirdə onun da, məsələn, sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov kimi həbs oluna biləcəyi şübhə doğurmur. Elə 100 milyonluq rüşvət ittihamının ardınca Bakıya çağırılması barədə xəbərlərin yayılmasına baxmayaraq Ziya Məmmədovun susqunluğa bürünməsi də həmin ehtimalı qüvvətləndirir.

Belə düşünmək olar ki, sabiq nazir ya danışmaq iqtidarına, yaxud imkanına malik deyil, ya da danışaraq özünə qarşı təhlükənin daha da artmasından çəkinir...

Ucarda keçir. İsveçdə adı yenidən cinayət işində hallanmağa başlayandan sonra Ziya Məmmədovu Bakıya çağırıblar.

Bu da səbəbsiz deyil: eks nazirin adı, nə az, nə çox, düz 100 milyonluq rüşvətdə hallanırdı. Belə ki, 2013-cü ildə Bakını Gürcüstan sərhədi ilə birləşdirən dəmiryolunun bir hissəsini siqnal avadanlığı ilə təchiz etmək üçün keçirilən tenderdə "Bombardier"in başçılıq etdiyi konsorsium qalib gəlib. Şirkət meneceri Tomas Bimerə 2013-cü ildə Azərbaycanın Nəqliyyat Nazirliyi ilə bağlanmış müqavilə üzrə azərbaycanlı məmurlara "otkat" verdiyi barədə rəsmi ittiham irəli sürülüb. Tomas Bimer xüsusilə ağırlaşdırılmış hallarda rüşvətlə ələ almada ittiham olunur. Cinayət işi artıq yekunlaşıb və Tomas Bimer tezliklə məhkəmə qarşısına çıxarılacaq. Prokurorlar bildirirlər ki, Azərbaycanda dəmir yollarına siqnalizasiya sistemlərinin quraşdırılmasını nəzərdə tutan 350 milyon dollarlıq müqavilədə "dəmir yollarının ən azından bir orta səviyyəli rəhbərinə" 100 milyon dollar rüşvət ödənilib.

Ziya Məmmədovun Bakıya çağırılmasının səbəbi ilə bağlı onun telefonuna zəng edən jurnalistə özünü adi işçi kimi təqdim edən şəxs cavab verib. O, Ziya Məmmədovun Bakıda olduğunu təsdiqləyib. "Ziya Məmmədov hazırda istintaqdadırmı" sualına "bilmirəm" cavabı verilib. "Ziya Məmmədov Bakıdadırsa, onun Ucardakı mal-qarasına



vəsaitlərini talayan, rüşvətə bulaşan şəxslərə yönəlməyib, eyni zamanda vaxtilə misli görünməmiş korrupsiya əməllərinə imza atan sabiqlərə də yönəlib. Onların arasında məhz Ziya Məmmədovun olacağına isə nə cəmiyyət, nə də mətbuat artıq zərrə qədər şübhə eləmir...

Yeri gəlmişkən, unutmayaq ki, 100 milyonluq rüşvət iddiasından əvvəl Məmmədovla bağlı başqa bir ilginc ittiham da ortaya çıxmışdı. Bildirilmişdi ki, onun vəzifədə olduğu dönəmdə Bakıdakı tunellərdən birinin inşasına fantastik məbləğdə - yarım milyon manatdan çox vəsait xərclənib!

Əslində bunda təəccüblü heç nə yoxdur: Ziya müəllim nazir olarkən fantastik dərəcədə böyük büdcə pullarını

***Sənan Mirzə***

# Azərbaycan üçün yeni dönəm başlayır

***Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində mühüm müddəalar yer alır. Onları müxtəlif istiqamətlərə bölmək olar.***

Bəyannamədə qeyd olunur ki, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq.

Bəyannaməyə əsasən, Azərbaycan Respublikası və Türkiyə Respublikası Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcək. Bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcək.

Sənəddə deyilir: “Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər. Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər”.

Şuşa Bəyannaməsinə əsasən, Azərbaycan və Türkiyə müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər. Sənəddə iki qardaş ölkənin müxtəlif sahələrdə, o cümlədən müdafiə sahəsində qarşılıqlı texnologiya mübadiləsi, həmçinin birgə layihələr həyata keçirmək niyyətləri bəyan olunur.

“Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə alınmaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər”, - deyə bəyannamədə qeyd olunur.



Sənəddə vurğulanır ki, Azərbaycan ilə Türkiyə arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməyib.

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında imzalanan Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətləri gücləndirəcək və sürətləndirəcək. Onun fikrincə, bu günə kimi ölkələr arasında əməkdaşlıq vardı, amma sözügedən bəyannamə bu ölkələrə təcavüz olacağı halda bir-birinə dəstək göstərməsi kimi mühüm mesajları əhatə edir.

Deputatın sözlərinə görə, bir müddətdir ki, Ermənistan tərəfi müxtəlif revanşist bəyanatlarla çıxış edir: “Yenidən Şuşanı işğal edəcəyi, bu şəhərin Azərbaycandan ayrılması barədə fikirlərin səsləndirilməsinin şahidi oluruq. Türkiyə tərəfindən bir daha mesaj verildi ki, Türkiyə hər zaman Azərbaycanın yanında olacaq və heç zaman ermənilərin yenidən təxribat törətməsinə imkan verməyəcək. Azərbaycana öz dəstəyini əsirgəməyəcək. İki qardaş ölkə beynəlxalq platformalarda birgə əməkdaşlığını və fəaliyyətini davam etdirəcək. Zəngəzur dəhlizinin açılması məsələsi öz həllini tapacaq”.

Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov isə bildirib ki, Müstəqil Azərbaycan dövlətinin Qurtuluş günü - İyun ayının 15-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan qədim Azərbaycan şəhəri, türk mədəniyyətinin beşiyi olan Şuşada, sözün əsl mənasında, tarixi salnamə yazdılar: “Bu tarixi günə şahidlik etmək mənə də nəsib olduğu üçün fəxarət hissi keçirirəm. İşğaldan azad olunduqdan sonra ilk dəfə getdiyim ərazilərimizin vəhşicəsinə dağıdılması mənə çox pis təsir etsə də, müasir səviyyədə bərpa olunan və yeni quruculuq işləri Qarabağımızın gələcəkdə regionun böyük sosial, iqtisadi, turizm və mədəniyyət mərkəzi olacağına ümid verməsi məni qürurlandırdı. Bu ümid və qürurla irəlilədiyimiz “Zəfər” yolunun sonunda mədəniyyət paytaxtımız Şuşanın Türkiyə və Azərbaycan bayrağına sarılması ən xoş görünüşlərdən biri oldu.

Türkiyə Prezidentinin Şuşaya səfərinin məhz 15 iyun tarixində baş tutmasını bu əlamətdar günün Azərbaycan xalqının tarixində həqiqətən böyük başlanğıclar günü olduğuna işarə kimi qəbul etmək lazımdır. Ulu Öndərin dühasından doğan Qurtuluş yolunun bu gün bütün türk dünyasının yeni formatda birliyinə aparan bir başlanğıc olması Heydər Əliyev siyasi kursunun bundan sonra da bütün bəşəriyyətin rifahına, inkişafına misilsiz töhfələr verəcəyini göstərir. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri ölkələrimiz, xalqlarımız və dövlət başçılarımız arasında olan sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin həqiqətən də ən yüksək səviyyədə olmasının bariz göstəricilərindən biridir. Cənab Prezident İlham Əliyev bu səfəri belə dəyərləndirir: “Biz bu gün Şuşada görüşürük. Bu gün bütün Azərbaycan xalqının, türk xalqının gözü buradadır, dünyanın gözü buradadır. Azərbaycanda bu səfər səbirsizliklə gözlənilirdi və böyük maraq doğurur.” Bu görüşdə böyük öndərlər Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir” və Ulu Öndər Heydər Əliyevin “Türkiyə və Azərbaycan bir millət iki dövlətdir” kəlamlarının da əksini tapdığı və tarixə əsaslanan Şuşa Bəyannaməsi iki qardaş ölkənin müttəfiqliyinin və keyfiyyətcə daha yüksək işbirliyinin rəsmi təminatıdır.

Strateji əhəmiyyət kəsb edən Bəyannamədə bir çox önəmli məsələlər - beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti öz əksini tapıb. Həmçinin Bəyannamədə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilir. Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bəyannamədə o cümlədən, Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsində Türkiyə ilə Azərbaycanı dəmir yolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi həm də türk dünyasının birləşməsi, regionun təhlükəsizliyi və sosial-iqtisadi inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Həmçinin Şuşa şəhərində qardaş Türkiyənin baş konsulluğunun açılmasına dair qəbul olunmuş qərar Türkiyənin bu bölgədə mövqeyinin və gücünün möhkəmlənməsi kimi dəyərləndirilməlidir. Ümumilikdə Şuşa Bəyannaməsi ilə Azərbaycanla Türkiyə strateji müttəfiqlik münasibətlərini daha da dərinləşdirərkən bunu üçüncü tərəfə qarşı deyil, sadəcə öz təhlükəsizliyi baxımından zəruri hesab edərək qərarlaşdırır”.

Şuşa Bəyannaməsini hətta müxalifətdə olan Müsavat və Azərbaycan Xalq Cəbhəsi (AXCP) partiyaları da təqdir edib. Müsavat Partiyasının başqanı Arif Hacılının dünənki hadisəyə reaksiyası belə olub: “Türkiyə və Azərbaycanın "üçüncü ölkədən təhlükə olarsa" bir-birini qoruması barədə Şuşa Bəyannaməsi, Şuşada Türkiyə baş konsulluğunun açılması qərarı, iki ölkə arasında imzalanan digər razılaşmalar Azərbaycan-Türkiyə münasibətlərinin möhkəm siyasi iradəyə əsaslanan yeni mərhələsidir. Xalqımız və dövlətlərimiz üçün xeyirli-uğurlu olsun!”.

AXCP sədri Əli Kərimli isə bildirib: “Azərbaycan-Türkiyə hərbi ittifaqı nəhayət, rəsmiləşdi. Biz hər zaman belə bir ittifaqı zəruri saymışıq. Şuşa Bəyannaməsinə görə: "Azərbaycan və Türkiyənin hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə təcavüzün aradan qaldırılması məqsədilə... Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur”.

***Z.Məmmədli***

# "Təhsil Tələbə Krediti Fondu" yaradıldı - FƏRMAN

***Prezident İlham Əliyev "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" fərman imzalayıb.***

Unikal.org xəbər verir ki, sənəddə deyilir:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Təhsil Tələbə Krediti Fondu" (Fond) yaradılsın.

2. "Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi" təsdiq edilsin.

3. Müəyyən edilsin ki:

3.1. Fond təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsidir;

3.2. təhsil tələbə kreditinin məbləğinin yuxarı həddi hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləğindən çox olmamalıdır;

3.3. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 (yeddi) üzvdən ibarət Himayəçilik Şurası yaradılır;

3.4. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən - sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir;

3.5. Fondun fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

4. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Fondun idarəetmə orqanlarının yaradılması;

4.1.3. Fondun yenidən təşkili və ləğvi barədə qərar qəbul edilməsi;



4.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına Fondun ilkin nizamnamə kapitalının formalaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. Fondun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi qaydasını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki, Fondun vəsaiti hesabına verilmiş kreditlər üzrə müvəkkil kredit təşkilatlarının aktivlərinin risk qrupunu müəyyən etsin.

7. Azərbaycan Respublikasının Təhsil Nazirliyi:

7.1. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Təhsil Tələbə Krediti" altsisteminin yaradılmasını təmin etsin;

7.2. Fondun dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, habelə ali, orta ixtisas və peşə təhsili müəssisələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin sorğularının Elektron Hökumət İnformasiya Sistemi üzərindən cavablandırılmasını təmin etmək üçün bir ay müddətində zəruri tədbirlər görsünlər.

9. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, bu Fərmanın 8-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə inteqrasiyasını iki ay müddətində təmin etsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Nizamnamənin 4.1-ci bəndində nəzərdə tutulmuş maliyyələşməni təmin etsin.

# İlham Əliyev bu qanuna dəyişiklikləri TƏSDİQLƏDİ

***Prezident İlham Əliyev "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.***

Unikal.org-un xəbərinə görə, qanuna dəyişikliyə əsasən, dənizə çıxarkən balıqçılıq təyinatlı mühərrikli kiçik həcmli gəmilərlə sahildən on dəniz milinədək, digər üzmə vasitələri ilə isə sahildən iki dəniz milinədək uzaqlaşmağa yol veriləcək.

Əvvəllər sadəcə dənizə və sərhədboyu çayların, çöllərin başqa sututarların sularına çıxmağa qeydə alınmış mühərrikli və mühərriksiz üzmə vasitələrinə dənizə çıxarkən sahildən iki milədək uzaqlaşmağa yol verilirdi.

Bu zaman Hərbi-Dəniz Qüvvələrinin istifadəsində olan üzmə vasitələri, habelə Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən Dövlət Gəmi Reyestrində qeydiyyata alınan gəmilər və dənizə və sərhədboyu çayların, çöllərin başqa sututarların sularına çıxmağa qeydə alınmış mühərrikli və mühərriksiz üzmə vasitələri nəzərə alınır.

# Prezident Kəmaləddin Heydərova yeni səlahiyyət verdi



***Prezident İlham Əliyev "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında Protokolu" üzrə səlahiyyətli orqanın müəyyən edilməsi barədə sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncama əsasən, 2011-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında Protokolu" üzrə Azərbaycan tərəfindən səlahiyyətli orqan Fövqəladə Hallar Nazirliyi müəyyən edilib.

Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci hissəsinə uyğun olaraq "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında Protokolu" üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqanın müəyyən edilməsi barədə həmin Konvensiyanın Katibliyinə bildiriş göndərəcək.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# FHN-dən hava şəraiti ilə bağlı əhaliyə MÜRACİƏT

***Fövqəladə Hallar Nazirliyi güclü külək əsəcəyi ilə bağlı əhaliyə müraciət edib.***

Unikal.org Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən verdiyi xəbərə görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, iyunun 18-dən 19-u səhərədək ölkə ərazisində, xüsusilə Bakıda və Abşeron yarımadasında güclü külək əsəcəyi proqnozlaşdırılır.

Gözlənilən hava şəraiti ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, güclü küləyin səbəb ola biləcəyi təhlükələrdən qorunmaq üçün diqqətli olmağı və müvafiq təhlükəsizlik qaydalarına ciddi əməl etməyi tövsiyə edir.

Xüsusilə, bu mövsümdə insanların istirahət üçün çimərliklərə üz tutduğunu nəzərə alaraq xatırladırıq ki, güclü küləkli havada dənizə girmək təhlükəlidir. Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir! Təhlükə zamanı 112-yə zəng edin!

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Rusiya Zəngəzur məsələsində kömək etmək niyyətindədir" - Ərdoğan



***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yaxın günlərdə Rusiya prezidenti Vladimir Putinlə görüşəcək.***

Unikla.org-un məlumatına görə, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırarkən deyib.

Türkiyə prezidenti bildirib ki, Zəngəzur dəhlizi ilə bağlı Rusiya tərəfinin gecikdirmə niyyətinin olduğunu düşünmür:

"Tam əksinə Rusiya bu məsələdə kömək etmək niyyətində olduğu görünür. Yaxın zamanda ikili görüş keçirəcəyik".

# Ceyhun Bayramov Türkiyəyə getdi



***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirak etmək üçün Türkiyə Respublikasına yola düşüb.***

Bu barədə Unikal.org-a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Nazirlikdən bildirilib ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun Antalya Diplomatiya Forumunda çıxışı, habelə həm Türkiyə tərəfinin rəsmiləri, həm də Forumda iştirak edən xarici nümayəndələr ilə çoxsaylı ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulur.

# Ərdoğandan Azərbaycan səfəri ilə bağlı paylaşım

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz tvitter hesabında Azərbaycana səfəri ilə bağlı paylaşım edib.*

“Unikal” xəbər verir ki, Ərdoğan paylaşımında bildirib ki, Qarabağ zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı başa düşüləcək.

“Çünki bu, dağıntının yox quruculuğun, zülmün yox ədalətin, kobudluğun yox zərifliyin, müharibənin yox sülhün, qanın yox qəlbin zəfəridir”.



# Britaniyanın Azərbaycandakı biznes qrupunun nümayəndələri ilə görüş

*Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə Böyük Britaniyanın Azərbaycandakı biznes qrupunun nümayəndələri arasında görüş keçirilib.*

“Unikal” xəbər verir ki, Görüşdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, Komitə sədrinin müavinləri, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Layl Şarp, Birləşmiş Krallığın Azərbaycandakı biznes qrupunun rəhbəri Con Patterson və bu ölkədən olan iş adamları iştirak edib.

Birləşmiş Krallığın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Layl Şarp görüşün keçirilməsindən məmnunluğunu bildirib, iki ölkə arasındakı əməkdaşlıqdan, gömrük orqanları arasındakı qarşılıqlı münasibətlərdən, sərhədlərdə təhlükəsizliyin təmin olunması istiqamətində reallaşdırılan təcrübə mübadiləsindən danışıb.

Səfir Dövlət Gömrük Komitəsinin Azərbaycan iqtisadiyyatının inkişafında, vətəndaşların rifahının yaxşılaşdırılmasında, narkotiklərə qarşı mübarizədə, onların Avropaya daşınmasının qarşısının alınmasında xüsusi rol oynadığını bildirib. Birləşmiş Krallığın Azərbaycanda fəaliyyət göstərən iş adamları ilə gömrük məsələlərinə dair müzakirələrin aparılmasını yüksək qiymətləndirən diplomat görüşü qarşılıqlı əməkdaşlıq münasibətlərinin yeni müstəvisi kimi qiymətləndirib.

Azərbaycan iqtisadiyyatına yatırılan xarici investisiyalarda Birləşmiş Krallıq şirkətlərinin mühüm paya sahib olduğunu, əsasən neft-qaz sənayesi sahəsinə kapital qoyulduğunu vurğulayan səfir Azərbaycan hökumətinin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atdığı addımlar çərçivəsində təmsil etdiyi ölkənin şirkətlərinin qeyri-neft sektoruna da yatırım etdiyini diqqətə çatdırıb.

Azərbaycan hökumətinin həyata keçirdiyi təşviq siyasətinə uyğun olaraq işğaldan azad edilən ərazilərdə aparılan bərpa işlərində də Birləşmiş



Krallığı təmsil edən şirkətlərin fəaliyyətə başladığını bildirən Ceyms Layl Şarp qarşılıqlı əməkdaşlığın dərinləşməsi üçün mövcud imkanlardan səmərəli istifadə olunacağına ümidvar olduğunu bildirib.

Son illər Azərbaycanda bütün sahələrdə, o cümlədən gömrük sistemində aparılan islahatların biznesin dəstəklənməsində, şəffaflığın təmin olunmasında, korrupsiyanın aradan qaldırılmasında mühüm rol oynadığını, tətbiq edilən yeniliklərin Azərbaycanın reytinqini yüksəltdiyini diqqətə çatdıran səfir bu məlumatların Avropa İttifaqının, Birləşmiş Krallığın, eyni zamanda bir sıra beynəlxalq qurumların apardığı araşdırmalarda da əksini tapdığını vurğulayıb.

Sonda Ceyms Layl Şarp görüşün təmsil etdiyi ölkənin iş adamları ilə gömrük orqanları arasında səmərəli, işgüzar münasibətlərə mühüm töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev iki ölkə arasındakı səmərəli və işgüzar əməkdaşlıqdan danışıb, Birləşmiş Krallığın Azərbaycanda fəaliyyət göstərən iş adamlarının da bu münasibətlərin güclənməsinə və dərinləşməsinə mühüm töhfələr verdiyini bildirib.

Prezident İlham Əliyev tərəfindən son illər ərzində bütün sahələrdə olduğu kimi gömrük sistemində də aparılan mütərəqqi islahatlardan bəhs edən Səfər Mehdiyev tətbiq edilən yeniliklər hesabına gömrük orqanlarının kadr potensialının gücləndirildiyini, daha müasir və çevik strukturun formalaşdırıldığını, “kölgə iqtisadiyyatı”nın aradan qaldırılması, şəffaflığın tam təmin olunması istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu diqqətə çatdırıb.

O da qeyd olunub ki, hazırda “nəzarətdən xidmətə” prinsipi əsasında fəaliyyət göstərən gömrük orqanları ən müasir yanaşma və metodlardan istifadə edir və gömrük işinin təşkili prosesində çatışmazlıqların aradan qaldırılması məqsədilə hər zaman biznes nümayəndələrinin, o cümlədən britaniyalı iş adamlarının təklif və rəylərini dinləməyə, dəyərləndirməyə hazırdır.

Səfər Mehdiyev vurğulayıb ki, tətbiq edilən yeniliklərin nəticəsidir ki, son 3 ildə narkotiklərlə mübarizə çərçivəsində Avropaya daşınmasına cəhd göstərilən 6 tona qədər narkotik vasitə aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb.

Gömrük orqanlarının şəffaflığın təmin olunması, korrupsiya və “kölgə iqtisadiyyatı”na qarşı mübarizə tədbirlərindən də bəhs edən Komitə sədri görülən işlərin nəticəsi olaraq dövlət büdcəsinə ödənəcək vergi və rüsumların 2 milyard manatdan 4 milyarda çatdırıldığını bildirib.

Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində aparılan təkmilləşdirmələr, gömrük əməliyyatlarının tamamilə elektronlaşdırılması, risk əsaslı gömrük nəzarəti tədbirlərinin, “Yaşıl dəhliz” və digər innovativ yeniliklərin tətbiqi hesabına fiziki yoxlamaların 80 faiz azaldıldığını bildirən Səfər Mehdiyev gömrük orqanlarının beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi üçün ən qabaqcıl təcrübələrdən faydalandığını diqqətə çatdırıb.

Komitə sədri ümidvar olduğunu bildirib ki, bu görüş çərçivəsində qarşılıqlı səmərəli fəaliyyət üçün yeni imkanlar yaranacaq və əməkdaşlıq daha da güclənəcək.

Daha sonra görüşdə britaniyalı iş adamları tərəfindən müəyyənləşdirilən konkret məsələlər ətrafında müzakirələr aparılıb, biznes nümayəndələrinin sualları cavablandırılıb.

# Azərbaycan və Özbəkistan ombudsmanları görüşüb

*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Özbəkistan Respublikasının Ali Məclisinin İnsan Hüquqları üzrə Müvəkkili Feruza Eşmatova ilə görüş keçirib.*

Ombudsman Aparatından “Unikal”a bildirilib ki, görüşdə iki ölkənin tarixi dostluq və qardaşlıq münasibətlərindən danışılıb, ombudsman təsisatları arasında davamlı əməkdaşlıq əlaqələrinin mövcud olduğu qeyd olunub. Görüş zamanı Azərbaycan Ombudsmanı mandatı və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib.

Ombudsman Ermənistan və Azərbaycan arasında Vətən müharibəsi dövründə Ermənistan ordusunun Azərbaycanın mülki əhalisini hədəfə alan hücumları ilə bağlı həyata keçirdiyi faktaraşdırıcı missiyalar çərçivəsində hazırladığı insan hüquqlarına dair xüsusi hesabatlar barəsində danışıb.

Qeyd olunub ki, azad edilmiş ərazilərdə Ermənistan tərəfindən işğal dövründə basdırılmış minalar orada normal həyatın bərpa olunmasına çox ciddi problemlər yaradır, regionda sülhü və stabilliyi təhdid altına qoyur. Ombudsman müharibə bitdikdən sonra azad olunmuş ərazilərdəki minaların partlamasının çox sayda insanın həyatını itirməsi və ya xəsarətlər alması ilə nəticələndiyini diqqətə çatdırıb.

Öz növbəsində Feruza Eşmatova Özbəkistan Ombudsman Aparatının fəaliyyəti haqqında məlumat verib. O, iki qurum arasında səmərəli əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə hazır olduğunu qeyd edib. Tərəflər qurumlar arasında yeni ikitərəfli memorandumunun imzalanması ilə bağlı razılıq əldə ediblər.

# Şoyqu və Arutyunyan sərhəd məsələsin müzakirə edib

*Ermənistan müdafiə naziri vəzifəsini icra edən Vaqarşak Arutyunyan rusiyalı həmkarı, ordu generalı Sergey Şoyqu ilə Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətin həlli yollarını müzakirə edib.*

“Unikal” xəbər verir ki, bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Qeyd olunub ki, tərəflər Rusiya sərhədçilərinin Ermənistan-Azərbaycan sərhədinin Zəngəzur və Qekarkunik bölgələrindəki hissələrinə yerləşdirilməsi məsələsini müzakirə ediblər.

# Qəzada həlak olan hərbçilərimizə şəhid statusu veriləcək

*İyun ayının 16-da saat 16:40 radələrində xidməti vəzifələrini yerinə yetirərkən həlak olan Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi qulluqçuları - baş leytenant Nəsibov Elməddin Süleyman oğlu və gizir Kamallı Kamal Vilayət oğluna şəhid statusu veriləcək.*

“Unikal” xəbər verir ki, bununla bağlı Dövlət Sərhəd Xidmətindən (DSX) Oxu.Az-ın sorğusuna cavab olaraq bildirilib.

Qeyd edək ki, iyun ayının 16-da saat 16:40 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının “Qubadlı” əlahiddə sərhəd diviziyasının xidməti ərazisində yol qəzası baş verib. Sərhəd-döyüş məntəqələrindən hərbi hissəyə geri qayıdarkən Laçın rayonunun Cicimli kəndi yaxınlığında MAZ markalı yük avtomobili idarəetmənin itirilməsi səbəbindən yol kənarındakı dərəyə düşüb.



# Əfqan diplomatlara Böyük Qayıdış haqqında məlumat verildi

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov ADA Universitetində Əfqanıstandan olan diplomatlar və dövlət qulluqçuları qarşısında "Uzun müddətli məcburi köçkünlük və həsrətlə gözlənilən Qayıdış" adlı mühazirə ilə çıxış edib.***

Komitədən "Unika"a bildirilib ki, mühazirə universitetin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyi ilə birgə həyata keçirdiyi "Əcnəbi diplomatlar üçün xarici siyasət proqramı" ixtisasartırma kursu çərçivəsində təşkil olunub.

Komitə sədrinin müavini diplomatlara Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, işğal və deportasiya siyasəti, milli-etnik zəmində törətdiyi cinayətlər haqqında ətraflı məlumat verib. Bildirilib ki, 1988-1993-cü illərdə bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, ağır məhrumiyyətlərlə üzləşib. Azərbaycan dövləti onların sosial problemlərinin həllinə xüsusi diqqət yetirib, bu sahədə həyata keçirilən tədbirlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Ulu öndər Heydər Əliyevin bu sahədə müəyyənləşdirdiyi strateji xətti Prezident İlham Əliyev daha da təkmilləşdirərək davam etdirib, qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsini gücləndirib. Birinci vitse-prezident xanım Mehriban Əliyeva məcburi köçkünlərin problemlərinin həllinə daim xüsusi həssaslıq göstərib. İndiyədək qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün müasir tipli 115 qəsəbə istifadəyə verilib, 300 mindən çox məcburi köçkün yeni mənzillərə köçürülüb. Ötən ilin payızında Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əks-həmlə əməliyyatı nəticəsində işğalçı Ermənistan məğlubiyyətə uğrayıb, ölkəmizin ərazi bütövlüyü bərpa olunub, həmçinin məcburi köçkünlərin beynəlxalq qanunvericilikdə təsbit olunmuş qayıdış hüququndan istifadə edərək ata-baba yurdlarına geri dönməsi üçün şərait yaranıb. Bunun üçün təhlükəsizlik tədbirlərinin görüldüyü, ərazilərin minalardan təmizləndiyi, infrastruktur layihələrinin icra edildiyi vurğulanıb. Qarabağda Ermənistanın xarabalığa çevirdiyi ərazilərin bərpası zamanı "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl zona" layihələrinin icrasına üstünlük verildiyi qeyd edilib. Bildirilib ki, məcburi köçkünlərin öz yerlərinə könüllülük prinsipi əsasında, ləyaqətlə və təhlükəsiz şəkildə qayıdışı üçün Azərbaycan dövləti bütün zəruri tədbirləri görəcək və dünya ictimaiyyətinə post-münaqişə qayıdışı və reinteqrasiya üzrə dünyəvi model təqdim edəcək.

Sonda F.Hüseynov dinləyicilərin mövzu ilə əlaqədar suallarını cavablandırıb.

# "Azərbaycanda Türkiyənin hərbi bazaları da olacaq"

## Elxan Şahinoğlu: "Türkiyə artıq Azərbaycan və Qarabağda möhkəmlənib və Rusiya müttəfiqimizi bölgədən çıxarmaq iqtidarında deyil"

***Türkiyə Prezidentinin Azərbaycana, Şuşaya səfəri, orada aparılan müzakirələr, verilən mesajlar, imzalanan tarixi sənədlər yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Atlas Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Unikal"a müsahibəsində də elə bu ətrafda fikirlərini bölüşüb.***

***-Elxan bəy, Ərdoğanın Şuşa səfəri və tarixi anlaşma barədə Siz nə deyə bilərsiniz?***

-Bu, çox mühüm və əhəmiyyətli səfər idi. Əslində gözlənilən oldu. Tarixi Şuşa bəyannaməsi Azərbaycanın, o cümlədən Qarabağın təhlükəsizliyini Türkiyənin təminatı altına almış oldu. Bu, erməni separatizminə və onun havadarlarına ciddi xəbərdarlıq mahiyyəti daşıyır. Qarabağın istənilən məntəqəsinə hücum edib işğal etmək istəyən qüvvə bundan sonra Azərbaycanla yanaşı qarşısında Türkiyəni də görəcək. Türkiyənin Azərbaycanda - Qarabağ-

cür fədakarlığa hazırdır".

Türkiyə Cumhurbaşqanı bununla demək istədi ki, Ermənistan Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarından vaz keçib hər iki qonşusunun ərazi bütövlüyünü tanıyarsa, sərhədlər açıla və diplomatik münasibətlər qurula bilər. İkincisi, Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olmamalı və tam əksinə özü bu dəhlizdən istifadə etmək imkanı qazanmalıdır.

Buna baxmayaraq, Ermənistan bu gün o hayda deyil ki, Ərdoğanın Şuşada söylədiyi konstruktiv təkliflərə müsbət cavab versin.

***-Seçkiöncəsi gərgün mühit də hələlik bir söz deməyə imkan vermir. Elə deyilmi?***

-Ermənistandakı siyasi qüvvələr seçkiqabağı təbliğatlarını anti-türk əhval ruhiyyəsində davam etdirirlər. Ermənistanda formalaşacaq yeni hökuməti gözləmək lazım gələcək. Ancaq seçkidən sonra xaosun davam edəcəyi, hətta meydanda qarşıdurmaların

minatı üçün ayrı hansı alətdən istifadə etmək olar? Hərbi bazalar mövzusunu cəmiyyət olaraq gündəmdə saxlamalıyıq ki, bu məsələ də reallaşsın və Rusiyameylli güclər bizə mane ola bilməsinlər. Şuşa azad olunandan dərhal sonra "Şuşada Türkiyənin konsulluq binasının olması vacibdir" fikrimi də qəribçiliyə salanlar və inanmayanlar var idi. Oldu, Azərbaycanda Türkiyənin hərbi bazaları da olacaq.

***-Belə demək mümkündürsə, Şuşa səfəri, imzalanan sənədlər Ermənistana bomba kimi düşüb. Reaksiyaları necə dəyərləndirdiniz?***

-Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Qarabağa və Şuşaya səfəri və burada İlham Əliyevlə imzaladığı tarixi sənəd erməniləri yaman qorxudub, Ermənistanın olmayan Xarici İşlər Nazirliyi Qarabağdakı separatçılarla birgə açıqlamalar yayınlayıblar. Həmin açıqlamalarda ağıllarına gələn məntiqsizlikləri yazıblar, təkrarlamağa ehtiyac yoxdur, sadəcə Rusiyaya çağırışları diqqətimi çəkdi. Bəyanatlarındakı həmin cümlənin məğzi beləydi ki, "Ermənilər Türkiyənin Qarabağa gəlişini əngəlləyə bilməyəcəklər, Türkiyəni yeganə Rusiya saxlaya bilər, kömək edin...".

Rusiya prezidenti Vladimir Putin Ərdoğanla münasibətləri korlamaq istəməz. Digər tərəfdən Türkiyə artıq Azərbaycan və Qarabağda möhkəmlənib və Rusiya müttəfiqimizi bölgədən çıxarmaq iqtidarında deyil.

***-İndiki mərhələdə Ərdoğanın Co Baydenlə görüşü də mühüm əhəmiyyət kəsb edir...***

-Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Brüsseldə NATO toplantısı çərçivəsində amerikalı həmkarı Co Baydenlə görüşdən sonra verdiyi açıqlamalarda və suallara cavablarından bu qənaətə gəlmək olar ki, tərəflər arasında mövcud fikir ayrılıqları ortadan qaldırılmadı. Bir görüşlə bütün məsələlərin həll ediləcəyi əvvəlcədən də gözlənilmirdi. Vaşinqton nə Suriyada PKK-ya bağlı terrorçulara dəstəkdən vaz keçəcək, nə də Pensilvaniyada rahat həyat sürən Fətullah Güləni Türkiyəyə iadə edəcək. F-35 təyyarələri və S-400 raketləriylə bağlı məsələdə də fikir ayrılığı davam edir.

Buna baxmayaraq, iki böyük dövlətin lideri arasında dialoq mühitinin formalaşması tərəflər üçün faydalıdır. Digər tərəfdən liderlər fikir ayrılığı yaradan mövzuların diplomatlar və hərbçilər səviyyəsində müzakirələrinin davam etdirilməsi zərurətini vurğuladılar. Misal üçün iki dövlət arasında bir çox fikir ayrılığına baxmayaraq, Əfqanıstanda əməkdaşlıq davam edəcək. Bayden qarşısına məqsəd qoyub ki, bu ilin 11 sentyabrına qədər ABŞ qoşunları Əfqanıstanı tərk etməlidir. Ancaq Vaşinqton və NATO ondan da narahatdır ki, bundan sonra Əfqanıstan yenidən qarışa bilər və illərlə bu ölkədə çəkdikləri əziyyət hədər gedə bilər. Bu baxımdan Türkiyə hərbçilərinin strateji əhəmiyyətli Kabil hava limanında təhlükəsizliyi təminat etməsinə davam etməsi həm ABŞ, həm də NATO-nun xeyrinədir.



da formalaşdıracağı hərbi bazalar məmləkətimizin təhlükəsizlik təminatını daha da möhkəmləndirəcək. Türkiyənin Şuşada açacağı baş konsulluğu tarixi şəhərimizin təhlükəsizliyinə faydası olacaq. İndi Türkiyə ilə birgə Qarabağdakı birgə fəaliyyətimizi o nöqtəyə gətirməliyik ki, 5 ildən sonra bölgədə rusiyalı hərbçilər də qalmasın.

***-Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın verdiyi mesajları necə qarşıladınız?***

-Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Şuşadan Ermənistana etdiyi əvvəlki çağırışını təkrarladı: "Atəşkəs anlaşmasından sonra bütün tərəflər arasında yeni əməkdaşlıq imkanları yaranıb. Ermənistan ona uzadılan bu xoş niyyət və həmrəylik əlini tutmalı, ortaq gələcəyi birlikdə qurmaq fürsətindən yaxşı istifadə etməlidir".

Rəcəb Tayyub Ərdoğan daha əvvəl təklif etdiyi ""3+3" əməkdaşlıq platformasını xatırlatdı: "Bu platformada Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İranın iştirakı nəzərdə tutulur. Bu platforma ilə birlikdə bölgənin sülh içərisində yaşamasını istəyirik. Bu addımı atmaq üçün biz qardaşımla birlikdə hər cür fədakarlığa hazırıq. Hörmətli Vladimir Putin də bu şahidi ola bilərik. Ərdoğan Ermənistana çağırış edərkən təsadüfən Rusiya prezidenti Vladimir Putini xatırlatmadı. Əslində, Ərdoğan Putinə çağırış etdi ki, Kreml sahibi Rusiyadan asılı olan Ermənistana ağıl qoysun. Şuşa bəyannaməsində Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması zərurəti ilə bağlı cümlə yer alıb, yeni Ermənistan çağırışa müsbət cavab verməsə bu məsələ onun iştirakı olmadan da bölgə ölkələrinin xeyrinə həll olunacaq.

***-Amma cəmiyyətdə Şuşa bəyannaməsinin detallarını tam anlamayanlar da oldu...***

-Sosial şəbəkədəki hesabımda Türkiyə və Azərbaycan prezidentlərinin Şuşa bəyannaməsini şərh edərkən belə bir cümlə yazmışam: "Türkiyənin Azərbaycanda - Qarabağda formalaşdıracağı hərbi bazalar məmləkətimizin təhlükəsizlik təminatını daha da möhkəmləndirəcək".

Bəzi dostlarım statusun altında şərh yazıblar ki, "axı Bəyyanamədə Türkiyənin hərbi bazaları haqqında heç nə yoxdur". Bəli, Bəyyanamənin heç bir yerində "hərbi baza" ifadəsi yoxdur, ancaq Azərbaycanın və Qarabağın Türkiyənin təhlükəsizliyinin tə-

***Z.Məmmədli***

# Nazim İbrahimovun nə özünün, nə də qardaşlarının başı qalmaqallardan açılmır

## Keçmiş "diaspor şefi" və yaxınları barədə səs-küylü iddialar səngimək bilmir

***Azərbaycanın ən qalmaqallı ailələrindən biri olan İbrahimovlarla bağlı xəbərlərin ardı-arası kəsilmir. Söhbət Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimov və qardaşlarından gedir.***



Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, həmin qardaşlardan biri, Hacı İbrahim kimi tanınan iş adamı İbrahim İbrahimov yenidən məhkəməyə verilib. Belə ki, "Azərbaycan Beynəlxalq Bankı" ASC Hacı İbrahimin uzun illər rəhbərlik etdiyi "Avesta Konserni" MMC-yə qarşı məhkəmə iddiası qaldırıb.

Məhkəmə iclasının 14 iyunda Bakı Kommersiya Məhkəməsində hakim Zeynəb Axundovanın sədrliyi ilə keçirildiyi qeyd olunur. Məhkəmə iddiasının kredit müqaviləsi üzrə mübahisələrə görə qaldırıldığı bildirilir.

Qeyd edək ki, "Avesta Konserni" MMC-yə bu ilin aprel ayından etibarən Nadirov Araz Ələsgər oğlu rəhbərlik edir. Ona görə də əslində məhkəmə iddiasının məhz Hacı İbrahimlə bağlı olduğuna şübhə yoxdur. Çünki adıçəkilən iş adamının kredit qalmaqalları uzun müddətdir davam edir.

Yerli KİV-in yazdığına görə, hazırda dövlət büdcəsinə 97 min 775 manat 69 qəpik vergi borcu olan "Avesta Konserni" MMC barəsində İqtisadiyyat Nazirliyi də məhkəmə iddiası qaldırıb.

Lakin maraqlı olan məqam başqadır. Belə ki, Hacı İbrahim bu yaxınlarda KİV-ə verdiyi açıqlamada artıq heç bir borcunun qalmadığını demişdi. Bildirmişdi ki, xeyli müddət əvvəl inşasına başladığı, ancaq sonradan tikintisi yarımçıq qalan "Xəzər Adaları"nı borc müqabilində təhvil verib: "Banka olan borcumun faiz hissəsi məndən tutulmadığı üçün, əmlakın dəyəri 570 milyon manat oldu. Buna görə mənə 150 milyonu qaytarmalı idilər. Mən də dedim ki, istəmirəm, dövlətə bağışlayıram. Bütün borclarım bağlandı. İndi mənim bir manat da olsun borcum yoxdur. Nə alacağım var, nə də verəcəyim! Mən bütün kreditlərimi 100 faiz ödəməli oldum".

(Xatırlatma: "Xəzər Adaları" Xəzər dənizində, Bakıdan 25 km cənubda yerləşən, 41 adadan ibarət, 3000 hektar sahəni əhatə edən süni arxipelaq şəhər olmalı idi. Tikintisinə 2011-ci ildən başlanmış, ancaq yuxarıda da qeyd elədiyimiz kimi tamamlanmamışdı. Buna səbəb maliyyə çətinlikləri göstərilirdi).

İndi sual yaranır: Hacı İbrahim bütün borclarını ödəyib, hətta "Xəzər Adaları"ndan ona çatmalı olan 150 milyon manatı da dövlətə bağışlayıbsa, "Azərbaycan Beynəlxalq Bankı"nın "Avesta Konserni" MMC-yə qarşı yenidən məhkəmə iddiası qaldırmasının konkret səbəbi nədir? Üstəlik, şirkətin hələ də vergi borcunun olması, İqtisadiyyat Nazirliyinin də məhkəməyə baş vurması nə ilə izah edilə bilər?

Xatırladaq ki, təxminən iki ay öncə Nazim İbrahimovun digər qardaşı Sahib İbrahimov barəsində də qalmaqallı xəbər yayılmışdı. Həmin xəbərdə deyilirdi ki, Bakı şəhəri, Xətai Rayon Məhkəməsinin "STS" şirkəti, "Sahil-D Kompani" MMC-nin təsisçisi, dələduzluq faktlarına görə əvvəllər məhkum edilmiş İbrahimov Sahib Hüseyn oğlunun yenidən oxşar xarakterli cinayət əməlləri törətməsinə dair xüsusi qərardadı əsasında 2021-ci ilin yanvar ayından başlayaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmaqla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, cinayət işi üzrə aparılmış istintaq-əməliyyat tədbirləri ilə "STS" şirkəti və "Sahil-D Kompani" MMC-nin təsisçisi Sahib İbrahimovun qeyd edilən təşkilatların digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olaraq verdiyi tapşırıqlar əsasında əvvəlcədən vəd edilmiş əmlakı alıcıya vermək niyyəti olmadan tikintisi aparılan binalarda qeyri-yaşayış sahələrinin satılması görüntüsünü yaratmaq məqsədi ilə yalan vəd verərək saxta sənədlərin tərtib edilməsi yolu ilə ayrı-ayrı vaxtlarda vətəndaşdan ümumilikdə 1 milyon 735 min manat məbləğində pul vəsaitini alaraq şəxsi ehtiyaclarına sərf etməsinə, rəsmi sənədlərə bilə-bilə yalan məlumatları daxil etməklə vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib. Bundan başqa, Sahib İbrahimovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlük əldə etmək məqsədilə fərdi sahibkar kimi tikinti işlərinin aparılması üçün xərclərin ödənilməsi adı ilə kommersiya bankından 300 min manat məbləğində pul vəsaitini ələ keçirib şəxsi ehtiyaclarına sərf edərək təkrarən dələduzluq etməsinə əsaslı şübhələr müəyyənləşdirilib. İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında, 17 aprel 2021-ci il tarixdə Sahib İbrahimova Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib, sonuncu istintaq orqanının çağırışlarına gəlmədiyindən və müxtəlif üsullarla ibtidai istintaqın normal gedişinə mane olduğundan məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Məlumatda hazırda Sahib İbrahimovun digər qanunsuz hərəkətləri barədə daxil olmuş çoxsaylı müraciətlər əsasında intensiv istintaq hərəkətləri aparıldığı bildirilirdi.

Göründüyü kimi, bir yandan vaxtilə özünün yol verdiyi korrupsiya faktları, digər qanunsuzluqlarla bağlı mütəmadi olaraq medianın tənqid hədəfinə çevrilən Nazim İbrahimov digər tərəfdən qardaşları barədə qalmaqallı məhkəmə çəkişmələri ilə də gündəmdən düşmür. Xüsusilə ehtiyatda olan general-leytenant Rövşən Əkbərovun həbsindən sonra keçmiş "diaspora şefi"nin də cinayət məsuliyyətinə cəlb edilə biləcəyi barədə iddiaları xatırlatmaq yerinə düşər. R.Əkbərovun həbsinə səbəb kimi Azərbaycan vətəndaşı, 1971-ci il təvəllüdlü, Əliyev Elçin Fəday oğlunun 1 iyun 2001-ci il tarixdə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində soyuq silahla qəsdən öldürülməsi göstərilir. Mərhumun ailəsi isə həmin cinayətə N.İbrahimovun da şahidlik etdiyini vurğulayır. İstisna edilmir ki, istintaq bu iddianı da araşdıracaq. Belədə sabiq komitə sədrinin də ciddi başağrısı yaşayacağı qaçılmazdır.

***Toğrul Əliyev***



# "Ermənistanın 1064 hərbçisi itkin düşüb" - Serj Sarkisyan

***Ermənistanın keçmiş prezidenti Serj Sarqsyanın ofisi itkin düşən erməni hərbçilərin sayının göstərildiyi sənəd yayımlayıb.***

"Unikal" "Sputnik Armenia"ya istinadən xəbər verir ki, sənəd 6 apreldə Ermənistan baş nazirinin müavini Mher Qriqoryana və əmək və sosial məsələlər naziri Mesrop Arakelyana Hərbi Sığorta Fondu tərəfindən göndərilib.

Sənəddə deyilir ki, itən hərbçilərin sayı baş nazir Nikol Paşinyanın 14 apreldə ölkənin milli məclisində çıxışında iddia etdiyi kimi 321 nəfər deyil, təxminən üç dəfə çoxdur.

Sənəddə itkin düşənlərin sayı 1064 nəfərdir. Qeyd olunub ki, itkin düşən erməni hərbçilərin ailələrinə 500 milyon dram (təxminən 970 min ABŞ dolları) məbləğində təzminat verilib.

"Heç olmasa çıxıb insan kimi desinlər ki, itkin düşənlərin dəqiq sayını müəyyənləşdirmək mümkün olmayıb. Fondda bu rəqəmlər var", - deyə Serj Sarqsyan vurğulayıb

O, hakimiyyətin insanlara münasibətindən təəccübləndiyini qeyd edib.

# Cəbrayıl Peşə Məktəbində qanunsuzluqlar aşkarlandı

***Cəbrayıl Peşə Məktəbində yol verilmiş qanunsuzluqlarla bağlı daxil olmuş müraciət əsasında rayon prokurorluğunda araşdırma aparılıb.***

Cəbrayıl rayon Prokurorluğundan "Unikal"a verilən məlumata görə, aparılmış araşdırma ilə Mehman Quliyevin qeyd edilən məktəbin direktoru vəzifəsini icra etdiyi müddətdə katibə işləyən Jalə Quliyevanın əmək fəaliyyətini həyata keçirmədiyi halda adına olan əmək haqqı kartına 2019-cu il sentyabr ayından 2021-ci ilin mart ayına kimi köçürülən 6 min manat məbləğində pul vəsaitini öz qulluq mövqeyindən sui-istifadə etməklə mənimsəməsinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən faktla bağlı Cinayət Məcəlləsinin 179.2.3 və 179.2.4 (mənimsəmə-şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui?istifadə) maddələri ilə cinayət işi başlanılıb.

Hazırda cinayətin təfərrüatlarının araşdırılması və təqsirli şəxsin (şəxslərin) məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq tədbirləri davam etdirilir.

# Ağdamda itən şəxsin minaya düşdüyü məlum oldu

***İyunun 8-də Ağdam Rayon Polis Şöbəsinə rayon sakini Cəsarət Hətəmxanovun itkin düşməsi ilə bağlı məlumat daxil olub.***

Daxili İşlər Nazirliyi (DİN) Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Rayon Polis Şöbəsinin və Minatəmizləmə Agentliyinin əməkdaşları tərəfindən birgə axtarış tədbirlərinə başlanılıb. İlkin ehtimallara görə C.Hətəmxanovun mina və partlayıcı maddələrdən təmizlənməmiş ərazilərə keçdiyi müəyyən edilib.

Davam etdirilən axtarış tədbirlərində müasir avadanlıqlardan istifadə olunmuş, məhz dron çəkilişləri vasitəsi ilə iyunun 16-da C.Hətəmxanovun cəsədi rayonun Seyidli kəndi ərazisində aşkar edilib. Hazırda həmin şəxsin cəsədinin ərazidən götürülməsi istiqamətində Minatəmizləmə Agentliyinin əməkdaşları ilə birgə tədbirlər davam etdirilir.

# Şuşa bəyannaməsi bir millət iki dövlət fəlsəfəsinin hüquqi müstəviyə köçürülməsi idi



***Azərbaycan və Türkiyə arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi əslində bir millət iki dövlət fəlsəfəsinin hüquqi müstəviyə köçürülməsi hadisəsi idi. Bu isə mühüm tarixi hadisədir. Çünki iki dövlət arasında strateji müttəfiqlik münasibətlərinə təhlükəsizlik və işbirliyi kontekstində yeni keyfiyyət qazandırır. Beləliklə, bir dövlətinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təhdid edilməsi digəri üçün də təhdid kimi qəbul edilir və lazımı tədbirlərin həyata keçirilməsi öhdəçiliyini yaradır.***

"Unikal" xəbər verir ki, bu fikirləri Mediaturk.tv-yə açıqlamasında deputat, jurnalist Hikmət Babaoğlu bildirib.

O Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa bəyannaməsi imzalanarkən tarixi Qars müqaviləsinə istinad etməsi də bununla əlaqədar idi. çünki Qars müqaviləsinə əsasən, onun təhlükəsizliyinin təminatçısı həm də Türkiyə Cümhuiyyəti hesab edilir. İkinci mühüm bir məsələ odur ki, Şuşa bəyannaməsinin təhlükəsizliklə bağlı olan hissəsi BMT Nizamnaməsinə istinad edilərək hazırlanıb. Bu müqavilənin hüquqi əsasları beynəlxalq hüquqa söykənir və beynəlxalq hüquq tətəfindən dəstəklənir .Yəni, Azərbaycanla Türkiyə strateji müttəfiqlik münasibətlərini daha da dərinləşdirərkən bunu üçüncü tərəfə qarşı deyil, sadəcə öz təhlükəsizliyi baxımından zəruri hesab edərək qərarlaşdırır.

İkinci mühüm məsələ ondan ibarətdir ki, iki qardaş ölkə müqavilədən irəli gələn öhdəçiliyi və öz təhlükəsizliklərini təmin etmək üçün hərbi institusional qurumların mövcud olması reallığından və zərurətindən çıxış edərək bu istiqamətdə müştərək addımlar atmaqla bağlı qərar qəbul edirlər . Yəni, Şuşa Bəyannaməsində Silahlı Qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi,müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki qardaş ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunması istiqamətində sıx əməkdaşlığı da nəzərdə tutulur. Eyni zamanda bu məqsədlə səlahiyyətli struktur və qurumların qarşılıqlı əlaqəli fəaliyyətinin təmin edilməsi də vurğulanır. Bu isə əslində müdafiə güclərimizə birgə sinxron hərəkət qabiliyyəti tanıyır . Biz bilirik ki, vətən müharibəsindən sonra Azərbaycan Prezidenti Milli Ordumuz haqqında danışarkən Azərbaycanda Türkiyə Ordusunun kiçik modelini yaratmaq barədə öz fikirlərini səsləndirmişdi .Türkiyə Ordusu isə dünyanın döyüş qabiliyyəti ən yüksək və modern ordularından biridir . İmzalanan Şuşa bəyannaməsi həm də bu istiqamətdə real addımların atılmasını təmin edəcək. Başqa mühüm bir xüsus regional inteqrasiya ilə bağlıdır. Bu Cənubi Zəngəzur dəhlizinin açılması ilə əlaqədar olaraq müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tutur .Bütün bunlarla yanaşı media, diaspora, xarici siyasətdə birgə hərəkətetmə, təhsil,iqtisadiyyat müasir texnologiyalar, birgə investisiya planları və s. sahələrdə də əməkdaşlığın daha da dərinləşdirilməsi, nəzərdə tutur ki, bu da iki qardaş ölkə arasında tərəfdaşlığın inkişafı üçün yeni üfüqlərə açmaqla həm də regional əməkdaşlığı və qarşılıqlı inteqrasiyanı təşviq edir.

# Laçında həlak olan hərbçilərlə bağlı rəsmi məlumat

***İyun ayının 16-da saat 16:40 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının xidməti ərazisində yol qəzası baş verib.***

"Ünikal" xəbər verir ki, DSX-nın məlumatına görə, sərhəddöyüş məntəqələrindən hərbi hissəyə geri qayıdarkən Laçın rayonunun Cicimli kəndi yaxınlığında "MAZ" markalı yük avtomobili idarəetmənin itirilməsi səbəbindən yol kənarındakı dərəyə düşüb. Nəticədə avtomobildə olan hərbi qulluqçular - baş leytenant Nəsibov Elməddin Süleyman oğlu və gizir Kamallı Kamal Vilayət oglu vəfat ediblər. Hadisə ilə əlaqədar prokurorluq orqanlarının əməkdaşları ilə birlikdə ilkin araşdırma tədbirləri həyata keçirilir.

# Fazil Məmmədov biznesini Azərbaycandan köçürür

## Sabiq "vergilər şefi" də bir çox məmurlar kimi Londonu seçib



***Sabiq Vergilər naziri Fazil Məmmədov Azərbaycandakı biznesini xaricə köçürməyə başlayıb. Onun xüsusilə otel və restoran ticarətini bundan sonra ölkə kənarında davam etdirmək niyyəti var.***

Əslində keçmiş nazir hələ əvvəldən xaricdə geniş biznes şəbəkəsi yaratmışdı. Məsələn, Fazil Məmmədovun Ukrayna paytaxtında 5 ulduzlu oteli, siqaret, təkər zavodu və böyük bazarı var. Kiyevdəki otel "11 Mirrors Design Hotel" adlanır.

Onun Kiyevdəki "Vladimirski" bazarı böyük biznesinin kiçik bir parçasıdır. Kiyevdəki bazarlar arasında böyüklüyünə görə ilk üçlükdə olan bu bazarda paltar və meyvə-tərəvəz satılır. Kiyevin ən bahalı bazarı hesab olunur. Ukraynadakı təkər zavodunun 49 faizi, Xarkov siqaret zavodunun səhmlərinin 41 faizi sabiq nazirə məxsusdur. Sabiq nazirin Ukraynanın kurort şəhəri Truskovetsdə də olduqca lüks oteli var. Həmin otel "Mir" adlanır. Nazirin otelində ən müxtəlif kateqoriyadan nömrələr var. Bu nömrələr arasında "Prezident stili" kateqoriyasından olanlar xüsusi diqqət çəkir. Otelin ölçücə ən böyük olan bu nömrəsi 126 kvadratmetrdir.

Bunlar sabiq nazirin xaricdəki böyük biznesi haqda kiçik məlumatlardır. Onun ölkə daxilindəki binzesi isə daha genişdir. Məsələn, keçmiş "vergi şefi"nin ata yurdu Şəmkirdə hər tində bir müəssisəsi, fabriki, istixanaları, quşçuluq fabrikləri və s. biznes strukturları vardı. Vəzifədən çıxarılandan sonra aparılan ilkin yoxlamalarla müəyyən olunmuşdu ki, Fazil Məmmədovun qohum-qardaşının yaşadığı Şəmkir rayonunda salınan təkcə 1 parka görə büdcədən 830 min manat silinib. Faktiki isə parkda görülən işlərin dəyəri 83 min manatdan da az olub.

Keçmiş nazirin Şəmkirdəki gəlir mənbələrinin kiçik bir hissəsi: Sabirkənddə yan-yana 200-ə yaxın istixana (burada əsasən "kitayski roza" əkdirir və xarici bazarlara çıxarılır), "Şəmkir-Quşçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti (nazirin qardaşı Vaqif Məmmədovun adına rəsmiləşdirilib), Zəyəm qəsəbəsində yerləşən, sovet dövründə "Bakı avtomobil ehtiyat hissələri" zavodunun filialı kimi fəaliyyət göstərən zavod ("Zəyəmkəndmaş" adlanan zavodda Fazil Məmmədovun istixanaları üçün metal konstruksiyalar hazırlanıb), "Şəmkir Ətsüd" Məhdud Məsuliyyətli Cəmiyyəti (icraçı direktoru Fazil Məmmədovun qardaşı oğlu Tamerlan Məmmədovdur), "Yalta Meşə" Ailəvi İstirahət Mərkəzi (eks-nazirin əmisi oğlu Kamal Məmmədovun adına rəsmiləşdirilərək işlədilib) və s. və i.a.

Bundan başqa, məlum olub ki, 2010-cu ildə ölkə rəhbərliyinin iştirakı ilə açılışı baş tutan Gədəbəy rayonunun yeganə stadionunu Fazil Məmmədov 2015-ci ildə özününküləşdirib.

Sabiq nazir həmçinin Gədəbəydəki iri istirahət mərkəzlərinin demək olar ki, hamısına sahib idi. Rayondakı "Narzan" adlanan istirahət mərkəzi, "Eldorado" oteli və çoxsaylı obyektlər Fazil Məmmədova böyük vəsaitlər qazandırırdı. O, naziri postundan çıxarıldıqdan sonra özünün və yaxınlarının adına rəsmiləşdirdiyi əmlakları digər şəxslərin adına keçirməyə başlayıb. Bununla isə onların əlindən alınmasını önləmək istəyib.

Son məlumatlara görə isə bu ilin əvvəllərindən etibarən F.Məmmədov bir çox obyektlərini satmağa başlayıb. Bu sırada məşhur "Elselsior" (Excelsior) otel şəbəkəsi də var. Deyilənə görə, hazırda Şəmkirdəki malikanəsində yaşayan və səhhəti normallaşan eks nazir bundan sonra bütün diqqətini xaricdəki biznesini genişləndirməyə yönəltmək fikrindədir. Onun xüsusilə İngiltərə paytaxtı Londona maraq göstərdiyi deyilir. Bunun isə səbəbi var. Belə ki, Fazil Məmmədov hələ nazir olduğu vaxtlarda özünün köməkçisi Qafar Qurbanovu və onun qardaşı, mühafizə xidmətinin rəisi Samiri Londona göndərib. Bu onun o vaxtdan İngiltərə paytaxtına meyl saldığını göstərir. Bundan başqa, keçmiş "vergi şefi"nin kürəkəni Əbdül Əliyev də Londonda məskunlaşıb. Onun bu şəhərdə çoxmilyonluq əməliyyatlar apardığı məlumdur.

Beləliklə, F.Məmmədov da bir çox keçmiş və indiki iri məmurlar, onların övladları kimi İngiltərə paytaxtında böyük yatırımlara hazırlaşır. Halbuki bir çoxlarının gözləntisi eks nazirlə bağlı korrupsiya araşdırmalarının aparılması və Səlim Müslümov kimi cəzalandırılması idi...

***Hüseyn İsgəndərova***

# Elman Rüstəmovun dostunun bağlanan sığorta şirkəti ilə bağlı müəmma

"Başak-İnam"ın ləğv edilməsi bir çox suallara yol açıb - həzin sonun sirri nədir?



***Azərbaycanda daha bir sığorta şirkətinin fəaliyyəti dayandırılıb. Belə ki, "Başak-İnam Sığorta Şirkəti" ASC ləğv olunduğunu elan edib.***

"Vergilər" qəzetinin verdiyi məlumata görə, kreditorlar iki ay ərzində tələblərini Bakı şəhəri, Yasamal rayonu, H. Cavid prospekti, ev 79 ünvanına bildirə bilərlər.

Qeyd edək ki, cari ilin əvvəlində Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə "Amrah Sığorta" və "AXA MBask" sığorta şirkətlərinin lisenziyaları ləğv olunub. Bununla da ölkədə fəaliyyət göstərən sığorta şirkət 22-dən 20-yə düşmüşdü.

Xatırladaq ki, bu il bağlanan 3-cü sığorta şirkəti - "Başak-İnam" 1996-cı ildə təsis edilib. Bu ilin iyun ayının 1-nə şirkətin nizamnamə kapitalı 1 mln. manat təşkil edib.

Yerli medianın iddiasına görə, "Başak-İnam" 2009-cu ildən Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) prezidenti olan və iş adamları arasında "şapka Mamed" kimi tanınan Məmməd Musayevin patronajlığı altında fəaliyyət göstərən şirkətlərdən sayılır.

Belə ki, "Başak-İnam"ın təsisçiləri rolunda Türkiyənin "Başak Group AMA" (49%) şirkəti ilə yanaşı Azərbaycanın «Turan Bank" (15%) və "Azər-Türk Bank" (10%) da çıxış edir. Hər iki bankın isə qeyri-rəsmi olaraq M.Musayevə məxsus olduğu məlumdur.

Şirkətin digər təsisçiləri isə yerli fiziki şəxslərdir (26%). Onların arasında 15,1 faizlə eyni zamanda Direktorlar Şurasının sədri vəzifəsini yerinə yetirən Akif Kərimovun adı ön plana çıxır. A.Kərimov yerli mediada "Şapka Mamed"in biznes ortağı kimi təqdim olunur. Bir neçə il öncə onun ailə üzvlərindən birinin, daha dəqiq desək, qardaşı oğlunun Milli Bankın İpoteka Kreditləri Departamentində rəhbər vəzifədə işlədiyi barədə məlumat yayılmışdı. Həmin vəzifəyə isə məhz M.Musayev sayəsində təyin edildiyi deyilirdi.

Məsələ burasındadır ki, M.Musayev Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmovla yaxın dostdular. Elə onun özünün ASK prezidenti postuna gətirilməsi də ölkənin baş bankirinin xidməti hesab olunur. Həmçinin bu iki şəxsi ortaq biznes, nəhəng layihələr birləşdirir. Bakıda M.Musayev tərəfindən tikilən bir çox hündürmərtəbəli yaşayış binalarının maliyyəsini Elman Rüstəmovun buraxdığına dair məlumatlar var.

Maraqlıdır ki, güclü himayəçilərinin və ortaqlarının olmasına baxmayaraq "Başak-İnam"ın ləğvi məsələsi bir neçə ildir gündəmdə idi. Belə ki, hələ dörd il öncə Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) məhkəməyə müraciət edərək "Başak İnam Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin məcburi ləğv olunması və iflas proseduruna başlanılmasını tələb etmişdi. MBNP-nin ərizəsinə 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsində baxılmış və iddia mümkün sayılmamışdı. Bununla da, ASC-nin məcburi ləğvindən imtina edilmişdi.

Palata qərardan narazı qalmış və apellyasiya şikayəti vermişdi. Bu dəfə işə Bakı Apellyasiya Məhkəməsinin hakimi Həmid Həmidovun sədrliyi ilə baxılmış və qərardad qüvvədə saxlanılmış, yeni növbəti dəfə MBNP-yə "yox" cavabı verilmişdi.

Qeyd edək ki, həmin il (2017) könüllü ləğvetmə ilə bağlı MBNP-yə müraciət etmiş "Başak-İnam Sığorta Şirkəti"nin 2016-cı ildə cəmi gəlirindən çox zərər etdiyi açıqlanmışdı. Şirkətin maliyyə hesabatlarından məlum olmuşdu ki, "Başak-İnam"ın cəmi gəlirləri 1 milyon 386 min manat, cəmi xərcləri isə 2 mlyon 891 min manat təşkil edib. Nəticədə şirkət 2016-cı ili 1 milyon 506 min manat zərər ilə başa vurub. Halbuki "Başak-İnam" 2015-ci ilin yekunları üzrə 266 min manat xalis mənfəət açıqlamışdı.

Sonrakı illərdə özünü toparlaya bilməyən, sonda isə həzin bir şəkildə ləğv edildiyini açıqlayan "Şapka Mamed"in sığorta şirkətinin belə sürətli çöküşü maraq doğurur. Əsas sual isə budur: güclü himayəçiləri və ortaqları olmasına rəğmən 25 yaşlı "Başak-İnam" niyə birdən-birə bu qədər zəiflədi və bazardan çıxmaq məcburiyyətində qaldı?!

***Toğrul Əliyev***

# Şuşa Bəyannaməsi tarixə düşəcək - Türk Şurasının Baş katibi

***Şuşa Bəyannaməsi tarixə nümunəvi bir sənəd kimi düşəcək. Bunu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amrayev Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ilə bağlı bəyanatın deyib.***

Baş katib Türk dünyasının qədim mədəniyyət beşiyi Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanmasını alqışladığını qeyd edib: "Şuşa Bəyannaməsində bütün Türk dünyasında mövcud olan həmrəyliyin gücləndirilməsinə yönəlmiş bir çox mühüm müddə var. Bu baxımdan, Şuşa Bəyannaməsi türklük şüuru ilə



Türk dövlətləri arasındakı hərtərəfli iş birliyinin daha yüksək səviyyələrə necə qalxdığını göstərən nümunəvi bir sənəd kimi tarixə düşəcək".

Baş katibin sözlərinə görə, bəyannamə yalnız iki ölkənin və xalqlarının mənafeyinə deyil, bütün Türk dünyasının mənafelərinə xidmət edəcək və bəyannamə təşkilat çərçivəsində həyata keçirilən çoxtərəfli əməkdaşlığın ardıcıllığının təsdiqidir.

Bağdad Amrayev onu da vurğulayıb ki, Şuşa Bəyannaməsi regional sülh, sabitlik və rifah üçün güclü çağırışdır: "Şuşa Bəyannaməsi bölgə ölkələrini bütün tərəflərin xeyrinə konkret layihələr vasitəsilə Cənubi Qafqazda yeni sülh və sabitlik bölgəsi yaratmağa dəvət edir. İnanıram ki, Azərbaycan və Türkiyənin müttəfiqlik münasibətlərini siyasi və hüquqi mexanizmlər vasitəsilə inkişaf etdirmək əzmi Türk Şurasına üzv olan və müşahidəçi dövlətlər arasında və bölgədə hərtərəfli əməkdaşlıq prosesini daha da gücləndirəcək".



# Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin real vəziyyəti necədir? - Ekspert şərhi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri əsas siyasi xarakter daşısa belə, bu səfərlər iqtisadi münasibətlərdə yeni cığırlar açır, mövcud cığırları genişləndirir. Türkiyə indiyədək Azərbaycana təxminən 12 milyard dollar investisiya yatırıb, ondan dəfələrlə kiçik (hər mənada) Azərbaycan isə bunun 160%-i qədər, yəni 19 milyard dollar investisiya qoyub.***

Bunu Azvision.az -a iqtisadçı ekspert Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, bu səfərdən sonra investisiya fərqlərinin tədricən aradan qalxacağı gözlənilir.

"Necə? Azərbaycanın yatırdığı investisiya həcmlərinin çox olma səbəbi bu investisiyanın enerji, neftkimya sənayesi kimi bahalı sahəyə yönəldilməsi olub. Türkiyə daha çox qeyri-neft, qeyri-enerji sahələri üzrə investisiya yatırıb. Hazırda Türkiyənin Azərbaycanda enerji sektoruna investisiya yatıracağı ilə bağlı gözləntilər böyükdür. Amma bu, ənənəvi enerji deyil, yaşıl enerji istiqamətini əhatə edəcək. Bunun üzərinə işğaldan azad edilmiş ərazilərimizə kütləvi cəlb edilmiş türk şirkətlərinin fəaliyyətini də gəlsək, demək, yaxın vaxtlarda investisiya balansında ciddi dəyişikliklər olacaq", - iqtisadçı əlavə edib.

Onun sözlərinə görə, bir müddət əvvəl Türkiyə ilə Azərbaycan arasında bağlanmış Preferensial Ticarət Sazişindən sonra hər iki ölkə rəsmilərinin illik ticari dövriyyənin 3 dəfədən çox artırılaraq 15 milyarda çatdırılacağı ilə bağlı açıqlamaları ciddi iddiadır. 2019-cu ildə iki ölkə arasındakı ticarət dövriyyəsi özünün maksimum həddini- 4,5 milyard dolları keçmişdir. Ötən il isə təxminən 300 milyonluq bir azalma baş verib.

E.Əmirov hesab edir ki, bütün bunlara rəğmən, bu göstəricinin 15 milyardlıq hədəfə tuşlanmasının ciddi əsası var:

"Belə ki, Azərbaycan bazarlarında türk mallarının daha çox olacağı gözlənilir. Dövriyyə artımının kökündə bu dayanır. Çünki Azərbaycanın qeyri-neft sahəsində ixrac potensili onsuz da o qədər deyil ki, 15 milyard dollar həcmdə ciddi yer tutsun. Azərbaycanın neft-qaz ixracının artması, eləcə də Türkiyədən Naxçıvana qaz xəttinin işə salınması kimi məsələlər də təbii ki, öz töhfəsini verəcək. Amma dövriyyənin ana kanalı türk mallarının idxalı olacaq. Bu zaman Azərbaycan və Türkiyə arasında ciddi güzəştlərlə əlavə ticarət sazişlərinin imzalanması istisna deyil. Bu zaman zərər görəcək əsas sahə türk idxalı ilə eyni təyinatlı məhsulların yerli istehsalı olacaq. Onsuz da möhkəmlənmiş manat yüksək maya dəyərilə başa gələn Azərbaycan məhsullarını xarici məhsullara rəqabətdə uduzdurur. Bu azmış kimi ucuz lirə fonunda yerli məhsulların işi daha da çətin olacaq. İstər Türkiyə bazarlarında, istər Azərbaycan bazarlarında bizim məhsullar məğlubiyyətə məhkumdur. Buna görə də mütləq rəqabətə davamlı olması üçün yeni texnalogiyaya əsaslanan istehsal sahələrinin yaradılması üçün çox ciddi düşünmək lazımdır. Bunun ən effektiv yolu Türkiyə və "BB" reytinqinə sahib şirkətlərinin Azərbaycanda müəssisələr yaratmasıdır. Bu ölkələrin həm texnaloji yanaşma tərzi, həm təcrübəsi, həm də xarici bazar spektri çox genişdir. BB-Azərbaycan, Türkiyə-Azərbaycan, hətta BB-Türkiyə birgə müəssisələrinin də yaradılması isə bizim üçün ixrac potensialının artırılması və qabaqcıl təcrübənin qazanılması üçün ikiqat əhəmiyyətli olardı".

***Pərvanə Sultanova***

## ELAN

**Gədəbəy rayon Gər-gər kənd sakini Abdullayeva Səlmi Əli qızının adına olan A 097163 nömrəli torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.**



# Yol polisi yollarda gizli radarlar quraşdırır? - Rəsmi açıqlama

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) sürücülərə müraciət edib.***

İdarədən Unikal.org-a verilən məlumatda deyilir: "Bəzi şəxslər sosial şəbəkələrdə və internet saytlarda guya "yol polisi yollarda gizli radarlar quraşdırır, maksimum sürət həddini göstərən yol nişanlarını tez-tez dəyişir və ya qayda pozmasalar belə sürücüləri cərimələyir" kimi fikirlər səsləndirirlər. Bildiririk ki, bu deyilənlərin heç bir əsası yoxdur, çünki radarlar foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrdir, BDYPİ-nin mərkəzi informasiya sisteminə inteqrasiya olunub və inzibati xəta törədilməsinə dair məlumatlar real vaxt rejimində elektron formada birbaşa həmin sistemə ötürülür.

Bununla yanaşı, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən, yollarda nəqliyyat vasitələrinin hərəkət sürətinin ölçülməsi üçün nəzərdə tutulan mobil və ya stasionar xüsusi texniki vasitələrdən (radarlardan) qabaqda radarın mövcudluğu barədə məlumat vermək məqsədilə 6.14 "İnformasiya stendi" servis nişanı və əlavə məlumat nişanı, yaxud həmin yolda icazə verilən sürət həddini göstərən 3.24 "Maksimum sürətin məhdudlaşdırılması" nişanı quraşdırılmalıdır. Belə servis nişanı və ya 3.24 nişanı yaşayış məntəqələrindən kənarda müvafiq radardan 150-1000 metr qabaqda, yaşayış məntəqələrində isə 50-200 metr qabaqda quraşdırılır.

Qeyd olunan məsafələrdə bu iki nişandan biri olduğu halda, sürücülər tərəfindən yollarda sürət həddinin aşılması kimi qayda pozuntularının aşkarlanmasında foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrdən (mobil və ya stasionar radarlardan) istifadə olunması həm qanunvericiliyin tələblərinə uyğundur, həm də belə inzibati xətaların qarşısının alınması üçün bu gün başqa hər hansı üsul yoxdur.

Radarların, həmçinin yollarda maksimum sürət həddini göstərən nişanların quraşdırılması bütün dünyada olduğu kimi, Azərbaycanda da yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə, ağır qəzaların qarşısının alınmasına hesablanıb və ora heç bir müdaxilə oluna bilməz. O ki qaldı stasionar radarlardan başqa patrul avtomobillərində olan mobil radarlardan (e-patrul) yeri dəyişdirilməklə istifadə olunması, bu, dünyanın bir çox ölkəsində tətbiq edilən vasitədir. Bu metod sürücüləri yollarda arxayınlaşmaqdan çəkinməyə vadar edir. Belə ki, sürücülərin çoxu yollarda radarların yerini əzbər bildiyi üçün həmin xüsusi texniki vasitələrə yaxınlaşanda sürət rejiminə əməl edir, daha sonra isə sürət həddini aşırlar. Belə olan halda yol polisi təhlükəsizliyin təmin edilməsi, qayda pozuntularının qarşısının alınması məqsədilə bəzən radarların yerini dəyişməyi üstün tutur. Bununla da sürücülər yol-hərəkəti qaydalarına əməl etməyə məcbur edilir. Görülən bu kimi tədbirlər sayəsində Azərbaycanda son illər yol-nəqliyyat hadisələrinin, eləcə də qəzalar zamanı ölən və yaralananların sayının azalmasına nail olunub. Nəzərə almaq lazımdır ki, statistik rəqəmlərə əsasən hər il ölüm və xəsarətlə nəticələnən yol-nəqliyyat hadisələrinin təhlili aparılarkən sürət həddinin aşılması ön sıralarda durur, yəni yol-nəqliyyat hadisələrinin baş verməsinin əsas səbəbləri kimi sürət həddinin aşılması danılmaz faktdır.

Qeyd olunanları nəzərə alaraq, Baş Dövlət Yol Polisi İdarəsi bütün sürücüləri radarların mövcudluğuna görə narahat olmaqdansa, yol hərəkəti qaydalarına, eləcə də sürət rejiminə ciddi əməl etməyə çağırır və bir daha bildiririk ki, qayda pozmayan sürücü nə radara düşür, nə də əsassız cərimə olunur".

# Məmur-oliqarxların "Xəzər ovu"...

## Həftənin replikası: dənizi vəzifəli şəxslərin girovluğundan azad etmək niyə mümkün olmadı?

***Beş il öncə çoxlarımızı sevindirən xəbər yayıldı. Xəbərdən belə məlum olurdu ki, dənizi hasarlayanları, xüsusilə qanunsuz olaraq dəniz kənarında villa sahiblərini yaxın zamanlarda böyük "sürpriz" gözləyir.***

Bildirilirdi ki, Xəzər dənizinin imkanlı məmurların girovluğundan geri alınması üçün ciddi işlər aparılır. "Demək olar ki, söküləcək hasarlar, villaların tam siyahısı hazırdır. Bnunla da imkanlı şəxslər, oliqarxlar, yüksək çinli məmurlar zəbt etdikləri ərazilərdən çıxmağa vadar olacaqlar.Bu isə əbəs yerə deyil. Belə ki, ilin əvvəlindən Azərbaycanda dəniz sahilində torpaq sahələrini icazəsiz hasarlayan şəxslərə qarşı cəza tədbirləri sərtləşdirilib" deyə yerli KİV qeyd edirdi.

Məsələ burasındadır ki, "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2015-ci il 18 dekabr tarixli qanunun tətbiqi və "İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" qanunun tətbiq edilməsi barədə" 2000-ci il 29 avqust tarixli fərmanında dəyişikliklər edilməsi haqqında fərman imzalanıb. Dəyişikliklərə əsasən, Xəzər dənizinin Azərbaycana məxsus olan bölməsində sahilboyu 20-50 metr zolağın altında olan torpaq sahələri ilə bağlı tələblərin pozulmasına görə cərimələr müəyyənləşib.



Həmin torpaq sahələrinin müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə hasara alınma yolu ilə və ya digər üsullarla bağlanmasına, müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə hasara alma digər üsullarla bağlanması zamanı tikinti konstruksiyalarının dənizin və onun sahilində su ilə qurunun təmas xətinin görünməsinin və ya dəniz sahilində gediş-gəlişin məhdudlaşdırılması və yaxud 100 metrdən bir dövlət sərhədinin mühafizəsinin təmin olunması məqsədilə eni 6 metrdən az olmayaraq sahilə birbaşa keçidin təmin olunmaması məqsədilə fiziki şəxsləri 4 min manat, vəzifəli şəxsləri 8 min manat, hüquqi şəxsləri 40 min manat miqdarında cərimə gözləyir.

Bu cərimələr dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərinin təmin edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının qərarı olmadan həmin torpaq sahəsində dənizin sahilinə gediş-gəlişin məhdudlaşdırılmasına görə də tətbiq olunacaq.

Sadalanan xətalar təkrar törədildikdə, fiziki şəxslər 5 min manat, vəzifəli şəxslər 10 min manat, hüquqi şəxslər 50 min manat cərimə ediləcək.

"Unikal" qəzeti olaraq bu mövzuda dəfələrlə bəhs etmişik; Xəzərin hasarlanmasından bəhs edərkən yazmışdıq ki, dənizi hasarlayan məmur-oliqarxlar hələ də öz işindədir: onların dənizkənarı ərazilərdəki villaları öz əzəmətli görünüşü ilə tikildikləri yerlərdə qalırlar, heç bir söküntüdən söhbət getmir.

Reallıq ondan ibarətdir ki, hazırda Xəzərin az qala boş sahil ərazisi qalmayıb, bütün əsas çimərlik zonaları tamamilə tutulub. Görünür, bu il də əvvəlki illərdə olduğu kimi paytaxt əhalisi çimməyə pulsuz çimərlik tapa bilməyəcək. Hündürlüyü 5-6 metrdən yüksək olan hasarların arxasından isə, hətta dənizi görmək mümkün deyil. Bakı buxtasının gözəlliyini yalnız Azərbaycanın fiziki xəritəsində görmək olar.

Onu da deyək ki, bu mövzu ilk dəfə hələ 2000-ci illərin əvəlində gündəmə gəlmişdi; 2000-ci il yanvarın 13-də bununla bağlı sərəncam da imzalanmışdı. Sərəncamda deyilirdi ki, əhalinin çoxsaylı şikayətlərini, Xəzər dənizinin xalqa məxsus olduğunu əsas götürərək, dənizin 130 metrlik sahil sahəsində tikilmiş fiziki və ya hüquqi şəxslərə qanunsuz olaraq verilmiş sahələr ya inzibati, ya məhkəmə qaydasında alınsın və insanların dəniz çimərliklərinə sərbəst giriş-çıxışı təmin edilsin.

Sonrakı illərdə poblemi aradan qaldırmağa imkan verən hüquqi baza möhkəmləndirilsə də, oliqarxməmurlar əhalinin dənizə girmə hüququnu məhdudlaşdırmağa davam edirlər. Bu, onların faktiki olaraq müvafiq qanunvericiliyə etinasız yanaşmasının nümayişidir.

Yeri gəlmişkən, təxminən ilyarım öncə bu mövzuda danışan Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin direktoru Ərəstun Həsənov yerli mətbuata olduqca maraqlı açıqlama vermiş, demişdi ki, bu ilin yazında bir sıra dövlət qurumlarının Xəzər sahili zolaqda yerləşən obyekt sahiblərinə verdiyi xəbərdarlığın vaxtı bitib. Direktor vurğulamışdı ki, Xəzər sahillərini çoxsaylı villalar zəbt edib, nə Bakıda, nə şəhərdən kənarda Xəzərətrafı zonada bir qarış belə boş sahə qalmayıb, dəniz sahili tam hasarlanıb.

O xatırlatmışdı ki, dəfələrlə sahilləri zəbt edənlərin cəzalandırılacağı deyilsə də, bu, söz olmaqdan o yana keçməyib: "Hətta dənizin içinə doğru uzanan villalar var ki, ümumiyyətlə hər hansı icazə sənədi yoxdur. Belə hallar isə vətəndaşın istirahət hüququnun əlindən alınmasıdır. Görünən də budur ki, oliqarxlar bu yerləri asanlıqla qaytarmaq fikrində deyillər, bunun üçün isə dövlət başçısı işə qarışmalıdır".

İdarə direktorunun sözlərinə görə, problemin həllində bu işə məsul olan şəxslər acizdir və onlar dəniz sahilindəki villalara yaxın getməyə belə cürət etmirlər: "Görünür, bizim oliqarxlara anlatmaq olmur ki, dəniz sahili bütün vətəndaşlara aiddir, bura "oliqarx şıltaqlıqları" məkanı deyil. Bunu indi etmək lazımdır, əks halda sahildə boş bir qaya belə qalmayacaq".

Əvvəllər də yazdığımız kimi, oliqarxlar qanunları saya salmamaqda, aidiyyatı qurumlar isə dənizi özününküləşdirənlərə qarşı hüquqi addımlar atmaqda çarəsizdirlər. Görünür, çıxış yolu yenə problemə ölkənin ali rəhbərliyinin müdaxiləsidir. Yoxsa bu gedişlə xalqı Xəzərin üzünə həsrət qoyanların özbaşınalığı davam edəcək, bir azdan dənizi ya ancaq yuxuda görəcəyik, ya da ona heç olmasa tamaşa etmək üçün quş kimi qanadlanıb göyün üzünə qalxmaq, oradan aşağı baxmaq lazım gələcək.

Artıq 2021-ci ildir. Düzdür, şanlı qələbəmizlə bitən Vətən müharibəsi və ondan sonrakı ictimai-siyasi situasiya, eləcə də bütün dünyada, o cümlədən Azərbaycanda yaşanan koronavirus pandemiyası, bir çox aktual mövzuları arxa plana keçirib. Lakin bu həmin problemlərin tamamilə unuduldlduğu mənasına gəlməməlidir. Bəlkə də Xəzəri hasarlayanlar elə bilirlər ki, artıq onlar "qalib" gəliblər - camaatı dənizin üzünə həsrət qoyanlarla bağlı konkret addımlar atılması gündəmdən çıxıb. Lakin yanılırlar. Bu problem qanunvericiliyin tələblərinə uyğun şəkildə həllini tapmadığı zamana qədər mövzu diqqətimizdə qalmağa davam edəcək. Elə aidiyyatı qurumlar da Xəzərin "oliqarx işğalı"ndan azad edilməsi üçün artıq sözdən işə keçməlidir.

Beləliklə də, hər nə qədər indi gündəmin başlıca mövzusu Vətən müharibəsindən sonrakı yeni situasiya və koronavirus bəlası olsa da, dənizi hasarlayan məmurlar özlərini "qalib" kimi hiss etməməlidir.

***Sənan Mirzə***

# Strateji Müttəfiqliyin üçüncü mərtəbəsi...

***2021-ci ilin 15 iyun günü iki tarixi hadisənin kəsişmə nöqtəsi idi. 1921-ci ildə imzalanmış Qars müqaviləsinin 100 illiyi və 1993-cü ildə baş tutmuş Qurtuluş Günü. Bu iki həqiqətən böyük hadisənin il və gün koordinatlarının kəsişməsində yeni tarix yazıldı: Şuşa Bəyannaməsi.***

Bir maraqlı detal da var: 15 iyun - Ermənistanın Bayraq Günüdür. Məhz Ermənistanın bayraq günündə Şuşada Azərbaycan və Türkiyə bayraqlarının birgə dalğalanması hadisənin rəmzi anlamını qat-qat artırır. Bu, bir daha təsdiqləyir ki, Qarabağla bağlı bütün addımlar eyni zamanda bir neçə müstəvidə yüz ölçülüb, bir biçiləndən sonra atılır. Məsələn, Ərdoğanın Şuşaya səfəri keçən il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilən Zəfər paradı zamanı razılaşdırılmışdı. Amma onun məhz 2021-ci ilin 15 iyununda baş tutması səfərə tamam fərqli ideoloji dolğunluq qazandırdı.



Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə müttəfiqliyinin həm nəticəsidir, həm də səbəbi. Zatən dünyada Azərbaycanla Türkiyədən daha yaxın müttəfiqlər tapmaq mümkün deyil. Şuşada imzalanan sənəd rəsmən belə adlanır: "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi". Buna qədər 2010-cu ildə Bakıda "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Haqqında Müqavilə", ardınca İstanbulda "Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılmasına dair Birgə Bəyannamə" imzalanmışdı. Həmin sənədlərin nəticəsində iki qardaş ölkənin arasında unikal bir strateji tərəfdaşlıq formatı qurulub: Bizdən başqa dünyanın heç bir müttəfiq ölkələri Təhlükəsizlik Şuralarının birgə iclasını keçirmirlər.

Şuşada imzalanan Bəyannamə həmin iki sənədin məntiqi davamı olmaqla, bu unikal strateji tərəfdaşlığın bölgədə yaranan yeni reallığa adaptasiyası idi. Eyni zamanda, burada dünyaya və bölgədə marağı olan güclərə bir səsləniş, bir mesaj vardı.

Maraqlıdır ki, cənab Ərdoğan Şuşaya Brüsseldən - NATO sammitindən gəlmiş, həmin sammitdə isə bölgədə, o cümlədən, Qarabağda marağı olan güc mərkəzlərinin rəhbərilə də görüşmüşdü. Söhbət Minsk qrupunun iki həmsədrinin - Rusiya ilə Fransanın prezidentlərindən gedir. ABŞ prezidenti Co Baydenlə görüş əvvəlcədən böyük maraq doğururdu; təkcə ona görə yox ki, Minsk qrupunun həmsədri olan dövlətin prezidenti iki ay əvvəl "erməni soyqırımı" ifadəsini işlətmişdi. Həm də ona görə ki, Türkiyə-ABŞ-Rusiya üçbucağında doğrudan da, xeyli suallar yığılıb.

Ərdoğan Baydenin Rusiyadan "S-400"lər almamaqla bağlı istəyinə ististi "yox" deyib, Şuşaya gəlmişdi. Burada regionda yaradılması nəzərdə tutulan "altılı platforma" təklifini növbəti dəfə səsləndirdi: "Bu altılı platformada bildiyiniz kimi, Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran var. Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir bölgə olsun. Bu addımı atmaq üçün biz qardaşımla birlikdə hər cür fədakarlığa hazırıq. Cənab Putin eyni qaydada bu cür fədakarlığa hazırdır. Bu istiqamətdə atılacaq addımlarla bölgə bir sülh bölgəsinə çevriləcək".

Maraqlıdır ki, Ərdoğanın ardınca Putin də Cenevrədə Rusiya-Amerika Sammiti formatında Baydenlə görüşür və düşünməyə tam əsasımız var ki, həmin görüşdə Güney Qafqaz, konkret olaraq Qarabağ məsələsi və "altılıq formatı" da müzakirə ediləcək. Bayden Cenevrəyə "Böyük Yeddilik", NATO və ABŞ-Avropa Birliyi sammitlərindən sonra gedir, yəni, Putinə bu istiqamətlərdə yığılmış problemlərlə bağlı deməyə çox sözü olacaq.

"Altılı platforma"nın geosiyasi mahiyyəti o deməkdir ki, Güney Qafqazı əhatələyən və burada tarixi maraqları olan üç böyük dövlətin iştirakı ilə regional təhlükəsizlik və əməkdaşlıq sistemi formalaşır, regiondan uzaqda yerləşən qüvvələr isə kobud desək, bu proseslərdə həlledici təsirə malik olmurlar. Bu format regiondan uzaqda yerləşən güc mərkəzlərindən və Ermənistandan başqa əslində hamını qane edir. Buna görə Ermənistanın xarici işlər nazirliyi Ərdoğanın Şuşaya səfərini "təxribat" adlandırmışdı, erməni mediası isə yaxayırtma rejimində işləyirdi.

Görünür, son vaxtlar İrəvanın Paris və Vaşinqton ilə siyasi vals oynamaq cəhdləri həm də Ərdoğanın təklif etdiyi "altılıq" formatının baş tutmaması üçündür. Amma Ərdoğanın təklifini belə asanlıqla geri çevirmək mümkün olsaydı, o, Ərdoğan olmazdı axı!

Maraqlıdır ki, cənab Ərdoğan əsas mövzularından biri anti-Rusiya ritorikası olan NATO sammitindən gəlib, Şuşada Rusiya-Türkiyə əməkdaşlığını nəzərdə tutan "altılıq formatı" təklifini səsləndirir. Bu, onu göstərir ki, hazırda Türkiyə və Azərbaycan diplomatiyaları kifayət qədər müstəqil manevrlər edə bilirlər. Amma sırf ikitərəfli prizmadan baxanda da Şuşa bəyannaməsi 100 il əvvəlki Qars müqaviləsinin bir növ məntiqi davamı olmaqla, regionun yeni təhlükəsizlik sisteminin vacib nüvəsinin formalaşmasını ortaya qoyur. 100 il əvvəl Qars Müqaviləsi ilk dəfə hüquqi və siyasi müstəvidə hamıya göstərmişdi ki, yeni yaranan dünya düzənində Türkiyə Azərbaycan dövlətçiliyinin qarantı kimi çıxış edir. Şuşa Bəyannaməsi isə o deməkdir ki, Güney Qafqazın regional təhlükəsizlik sisteminə qəti və birmənalı şəkildə yeni iştirakçı - Türkiyə daxil olur. Bundan sonra heç bir regional format Türkiyənin iştirakı olmadan nəzərdən keçirilə bilməz. Dövlət başçımızın dediyi kimi: "Biz bir daha göstəririk ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik, necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq".

Şuşada Türkiyə konsulluğunun açılmasına da eyni məntiqlə yanaşmaq lazımdır. Adına "konsulluq" da demək olar, amma siyasi mahiyyətcə bu, Qarabağın düz ürəyində Türkiyənin qeyri-hərbi bazasının yaradılacağı deməkdir. Hərçənd, eyni zamanda, müttəfiqliyin hərbi məzmunu da genişləndirilir. "Müdafiə sənayesi sahəsindəki əlaqələrimiz bundan sonra daha da fərqli şəkildə inkişaf edəcək. Bu fərqli inkişafla yanaşı, Azərbaycan bir bazar deyil, eyni zamanda, bu prosesdə bir istehsal mərkəzi olmaq imkanı da əldə edəcək" ,- deyə Ərdoğan bildirib.

Beləliklə, Azərbaycan azad etdiyi torpaqların təhlükəsizliyini diplomatik bir formada qardaş Türkiyənin zəmanətilə sığortalayır. Bu, Azərbaycanı gələcəkdə Qarabağ mövzusunda hər hansı manipulyativ təzyiqlərdən, o cümlədən də, bəzi güc mərkəzlərinin israrla aktual saxlamağa çalışdığı olmayan və olmayacaq status məsələsindən sığortalayan mühüm bir amildir.

***Vüsal Məmmədov***



## İcbari tibbi sığortada çalışan tibb işçilərin əmək haqqısı artırılır

***"İcbari tibbi sığorta sistemində çalışan səhiyyə işçilərinin əmək haqlarının ödənilməsi bağlı yeni layihə hazırlanıb. Yeni sistemdə xəstəxanların kateqoriyası müəyyənləşdikdən sonra səhiyyə işçilərinin əmək haqlarında artımlar müşahidə ediləcək".***

"Unikal" xəbər verir ki, bunu Kliniki Tibbi Mərkəzin direktoru Könül Ələkbərov "Tibb müəssisələrində struktur dəyişikliyi" mövzusunda sualları cavablandırarkən deyib.

K.Ələkbərov bildirib ki, tibb işçilərinin əmək haqlarının ödəniş qaydaları mütəmadi olaraq yenilənir:

"Kadrların daha yüksək əmək haqqı alması üçün yollar axtarılır, maliyə mənbələri üzərində işlənilir. Hazırda əmək haqlarınarının ödənilmə qaydalarının yeni layihəsi tam hazırdır. Burada həkimlərin, tibb bacılarının əmək haqlarının ödəniş qaydlarında yeniliklər var. Bu yeniliklər əvvəlki ödəniş qaydalarından bir az da yüksək rəqəmlərdir və yaxın vaxtlarda tətbiq olunacaq".

## Direktor olmaq arzusunda olanların nəzərinə - müsahibələr başlayır

***İyunun 21-dən etibarən direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsinə start verilir.***

Təhsil Nazirliyindən verilən məlumata görə, müsahibələrdə müvafiq keçid balı toplamış 1552 namizəd iştirak hüququ qazanıb.

İlkin müsahibələrdə balı 36-dan çox olan və şagird sayı 1000 nəfərdən çox olan ümumi təhsil müəssisələrində işləmək istəyən 135 namizəd iştirak edəcək.

Mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsi onlayn formatda "Microsoft Teams" platforması vasitəsilə S.C.Pişəvəri adına respublika humanitar fənlər gimnaziyasında təşkil ediləcək.

Qeyd edək ki, müsahibə keçiriləcək hər günün sonunda Təhsil Nazirliyinin saytında həmin gün müsahibədə iştirak etmiş namizədlərin nəticələri elan ediləcək. Namizədlər hansı kateqoriya üzrə vakansiyaya uyğun olub-olmadıqları barədə məlumatla tanış olmaq imkanı əldə edəcəklər.

Tezliklə namizədlərin şəxsi səhifələrinə müvafiq məlumat göndəriləcək. Namizədlər şəxsi səhifədə qeyd olunan vaxtdan 15 dəqiqə əvvəl tələb olunan sənədlərlə (təhsil haqqında sənəd və ona əlavənin əsli, əmək kitabçasının surəti) müsahibənin keçiriləcəyi ünvana gəlməlidirlər. Müsahibəyə gəlməyən namizədlər müsabiqədə iştirakdan imtina etmiş hesab olunacaq.

Onlayn müsahibələrin keçirilməsi ilə bağlı müvafiq təlimat hazırlanıb, müsahibədə iştirak etmək hüququ qazanmış namizədlərin şəxsi səhifələrinə göndərilib.

Təhsil Nazirliyi direktor vəzifəsinə işə qəbul üzrə müsabiqədə iştirak edən bütün namizədlərə uğurlar arzulayır!



# Xidmət sahələri bu qaydalarla işləyəcək

***Xidmət sahələrində koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstərişlər təsdiqlənib.***

Unikal.org xəbər verir ki, xidmət sahəsi müəssisələrində COVID-19-la mübarizə çərçivəsində görülməli tədbirlər aşağıdakılardır:

Çalışan işçi heyətin azı 80%-nin "peyvənd sertifikatı"na və ya "immunitet sertifikatı"na malik olması tövsiyə olunur;

Müəssisələrdə hazırkı Metodiki Göstərişlərə əməl edilməsinə nəzarət üçün cavabdeh əməkdaşın təyin edilməsi;

Müəssisələrdə sanitar məişət otaqlarının (sanitar qovşaq, soyunub geyinmə otağı və s.) sanitar gigiyenik qaydalara uyğun, işlək və təmiz vəziyyətdə saxlanılması;

Müəssisənin təmizlik vasitələri və dezinfeksiyaedici maddələrlə daimi olaraq təmin edilməsi;

Bütün ərazilərin əl dezinfektantları üçün nəzərdə tutulmuş dispenserlərlə təmin edilməsi;

Birdəfəlik istifadə üçün salfetlərlə təmin edilməsi;

Əməkdaşların yetərli sayda tibbi maska və əlcəklərlə (zəruri sahələrdə) təmin olunması;

Xidmət sahəsi müəssisələrində çalışan işçilərin gün ərzində bir çox insanla yaxın təmasda olduğunu nəzərə alaraq, birdəfəlik istifadə edilən maska, həmçinin dezinfeksiya məhlulundan düzgün istifadə etmələrinin təmin edilməsi;

İstifadə edilmiş tibbi maskaların atılması üçün ayrıca qapalı torbaların qoyulması və bu tullantıların müvafiq qaydada məhv edilməsi;

Müəssisədə növbə ilə çalışan əməkdaşların eyni heyətdə işləmələri və rotasiya edilməmələrinin təmin olunması;

Ehtimal edilən yoluxma riskinin azaldılması məqsədi ilə təchizatçılar və müştərilər ilə rəhbərlik tərəfindən təyin olunmuş eyni əməkdaşların ünsiyyətdə olması;

Mətbəxdə, heyət otaqlarında, sanitar qovşaqlarda və xidmət zallarında mütəmadi dezinfeksiya işlərinin aparılmasının təmin edilməsi;

Qida qəbulu zallarında oturacaqların ara məsafəsinin 1m-dən az olmamasının təmin edilməsi;

Qida qəbulu zallarında yemək masaları arasındakı məsafənin 2 m-dən az olmamasının təmin edilməsi;

Zalların və otaqların mütəmadi havalandırılması;

İşçi heyətin mütəmadi olaraq maarifləndirilməsi, həmçinin infeksiyanın yayılmasının qarşısının alınması ilə bağlı ən son məlumatlara sahib olması;

Tullantıların vaxtında kənarlaşdırılması, həmçinin tullantı qablarının təmiz saxlanılması;

Müştəriləri məlumatlandırmaq məqsədilə infoqrafın müəssisənin giriş-çıxış qapılarında, soyuducuların qapılarında, rəflərdə, piştaxtalarda və rahat görünən digər yerlərdə asılması, həmçinin ödəniş həyata keçirilən zaman hər bir istehlakçıya təqdim olunması.

# Bu sahədə çalışanlar 3 min manatdan çox maaş alır

***Azərbaycanda ən çox əməkhaqqı verilən sahə məlum olub.***

Unikal.org xəbər verir ki, 2021-ci ilin yanvar-aprel aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2020-ci ilin müvafiq dövrünə nisbətən 1,9 faiz azalaraq 722,3 manat təşkil edib.

Əməkhaqqı neft-qaz sektorunda 3209,2 manat, qeyri neft-qaz sektorunda 670,6 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 629,3 manat, özəl müəssisələrdə isə 836,2 manat olub.

# Azərbaycan-Türkiyə münasibətləri Şuşa Bəyannaməsi ilə zirvə mərhələsinə qədəm qoydu - İsmət Məmmədov

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində Şuşada rəsmi qarşılanması, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin imzalanması bir daha tarixi köklərə, möhkəm təmələ əsaslanan Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının keçdiyi inkişaf yoluna nəzər salmağı zərurətə çevirir.***

Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair sənəd müstəsna siyasi və tarixi əhəmiyyətə malikdir. Şuşa Bəyannaməsində ötən illər ərzində müxtəlif sahələrdə uğurla inkişaf edən Azərbaycan-Türkiyə münasibətlərinin perspektivləri öz əksini tapıb. Türkiyə Prezidenti 10 dekabr 2020-ci il Zəfər Paradında iştirak etmək üçün ölkəmizə səfəri zamanı imzalanan sənədlər fonunda "Atılacaq daha çox imzalar var" bəyan etmişdir. Şuşa Bəyannaməsi məhz bunun bariz nümunəsi oldu. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətin qarşılıqlı şəkildə əlaqələndirilməsinə xidmət edən Şuşa Bəyannaməsi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində yol xəritəsi, gələcək işbirliyin təminatıdır.

Bu fikirləri 3 saylı şəhər klinik Xəstəxanasının YAP təşkilatının sədri İsmət Məmmədov bildirib.

İ.Məmmədov qeyd edib ki, ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri Şuşa Bəyannaməsi ilə zirvə mərhələsinə qədəm qoydu: "44 günlük İkinci Qarabağ müharibəsi həqiqət anı kimi iki dost, qardaş ölkənin birliyinin dünyaya təqdimatında əhəmiyyətli rol oynadı. İlk gündən Azərbaycanın tək olmadığını bəyan edən Türkiyə Prezidenti sonadək mənəvi və siyasi dəstəyini göstərdi. Azərbaycan dövləti bu dəstəyi daim yüksək qiymətləndirir. Birliyimiz tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz və maraqlarımız, xalqlarımızın qardaşlığı əsasında daha da möhkəmlənərək, bu fikrin böyük inamla qeyd edilməsinə əsas verir ki, Azərbaycan və Türkiyə yalnız dost deyil, qardaş olkədir. Məhz bu qardaşlıq fonunda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində birgə səylərin artırılmasının zəruriliyi imzalanan Şuşa Bəyyannaməsində öz əksini tapır."

Təşkilat sədri vurğulayıb ki, Şuşada yaşanan tarixi gün bütün türk dünyasında maraq doğurur, verilən mesajlar dünyaya səs salacaq: "Azərbaycan-Türkiyə birliyi hədəflərə yüksək səviyyədə nail olmaq gücündədir. Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları da birliyin təqdimatıdır. Rəsmi Ankara daim ən yüksək tribunalardan Ermənistanın işğalçılıq siyasətindən bəhs edərək dünyaya ədalətin bərpası, ikili siyasətə son qoyulması ilə bağlı çağırışlar etdi. 44 günlük Vətən müharibəsində qardaş ölkənin mənəvi və siyasi dəstəyi ilə 30 ilin işğalına son qoyuldu. Artıq yeni dövrə qədəm qoyulub. Türkiyə Prezidentini Füzulidə qarşılayan dövlətimizin başçısı İlham Əliyev Şuşaya gedərkən mənfur düşmənin ərazilərimizdə nə kimi vəhşiliklər törətdiyini göstərərək bu gün bu ərazilərin bərpası istiqamətində konkret strategiyanın həyata keçirildiyini bildirdi. Türkiyə şirkətlərinin bu prosesdə fəal iştirakı əsl dost, qardaş dəstəyidir."



"Türkiyə-Azərbaycan birliyi əbədidir" söyləyən İsmət Məmmədov dövlətimizin başçısı İlham Əliyevin Şuşada türkiyəli həmkarına "Doğma Vətəninizə xoş gəlmisiniz!" müraciətinin bir daha bu birliyin daimiliyinin, ən əsası ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamının reallığa əsaslandığının dünyaya təqdimatı oldu: "Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatının tələblərinə uyğun olaraq sülhün təmin edilməsi mexanizmləri çərçivəsində Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti də qardaş ölkənin bölgədə rolunun, birliyimizin təsdiqidir. Şuşa Bəyannaməsində iki ölkə arasında müdafiə sənayesi və hərbi sahədə əməkdaşlığın gücləndirilməsi, Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpa edilməsi, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı məsələlərinin xüsusi yer alması uğurlu gələcəkdən xəbər verir."

Müasir dövrün informasiya mübarizəsi dövrü olduğunu nəzərə alaraq Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsinin, ümumi problemlər qarşısında birlikdə addımların atılmasının və ardıcıl həmrəylik göstərilməsinin, milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsinin vacibliyindən də geniş bəhs edən təşkilat sədri Şuşa Bəyannaməsində əksini tapan müddəaların hər birinin təkcə iki qardaş ölkə deyil, ümumilikdə regionun gələcək inkişafı ilə bağlı olduğunu bildirib.

***Hüseyn İsgəndərov***

# Şərabçılıqda niyə uduzuruq?! - TƏHLİL

***Bu ilin yanvar-may aylarında Gürcüstan 55 ölkəyə 36,4 milyon şüşə şərab ixrac edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 15 faiz artıq deməkdir. İxracdan əldə olunan gəlir ötən illə müqayisədə 8 faiz artaraq, 82,4 milyon ABŞ dollarına çatıb. Azərbaycan qeyd olunan dövrdə Gürcüstandan 115 247 şüşə şərab alıb. Bu da ötən ilin göstəricisindən 41 faiz çox deməkdir. Sual yaranır ki, niyə? Öz şərabımıza nə gəlib?!***

Ölkəmizdə şərabçılığa məgər, azmı diqqət yetirilir? Və yaxud, bu sahədə ölkəmizin potensialı qonşu ölkədən aşağı səviyyədədirmi? Bəlkə, bu sahə bizdə hələ yenicə təşəkkül tapıb? Bu sualların hər üçünün cavabı "xeyr"dir!

Sonuncu sualdan başlayıram. Şərabçılıq tarixən Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynayıb, aparıcı sahələrdən sayılıb. Azərbaycan şərabı gözəl, təkrarolunmaz ətrinə, keyfiyyətinə görə həmişə ad çıxarıb. Buna görə də, şərabçılıq Azərbaycanda yeyinti sənayesinin ən mühüm sahələrindən biri kimi böyük əhəmiyyət daşıyıb.

Keçən əsrin 80-ci illərində respublikada 210 şərab zavodu və şərabçılıq məntəqələri fəaliyyət göstərib ki, bu sistemdə 151 mindən artıq fəhlə və mütəxəssis çalışıb, 56 adda şərab, 10 adda konyak, 4 adda şampan şərabı və digər məhsullar istehsal edilib.

Ümumiyyətlə, Sovet İttifaqı vaxtında şərab və konyak istehsalı sahəsində Azərbaycanın çəkisi çox yüksək olub və daim inkişaf edib. İstehsalın kəmiyyətcə artması ilə yanaşı, şərab məhsullarının keyfiyyəti də dayanmadan yaxşılaşıb və çeşid genişlənib. Həmin illərdə Azərbaycanda üzümçülük və şərabçılıq üzrə Dövlət Komitəsi fəaliyyət göstərib ki, onun tərkibində 256 xüsusi sovxoz, 97 sovxoz-zavod, 8 müstəqil ilkin şərab emalı zavodu və 10 ədəd təkrar şərab emalı zavodu olub.

Komitəyə daxil olan müəssisələrdə 300 mindən artıq insan işləyib. Həmin illərdə təkcə üzümçülükdən gələn gəlir respublikanın dövlət büdcəsinin 40 faizini təşkil edib. Bütövlükdə kənd təsərrüfatının isə Azərbaycanın dövlət büdcəsində payı 60 faizə bərabər olub. Hazırda bu rəqəmin 90 faizdən çoxu neft və qaz sektorunun payına düşür.

İkinci suala gəldikdə, qeyd etdiklərimə əsasən onun da cavabı bəlli oldu. Sadəcə, 1985-ci ildən sonra Sovet İttifaqı rəhbərliyinin alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri Azərbaycanda sözügedən sahəyə böyük zərbə vurdu və nəticədə 130 min hektardan çox məhsuldar sayılan üzüm bağları məhv olaraq, uzun illər ərzində böyük zəhmət hesabına yaradılan infrastruktur dağıldı.

Ermənistanın Azərbaycana qarşı 1988-ci ildən etibarən başlatdığı işğal nəticəsində Qarabağda 45 min hektardan çox üzüm bağı da nəzarətdən çıxdı. Beləcə, 180 min hektara yaxın üzüm bağı hələ sovet dövründə itirilmiş hesab olunur. Qalan 80 min hektardan çox üzüm bağı isə Azərbaycan müstəqillik əldə etdikdən sonra məhv oldu. 1990-cı illərdə Rusiya ilə əlaqələrin qırılması ucbatından şərab zavodları məhsulunu sata bilmədi ki, əhalidən üzüm tədarükü dayandı. Beləliklə də, təsərrüfatlarda üzümlüklər məhv edilərək yerində taxıl və başqa bitkilər əkilməyə başlandı.

Ancaq məsələ bundadır ki, ölkədə şərabçılığa diqqət 20 bundan öncə bərpa olunub. Bu, az vaxt deyil. 19 oktyabr 2001-ci il tarixli "Üzümçülük və şərabçılıq haqqında" adlı Qanun üzümçülük və şərabçılığın bərpası istiqamətində irəliyə doğru atılan ilk addım sayılır. Ölkədə ilk olaraq, şərabçılıq sənayesinin hüquqi bazasını möhkəmləndirmək məqsədilə dövlət proqramları işlənib hazırlandı ki, qiymət, kredit və vergi sistemləri təkmilləşdirilməklə, lisenziya, sertifikatlaşdırma qaydaları nəzərdən keçirildi.

Bundan əlavə, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" kimi sənədlər də mühüm rol oynadı. Dövlət başçımız tərəfindən bölgələrə səfərlər zamanı üzümçülüyün prioritet sahə olduğu diqtə olunmağa başlandı.

Ən əhəmiyyətlisi isə Prezidentin 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" oldu. Bu sənəd, respublikada üzümün və onun emal məhsullarının istehsalını artırmağı, ölkə əhalisinin təzə və keyfiyyətli üzümə tələbatını daha dolğun ödəməyi, şərabçılıq və üzüm emalı müəssisələrinin xammal təminatını yaxşılaşdırmağı hədəf götürdü. Və ölkədə üzüm bağları bərpa edilməklə genişləndirilməyə başlandı ki, keyfiyyətli şərab məhsulları istehsalı üçün əlverişli şərait yarandı.

Ölkədə şərabçılığın davamlı inkişafını təmin etmək, bu sahəyə dövlət dəstəyini gücləndirmək, potensial imkanlardan səmərəli istifadə etmək, həmçinin şərab istehsalına və ixracına marağı artırmaq məqsədilə 2018-ci ilin may ayında "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın təsdiq olunması isə ortaya konkret strategiya qoydu.

Bəs, bütün bunlara rəğmən, bu sahədə nəyə görə idxal ixracdan üstündür? Azərbaycanda istehsal olunan şərab məhsulları idxal olunanlardan keyfiyyətsizdirmi? Xeyr!.. Bəs, onda idxal niyə fasiləsiz artır? Səbəb nədir?

Bu ilin birinci rübündə ölkədən 3 milyon 413 min 700 ABŞ dolları məbləğində alkoqollu və alkoqolsuz içkilər ixrac edildiyi halda, idxal 13 milyon 304 min 550 ABŞ dolları təşkil edib. Aprelin sonuna olan rəqəmlər isə müvafiq olaraq 5 milyon 112 min 300 və 20 milyon 651 min 140 ABŞ dollarına bərabər olub.

Günahı pandemiyanın üstünə yıxmaq olardı, amma belə deyil. Pandemiyadan əvvəl də ölkəyə idxal artırdı. Çünki daxili istehlak belə tələb edirdi. 2019-cu ildə Azərbaycanda 531,72 min dekalitr şərabçılıq məhsulları istehsal edilib ki, bu da 2018-ci illə müqayisədə 64,5 faiz az deməkdir... Həmin ildə ölkəmiz 7 milyon 309 min ABŞ dolları dəyərində şərab və üzüm suslosu ixrac edib. Keçən il isə bunun yarısından da çox az səviyyədə ixrac həyata keçirilib. İstehsal azalanda, təbii ki, ixrac da aşağı düşəcək və daxili bazarın idxaldan asılılığı artacaq.

Yeri gəlmişkən, Azərbaycan şərabları Çin, Rusiya, Belarusiya, Niderland, Latviya, Qazaxıstan və Polşa kimi ölkələrə ixrac olunur. Ümumiyyətlə, ölkəmizdən şərab ixracı prosesinə xarici ölkələrdə açılan ticarət və şərab evləri böyük töhvə verib.

Bütün qeyd olunanlara əsasən demək istədiyim budur ki, bu qədər diqqətin və müvafiq dövlət siyasətinin fonunda idxal-ixracımız əslində göstərilən durumda olmalı deyil. Bu, onu göstərir ki, ölkənin qeyri-neft sektoru sahəsinin şərabçılıq sektorunda çox ciddi çatışmazlıqlar mövcuddur. Və bu, mütləq araşdırılmalı, ciddi təhlil olunmalıdır.

Əvvəlki təhlillər göstərirdi ki, istehsalın həcmi ölkədə fəaliyyət göstərən şərabçılıq müəssisələrinin faktiki potensialından xeyli dərəcədə aşağıdır. Bu vəziyyət ilk növbədə, şərabın əsas xammalını təşkil edən üzümün maya dəyərinin yüksək olması ilə izah edilirdi. Lakin tendensiyanın gedişatı bunun heç də belə olmadığını diqtə edir. Problemin kökü əslində başqa amillərdədir. Belə ki, ya istehsal rəqabətə davamlı deyil, ya onun uçotu dəqiq aparılmır, ya da daxili bazar müəyyən idxalçı işbazların nəzarəti altındadır.

Bu arada bir nüansa toxunum. Dövlət başçımız pambıq əkininə, tədarükünə diqqət ayıranda bəziləri bunu mənasız hesab edirdi. İndi pambıq ixracı qızıldan çox gəlir gətirir. Belə ki, 2021-ci ilin yanvar-aprel aylarında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (96,4 milyon ABŞ dolları) birinci, qızıl ikinci (64,6 milyon ABŞ dolları), pomidor (tomat) isə üçüncü (42,3 milyon ABŞ dolları) yerdə qərarlaşıb. Ölkəmizdə digər məhsullar və o cümlədən şərabçılıq üzrə də bu cür imkanlar mövcuddur. Sadəcə, stimul yoxdur.



"2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın da məqsədi şərab və şərabçılıq məhsullarına tələbatı orta perspektivdə yerli ehtiyac və ixracat imkanlarını nəzərə almaqla ödəmək, şərab istehsalı müəssisələrinin fəaliyyətini genişləndirmək, onları müasir texnologiyalar əsasında qurmaq, həmin müəssisələrin xammal təminatını yaxşılaşdırmaq, şərabçılıq məhsullarını ixracını artırmaq və kənd əhalisinin məşğulluq səviyyəsini yüksəltmək üçün ölkədə üzümçülüyün, şərabçılığın inkişafını stimullaşdırmaqdır.

Dövlət Proqramına əsasən Azərbaycandan şərab ixracı 2025-ci ilədək 5 dəfə artmalıdır. Ancaq sual olunur, bu gedişlə, başqa sözlə desəm, adi gürcü şərabının idxalı 50 faizə qədər artdığı şəraitdə bu, mümkündürmü?

Şərab və şərabçılıq məhsullarının iqtisadi, sosial əhəmiyyəti nəzərə alınaraq, ölkədə şərabçılığın inkişafı əsaslı şəkildə nəzarətə götürülməli və bu dəfə tamamilə yeni tərzdə özünü büruzə verməlidir. Bunun üçün isə sözügedən sahədə həyata keçirilən dəstək tədbirləri zamanı, şərab istehsalçılarının da maraqları əsas götürülməli, istehsal olunan məhsulların ilk növbədə daxili bazar olmaqla, dünya bazarlarında da rəqabətqabiliyyətliliyi və qiymətinin münasib olması məsələsi başlıca hədəf seçilməlidir.

***Pərviz Heydərov***



## Müstəqillik qazanandan 1,7 milyon insan Ermənistanı tərk edib

***30 illik müstəqillik dövründə Ermənistandan 1,6-1,7 milyon insan emiqrasiya edib.***

Bu barədə "Sputnik Armenia" agentliyinə bildirən İctimai Şuranın miqrasiya məsələləri üzrə komissiyasının rəhbəri Qaqik Yeqanyanın sözlərinə görə, bu göstərici ölkə əhalisinin 30%-ni təşkil edir.

Onlardan 1,1-1,2 milyon nəfəri Rusiyaya, 15 minə qədəri ABŞ-a, 120-150 min nəfəri Avropaya, qalanları isə MDB dövlətləri və Zelandiyadan tutmuş İsrailə qədər müxtəlif ölkələrə mühacirət edib.

Onun sözlərinə görə, ən kütləvi emiqrasiya 1992-1994-cü illərdə qeydə alınıb. Bu 3 il ərzində Ermənistanı 600 min nəfər (ölkə əhalisinin 16%-i) tərk edib.

2020-ci il 1 yanvara olan rəsmi statistikaya görə, hazırda Ermənistan əhalisinin sayı 2 961 900 nəfərdir.

## Moskvada koronavirusa görə məhdudlaşdırıcı tədbirlər tətbiq olunub

***Rusiyanın paytaxtı Moskva şəhərində koronavirusa yoluxmada kəskin artım qeydə alındığına görə bir sıra məhdudlaşdırıcı tədbirlər tətbiq olunub.***



APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, paytaxt meri Sergey Sobyanin iyunun 15-dən etibarən 18-dək (18-i daxil olmaqla) qeyri-iş günləri elan edib. Bu müddət ərzində Moskvada əlavə məhdudlaşdırılmaların tətbiq olunacağı bildirilib.

Ayın 13-dən 20-dək restoran və klublara axşam saat 23-dən səhər saat 6-dək yerində xidmət göstərmək qadağan olunub.

Ticarət mərkəzlərindəki fud-kortlar və uşaq əyləncə mərkəzləri bu müddətdə bağlı qalacaq. Analoji olaraq şəhər parklarındakı istirahət və əyləncə obyektləri fəaliyyətini dayandıracaq.

Müəssisələrə işçilərin ən azı 30%-nin məsafədən işə keçirmələrə tövsiyə olunub.

Qeyd edək ki, Moskvada bir neçə gün bundan qabaq COVID-19-a yoluxma halları artmağa başlayıb. Ötən sutka ərzində 6 701 nəfər koronavirusa yoluxub ki, bu göstərici 2020-ci ilin 26 dekabrında qeydə alınıb.

# Heç kimin inanmadığı nağıl, yaxud demokratiyanın "Qərb nümunəsi" - TƏHLİL

***İllərdir dünyaya, xüsusilə müsəlman ölkələrinə insan haqları, demokratiya dərsi keçən Qərb bu gün özü ikili standartlar meydanına, insan haqları pozucusuna çevrilib.***

Baş verən hadisələrə qısa nəzər salanda bir daha aydın olur ki, insan haqları, demokratiya Avropaya yalnız təzyiq vasitəsi kimi lazımdır. İnsan haqları, demokratiya "carçıları" hansısa dövlətə öz şərtlərini qəbul etdirməyə, istədiklərini almağa çalışan zaman bu təzyiq vasitəsini işə salırlar.

Avropaya gəlincə, insanların qanunla nəzərdə tutulmuş ən adi hüquqları belə kobud şəkildə pozulmaqdadır. Dinc nümayişçilərə qarşı misli görünməmiş polis zorakılığı, güc tətbiqi, onların öldürülməsi, gözlərinin çıxarılması, üzərilərinə it və atlarla gedilməsi "demokratiyadan geri qalan" hər hansı ölkədə deyil, elə Avropanın düz mərkəzində, Qərbdə baş verir.

Fransa, Belçika, Niderland, İspaniya, Almaniya, ABŞ və digər ölkələrdə keçirilən aksiyalarda dinc nümayişçilərlə məhz belə davranılıb. İnsanlar sadəcə sosial məsələlərə, qiymət bahalaşmasına, vergilərin artırılmasına etiraz ediblər. Nəticədə dəhşətli zorakılıq faktları ilə üzləşiblər. Yaxud ABŞ-da qaradərili vətəndaşlara qarşı münasibəti yada salaq. Qaradərili vətəndaşların polis tərəfindən öldürülməsi bu ölkədə adi hal alıb. ABŞ öz vətəndaşını məhz dərisinin rənginə görə ayrı-seçkiliyə məruz qoyur, polis isə heç bir məsuliyyət hiss etmədən qaradərili vətəndaşı "arxayınlıqla" öldürür. Ona görə arxayınlıqla ki, törətdiyi cinayətə görə saxlanılsa belə, sonra heç bir cəza almadan sərbəst buraxılır. Belə presedentlər Birləşmiş Ştatlarda çoxdan mövcuddur.

Bu arada Corc Floyd hadisəsini yada salmaq kifayət edir. Amerika polisi saxlanma zamanı Floydun boğazına ayağını dirəyərək, onu boğaraq öldürür. Baxmayaraq ki, Floyd dəfələrlə boğulduğunu, nəfəsinin çatmadığını deyir. Polis isə buna qətiyyən məhəl qoymur.

Ardınca ABŞ-da qətlə etiraz olaraq keçirilən aksiyalarda çox sayda insan polis zorakılığına məruz qaldı. Dinc etirazçılara qarşı gözyaşardıcı qazlardan, digər təzyiq vasitələrindən istifadə olundu. Hətta bir sıra iri şəhərlərdə komendant saatı tətbiq edildi.

Məlumat üçün bildirək ki, təkcə ötən il ABŞ-da 170 nəfərə yaxın qaradərili şəxs polis tərəfindən öldürülüb. 2020-ci ilin yanvarın 1-dən avqustun 30-dək 164 qaradərili kişi və qadın polisin qurbanı olub. Ölkənin yalnız 2 ştatında - Vermont və Rod-Aylenddə bu cür hadisə qeydə alınmayıb. Bu statistika il ərzində hər həftə bir qaradərilinin polis zorakılığının qurbanı olması deməkdir.

Corc Floyd kimi 24 yaşlı Adama Traoreni də polis saxlayarkən boğaraq öldürüb. Bu qətl hadisəsi ABŞ-da deyil, "demokratiyanın beşiyində" - Fransada baş verib. "Adama Traore üçün ədalət" şüarını səsləndirən etirazçılara qarşı polis gözyaşardıcı qazdan istifadə edərək xüsusi amansızlıq nümayiş etdirib. Araşdırma zamanı məlum olub ki, Adama Traore həkim müdaxiləsindən əvvəl polis avtomobilində ölüb. Bu hadisə ölkədə böyük etirazlara səbəb olub. Qəribə görünsə də, hadisədə iştirak edən polislərlə bağlı istintaqa başlanılmayıb.

Parisdə məşhur "sarı jiletlilər" aksiyasındakı polis zorakılıqları da hər kəsə məlumdur. Fransanı bürüyən məşhur aksiyalarda polis qanuni haqlarını tələb edən dinc nümayişçiləri at və itlərin ayaqları altında əzərək, ən ağlasığmaz təzyiq metodlarına əl atıb.

Fransada yanacağın qiymətinin artırılması və iqtisadi vəziyyətin pisləşməsinə cavab olaraq 17 noyabrda başlayan, ancaq sonra ölkə prezidenti Emmanuel Makron rəhbərliyinə qarşı qəzəbə və üsyana çevrilən "sarı jiletlilər"in nümayişləri ölkədə son illərin ən şiddətli etirazı sayılır. Aksiyalarda




indiyə qədər 10-dan adam həyatını itirib, təxminən 5 minə yaxın şəxs saxlanılıb, mindən çox şəxs isə yaralanıb.

Təəccüblü deyilmi? Belə qeyri-insani rəftar hansısa sıradan bir ölkədə deyil, məhz dünyaya insan haqları dərsi keçən Fransada qeydə alınıb.

Avropada nümayişçilərə qarşı polis zorakılığı pandemiya müddətində də səngimədi. Almaniya, Fransa, Niderland və digər ölkələrdə sanitar məhdudiyyətlərə qarşı dinc etiraz nümayişləri keçirən insanlar təzyiqlərə məruz qaldı, onların bir çoxu əsassız şəkildə saxlanıldı. Avropa və ABŞ-da insan haqlarının pozulması və zorakılıq halları ilə bağlı xeyli nümunələr mövcuddur. Hətta bu barədə günlərlə danışmaq olar.

### Qərbin gerçək üzü

Bu gün birmənalı şəkildə deyə bilərik ki, Yaxın Şərqi cəhənnəmə çevirən "demokratların" vətənidir. Cəhənnəmə çevirdikləri ölkələrin vətəndaşlarına öz qapılarını bağlayan, onların aclıq-səfalət içində yaşamasına, həyatlarını itirmələrinə səbəb olan da məhz Qərbdir. Maraqlıdır ki, Avropa ölkələri öz sərhədlərini qaçqınların üzünə bağlamaqla yanaşı, digər dövlətlərdən onları öz ərazilərində yerləşdirməyi tələb edirlər. Üstəlik, terrorla mübarizə, həmin ölkələrə daha "gözəl", "demokratik" həyat bəxş etmək bəhanəsiylə münaqişə zonalarını alovlandırmaqda davam edirlər.

Burada təəssüf doğuran məqam Avropada, Qərbdə tüğyan edən zorakılığa, pozuntulara beynəlxalq qurumların, insan hüquqları müdafiəsi ilə məşğul olan təşkilatların susmasıdır. Azərbaycana qarşı ikili standart siyasətini adi hala çevirən Avropa Şurası, Avropa Parlamenti, Avropa Komissiyası və digər qurumlar indiyədək Avropanın özündə baş verən bu haqsızlıqlara, zorakılıqlara, insan haqları, demokratiya pozuntularına bir dəfə də olsun səsini çıxarmayıb. Niyə axı? Sualın cavabı çox sadədir. Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, dinc aksiyaçıların itlərin caynağına verilməsinin, atların ayaqları altında boğulmasının, dəyənəklə ölümcül döyülməsinin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Bəli, məhz belə hesab edirlər.

Bu gün Qərbin ikili standartlarına məruz qalan ölkələrdən biri də Azərbaycandır. 30 ilə yaxın işğal faktına, qaçqın və məcburi köçkünlərin yaşamaq hüquqları daxil olmaqla, bütün hüquqlarının pozulmasına göz yuman həmin ölkələr 44 günlük müharibə zamanı da ermənilərin hərbi cinayətlərinə susdular. Qərb mediası işğalçı Ermənistana dəstək verdi. Fransa prezidenti Emmanuel Makron, Qərbin digər bəzi liderləri separatizmi açıq şəkildə dəstəklədilər. Faşizmi qəhrəmanlaşdıran, nasizmi, irqi-ayrı, seçkiliyi, terroru dövlət siyasətinə çevirən Ermənistana Avropanın dəstəyi başa düşüləndir. Çünki eyni dəyərlər bu gün "demokratiyanın beşiyi" sayılan "kontingentdə" adi hala çevrilib. Buna görə də artıq onların demokratiya, insan haqları ilə bağlı nağıllarına uşaqlar belə inanmır.

***Pərvanə Sultanova***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Erməni vəhşiliyini dünyaya çatdıran bir şəkil...

## Vüqar Rəhimzadə: "Bəyannamənin işğaldan azad olunmuş bir məkanda, eyni zamanda dağıdılmış divarlar önündə imzalanması dünyanın diqqətinə erməni vandallığını çatdırmaq baxımından əhəmiyyətli idi"

***Azərbaycan prezidenti İlham Əliyevlə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa şəhərində "Şuşa Bəyannaməsi"nin imzalanması mərasimi üçün düzənlənmiş tədbirdə arxa fon dünyaya erməni vəhşiliyinin real mənzərəsini göstərmiş oldu. Şuşada keçirilən bu tədbirdə Bəyannamənin işğal dövründə dağıldılmış divarlar fonunda imzalanması həm də dünyanın diqqətini erməni vandallığına yönəltmiş oldu.***

Dünyada bu foto ilə Şuşanın işğalçı dövlət tərəfindən dağıdılaraq məhv edildiyi, Şuşanın timsalında 30 il işğalda saxlanılan digər torpaqların vəziyyəti barədə təsəvvür yaranmış oldu. Halbuki bu şəkil Şuşa şəhərində dağıdılmış bir abidənin fotosu idi. Şuşada məhv edilmiş, talanmış, dağıdılmış, yerlə-yeksan edilmiş abidələrimizin sayı isə çoxdur. Bunun üçün Mədəniyyət naziri Anar Kərimovun açıqladığı, Şuşada bərpa olunacaq mədəniyyət obyektlərinin sayına diqqət yetirmək kifayətdir. Anar Kərimov Şuşada 210 tarixi-mədəniyyət abidəsinin, 20 mədəniyyət evinin, 19 kitabxananın, 8 musiqi məktəbinin, 7 muzeyin, 1 qalereyanın, 1 teatrın bərpa olunacağını qeyd edib.O, "Biz Şuşaya mədəniyyəti qaytarırıq. Biz bərpa edəcəyik", - deyə bildirib. Qeyd edək ki, Şuşa şəhəri noyabrın 8-də işğaldan azad olunub. Şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları olub. O cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olub. Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikilib və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən bəzədilib. 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilib. 1992-ci il mayın 8-də erməni birləşmələri tərəfindən işğal olunan şəhər dağıdılıb. 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 25 orta məktəb, 40 tibb müəssisəsi, 24 tarixi abidə viran edilib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyir ki, 28 illik işğal dövründə Ermənistan dövlətinin torpaqlarımızda törətdiyi vandalizm aktının dünyaya çatdırılması vacib addımdır. V. Rəhimzadə müharibədən sonra məhz Azərbaycanın bu istiqamətdə işlər görməsinin zəruri olduğunu qeyd edir. Onun sözlərinə görə, elə Şuşada Türkiyə ilə Azərbaycan arasında Bəyannamənin imzalanması üçün seçilən fon da dünyaya erməni vəhşiliyini nümayiş etdirmək məqsədi daşıyır: "Bu fon həm də Ermənistanın vandallığı ilə bağlı dünyaya verilən bir mesaj idi. Hesab edirəm ki, dünyanın diqqətində olan siyasi əhəmiyyətli bir Bəyannamənin işğaldan azad olunmuş bir məkanda, eyni zamanda dağıdılmış divarlar önündə imzalanması dünyanın diqqətinə erməni vandallığını çatdırmaq baxımından əhəmiyyətli idi. Onsuz da dünya 28 illik işğal dövründə Azərbaycanın ərazilərində ermənilərin hansı vandalizm aktı törətdiyindən xəbərdardır. Amma torpaqlarımızı işğaldan azad etməklə biz bu vəhşiliyi dünyaya olduğu kimi çatdırmaq imkanı əldə etmişik. Biz bundan Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırmaq üçün istifadə etməliyik. Şuşa mədəniyyətin beşiyidir. Erməni vandalları mədəniyyət paytaxtı olan Şuşanı da viranə qoyaraq dünya mədəniyyət irsinə böyük zərbə vurublar. Mən Şuşada "Xarıbülbül" festivalında iştirak edərkən bunun canlı şahidi oldum. Ona görə də hesab edirəm ki, beynəlxalq əhəmiyyətli tədbirlər elə məhz imkan düşdükcə işğaldan azad edilmiş torpaqlarımızda, dağıdılmış şəhərlərimizdə, elə o xarabalıqların, viranə qoyulmuş şəhərlərin fonunda təşkil olunmalıdır. Qoy dünya bu vəhşiliyi bir daha öz gözləri ilə görüb qiymət versin. Dağlıq Qarabağ həqiqətlərini dərk etsin" deyə V. Rəhimzadə bildirir.



Qeyd edək ki, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal edilmiş Şuşa şəhəri 2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən işğaldan azad edildi. Bunun nəticəsində oradakı tarixi-memarlıq abidələrimiz də erməni əsarətindən qurtuldu. Şuşanın tarixi-mədəniyyət memarlığının incilərindən olan bu iki cümə məscidi də erməni vandallarından xilas oldu. Prezident İlham Əliyevin göstərişi ilə Heydər Əliyev Fondu tərəfindən digər tarixi-mədəni, dini abidələrimiz kimi, həm Yuxarı Gövhər ağa məscidi, həm də Aşağı Gövhər ağa məscidi bərpa olundu.

Məlumat üçün bildirək ki, 1993-cü ildə Ermənistan Dağlıq Qarabağ ətrafında yerləşən 7 rayonu da işğal edəndən sonra həmin ərazilərdə yerləşən tarixi-mədəniyyət nümunələri ya məhv edilib, ya da ermənilər özününküləşdirməyə çalışıblar. İşğalçı Ermənistan tərəfindən 403 tarixi dini abidə, 67 məscid, 144 məbəd, 192 ziyarətgah dağıdılıb. Yüzlərlə qəbiristanlıq yerlə-yeksan edilib, hətta qəbir daşları belə oğurlanıb.

30 ilə yaxın müddət ərzində işğal altında olan şəhərlərimiz, kəndlərimiz tamamilə dağıdılıb. Ağdam şəhəri haqlı olaraq "Qafqazın Xirosiması" adlandırılır. Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın inkişaf etmiş şəhərlərindən biri idi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi xarabalıqlar qalıb. Erməni vandalları, hətta Şəhidlər xiyabanını, qəbiristanlıqları da dağıdıblar. 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabağı tərəfindən tikilən "Qarabağ məscid memarlığı" məktəbinə aid olan Ağdam Cümə məscidi ermənilər tərəfindən dağıntılara məruz qalıb, minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı, İbrahimxəlil xanın türbəsi və digər abidələr də erməni vandalları tərəfindən dağıdılıb. Ermənilər tərəfindən ən çox dağıdılan məscidlər, türbələr və digər inanc yerləri olub. Erməni vandalları məscidlərin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz nifrətlərini nümayiş etdiriblər. Burada Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır. Zəngin mədəni irsə bu cür münasibət dünya irsinə qarşı yönəlmiş təhdiddir. Erməni vandalizmi yalnız müsəlman tarixi dini-memarlıq abidələrinə deyil, həmçinin xristian tarixi-dini abidələrinə münasibətdə də özünü göstərib. Kəlbəcər rayonunda yerləşən Xudavəng və Gəncəsər monastırları da daxil olmaqla Qafqaz Albaniyasına aid bir çox məbədlər vandalizmə məruz qalıb. Xudavəng monastırına aid Arzu xatun kilsəsinin şərq divarındakı, Xudavəng monastırının incisi hesab olunan freska xüsusi üsullarla kəsilərək götürülüb. Gəncəsər monastırında aparılmış qanunsuz təmir işləri nəticəsində onun əzəli görkəminə zərər dəyib.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Kişi kişini necə şantaj etdi: "İntim fotolarını yayacam..." Şok təfərrüat



***Bakının Nəsimi rayonunda Ağdam rayon sakini, 1988-ci il təvəllüdlü Ceyhun sosial şəbəkədə intim fotolarını yaymaqla paytaxt sakini Vəlini (ad şərti verilib - red.) şantaj edib.***

Ceyhun İnstaqram sosial şəbəkəsində "İbrahimova_A 11" adı ilə qeydiyyatdan keçib. Sonra "N. A." adı ilə qeydiyyatdan keçmiş Vəliyə özünü "Aytac" adlı qız kimi təqdim edib, onunla tanış olaraq intim münasibətlər barədə söhbət edib. Ceyhun Vəlidən ona çılpaq fotoşəkillərini göndərməsini xahiş edib. Vəli özünə aid bir neçə çılpaq fotoları şəbəkə vasitəsi ilə Ceyhuna göndərib.

Bundan sonra Ceyhun Vəlini həmin fotoları sosial şəbəkələrdə yayacağı və tanışlarına göstərəcəyini bildirib, haqqında rüsvayedici məlumatları yayma hədəsi ilə hədə-qorxu gəlib, 1000 manat verməsini tələb edib.

Vəlinin bu barədə müraciəti əsasında Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində Ceyhun zərərçəkmişdən pul alarkən Nəsimi rayonunda yerləşən "50 qəpik" çay evinin qarşısında saxlanılıb.

İstintaq orqanı tərəfindən Ceyhunun barəsində Cinayət Məcəlləsinin 182.1-ci (hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə) maddəsi ilə ittiham elan edilib.

### "Çılpaq şəkillərini göndərdi"

Təqsirləndirilən şəxs qismində ifadə verən Ceyhun ona elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. Bildirib ki, zərərçəkmiş şəxsi təxminən 2020-ci ilin fevralın sonlarından İnstaqram sosial şəbəkəsində tanıyıb: "Həmin sosial şəbəkədə "İbrahimova_A 11" adlı qız profili açdım. Məqsədim sadəcə tanışlarımla qız adı ilə yazışıb, zarafat etmək olub. Təxminən 2020-ci ilin fevral sonlarında İnstaqramda "N. A." adlı profil istifadəçisini gördüm. Ona qız adı ilə müraciət edərək tanış olmaq istədiyimi dedim. Vəli də mənim qız olduğumu bilərək tanış olmaq istədi. Aramızda yaxın münasibət yarandı, intim münasibətlər barədə söhbətlər düşdü.

Ondan xahiş etdim ki, özünə aid çılpaq şəkillərini mənə göndərsin. Vəli də çılpaq şəkillərini çəkərək mənə göndərdi".

### "Aytacın pozğun və "işverən" olduğunu bildirdim"

Ceyhunun ifadəsinə görə, Vəlini qız adı ilə tanış olmaq üçün Nərimanov rayonunda yerləşən Yaşıl Bazar adlanan əraziyə görüşə çağırıb və həmin yerdə görüşüblər: "Vəli gəldikdən sonra ona yaxınlaşdım, adımın Ceyhun olduğunu dedim. Ona tanış gəldiyini bildirərək yaxınlıqda yerləşən "Çayko" adlanan çay evində oturduq, söhbət etdik.

Həmin vaxt əslində Aytac kimi onunla yazışdığımı demədim. Sadəcə Vəlini aldadaraq guya Aytacın mənim tanışım olduğunu, onun yaxşı qız olmadığını, pozğun və "işverən" olduğunu bildirdim.

Ona dedim ki, Aytac onun fotolarını mənə göndərib. Ona həmin fotoları həm özümdə, həm də Aytacda siləcəyimi bildirdim.Həmçinin Vəliyə dedim ki, Aytac pozğun qız olduğu üçün onunla münasibətini qurtarsın".

### "Xahiş etdi ki, çılpaq şəkilləri silim"

Ceyhun qeyd edib ki, əslində Vəli ilə ilk dəfə görüşüb və onun necə birisi olduğunu bilmək üçün onu yoxlayıb: "Həmin görüşdə özümə məxsus nömrəni Vəliyə verərək lazım olanda vatsap vasitəsi ilə danışa biləcəyimi dedim. Vəli də öz nömrəsini mənə verdi. Biz vatsap vasitəsi ilə Ceyhun kimi danışmağa davam etdik.

Həmçinin Vəli Aytacın var olduğunu bildiyi üçün guya ona, əslində isə elə mənim özümə İnstaqram vasitəsi ilə yazaraq ayrılmaq istədiyini bildirdi. Mən də guya Aytac olaraq Vəlidən ayrıldım. Əslində isə Aytac elə mənim özüm olmuşam. Bundan sonra Vəli ilə adi qaydada danışdım. Lakin özümdə olan ona aid şəkilləri silmədim. Söhbətlərin birində Vəli məndən xahiş etdi ki, həmin şəkil söhbətini heç kim bilməsin, həmçinin şəkli silib-silmədiyini soruşdu. Mən isə yadımdan çıxdığını bildirdim, silmədiyimi dedim.

Bu zaman Vəli ilə yenidən həmin çayxanada təxminən mart ayının 6-7-də görüşdük. Vəli xahiş etdi ki, ona məxsus çılpaq şəkilləri silim. Mən də problem olmayacağını və siləcəyimi dedim. Lakin yenə də silmədim".

### "Təklif etdi ki, şəkilləri silmək üçün pul da verə bilər"

Ceyhun bildirib ki, Vəlinin adını telefonunda "Vəli Yasamal" kimi qeyd edib: "Bu vaxt Vəli özü mənə təklif etdi ki, əgər istəsəm, mənə şəkilləri silmək üçün pul da verə bilər. Mən isə şəkilləri silmək üçün pul lazım olmadığını dedim. Bildirdim ki, Qobu qəsəbəsində qaydasız döyüşlə məşğul olmaq üçün idman zalı icarəyə götürmək istəmişəm. Ora məşq etmək üçün bir neçə avadanlıq almaq istədiyimi, lakin pulum çatmadığını söylədim.

Vəli köməklik etmək istədiyini, pul verə biləcəyini dedi. O, nə qədər pul lazım olduğunu soruşdu. Dedim ki, təxminən 1.000 manat lazımdır. Vəli bildirdi ki, problem deyil, həmin pulu verə bilər.

Dedim ki, həmin pulu verdikdən sonra əgər istəsə zal fəaliyyətə başladıqda gəlib, pulsuz məşq edər, ya ya həmin pulu ona bir müddət sonra qaytararam. Vəli də bildirdi ki, 1000 manatı əvəzsiz verir, yəni qaytarmaq lazım deyil".

### "Müdirə ümid olduğunu dedi"

Təqsirləndirilən şəxsin ifadəsinə görə, bundan sonra Vəli ilə yazışaraq pulun nə yerdə qaldığını soruşub: "Vəli cavab verdi ki, haradasa işləyir, guya verəcəyi 1000 manat pulu işlədiyi yerdən alıb, verəcəkr. Ona görə də pulun nə yerdə qaldığını maraqlandım. Vəli isə hələ pulu düzəltmədiyini bildirdi, gözləməyi xahiş etdi.

Bir gün sonra Vəlidən pulun nə yerdə qaldığını bir daha soruşdum. Bildirdi ki, guya kadrlar şöbəsinin direktoru işdə yoxdur, gələn kimi saat 12-dək işdən icazə alıb, gələcək. Təxminən saat 13 radələrində onun icazə alıb-almadığını soruşdum. Vəli hələ də direktorun gəlmədiyini, icazə almadığını dedi.

Təxminən saat 14 radələrində Vəli mənə vatsap vasitəsi ilə yazaraq 1000 manat puldan 200 manatını düzəltdiyini, qalanını sonra verəcəyini dedi. Mən isə Vəlidən əvvəlcə 1000 manat düzəldərək gətirəcəyini, sonradan isə 200 manat verəcəyini deməsinin səbəbini soruşdum.

Vəli müdirə ümid olaraq söz verdiyini dedi. Ona dedim ki, məni aldatmasın. Vəli isə onu başa düşməyimi və vaxt verməyimi, qalan pulu 2-3 günə düzəldəcəyini bildirdi".

### "Məni idarəyə dəvət etdilər"

Ceyhunun sözlərinə görə, bundan sonra Vəliyə 28 May metrosunun yaxınlığında yerləşən "50 Qəpik" çay evinin yaxınlığına gəlməyini bildirib:

"Həmin gün saat 15.30-da Vəli ilə çay evinin yaxınlığında görüşdük. Ondan 200 manatı aldım. Daha sonra mənə iki nəfər mülki geyimli şəxslər yaxınlaşaraq Baş Mütəşəkkil Cinayətlarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları olduqlarını bildirdilər. Vəlinin hədə-qorxu ilə pul tələb etməyim barədə şikayət etdiyini, ona görə də əməliyyat tədbiri keçirildiyini bildirdi.

Məni idarəyə dəvət etdilər. Etiraz etmədim və polislərlə, eləcə də Vəli ilə birlikdə həmin idarəyə getdik".

### "Dedi ki, bu şəkilləri tanışlarıma göndərəcək"

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Vəlinin sözlərinə görə, təxminən 2019-cu ilin avqustunda İnstaqram sosial şəbəkəsində özünü "N. A." adlı profil açıb: "Təxminən 2020-ci ilin fevralın sonlarında "İbrahimova_A 11" adlı bir qız profilindən mənə məxsus profilə tanış olmaq üçün SMS göndərildi. Profil sahibinin qız olduğunu düşündüm, yazışmağa başladım.

Mənə yazan şəxs adının Aytac olduğunu bildirdi. Profildə qız şəkli də vardı. Profildə yazan şəxs mənə ilk əvvəl xoş sözlər dedi, sonra intim söhbət etməyə başladı, özümə məxsus çılpaq şəkillərimi göndərməyimi istədi. Mən də onun qız olduğuna inandım, özümə aid çılpaq şəkillərimi ona göndərdim. Şəkilləri yaşadığım mənzildə hamamda çəkmişəm.

Bir müddət sonra profildəki şəxs mənimlə görüşmək istədiyini bildirdi. Tanımadığım adamla görüşməkdən ehtiyatlandığım üçün imtina etdim. Dedi ki, görüşməsəm, bu şəkilləri İnstaqram hesabındakı tanışlarına göndərəcək. Əvvəlcə əhəmiyyət vermədim və mənə heç nə edə bilməyəcəyini dedim".

### "Bildirdi ki, həmin qız onun əvvəllər sevgilisi olub"

Vəli daha sonra ifadəsində Ceyhunun onu şantaj etməsindən necə qorxduğunu açıqlayıb: "Həmin profildən mənə "sənin bütün şəkillərini sosial şəbəkələrdə yayım, sən də bax, oğraş" məzmunlu SMS göndərildi. Bu səbəbdən ehtiyat etdim, onunla görüşmək qərarına gəldim.

O, mənə Nəriman rayonu ərazisində yerləşən Yaşıl Bazarın qarşısına gəlməyimi istədi. Mən də həmin ünvana tək getdim. Ora çatdım, dayandıqda mənə hər hansı qızın yaxınlaşmadığını gördüm.

Əksinə, bir nəfər sonradan adının Ceyhun olduğunu bildiyim şəxs məni arxadan çağırdı, guya tanış gəldiyini bildirdi. Onun mənə yaxınlaşdığını gördüm. Ceyhuna kobud cavab versəm də, Ceyhun: "bilirəm, sən Aytacı gözləyirsən" dedi. Aytac haqqında söyüş söydüm. Dedi, guya özü Aytacı tanıyır, Aytac "işverən"dir. Bildirdi ki, nahaq şəkillərini ona göndərmisən, guya Aytac həmin şəkilləri yayacaq. Lakin Aytacla danışacağını, onunla belə iş görməməsini istəyəcəyini də dedi. Daha sonra məni birlikdə çay içməyə dəvət etdi.

Nərimanov rayonu ərazisində yerləşən "Çayko" adlı çay evində, kabinetdə oturduq, çay içdik və Ceyhun mənə İnstaqramda Aytac bildiyim qıza göndərdiyim şəkilləri öz telefonunda göstərdi. Bildirdi ki, guya həmin qız onun əvvəllər sevgilisi olub, guya bu formada bir neçə nəfərin başına oyun açıb, pullarını alıb.

Ceyhun mənə bildirdi ki, həmin qıza şəkilləri silməsini deyəcək. Bundan sonra ayrıldıq".

### "Xahiş etdim ki, özündə olan şəkillərimi silsin"

Vəlinin ifadəsinə görə, bir neçə gün sonra ona İbrahimova All profilindən guya Aytac yazıb və bildirib ki, onunla dostu tanış çıxıb: "Ona görə də əlaqəmizi kəsmək istəyir. Bildirdi ki, guya mənim bütün şəkillərimi silib. Özüm də həmin profillə əlaqə saxlamadın. Artıq başa düşdüm ki, Aytac adlı şəxs yoxdur. Bu, çox güman ki, elə Ceyhunun özüdür.

Telefon nömrəm Ceyhunda olduğu üçün mənimlə yazışdı. Xahiş etdim ki, özündə olan şəkillərimi silsin. Ceyhun bildirdi ki, yalnız Aytacda olan şəkilləri silə bilər, özündə olan şəkilləri saxlayacaq. Başa düşdüm ki, qız adı ilə danışan elə Ceyhunun özüdür. Bunu özü də etiraf etdi".

### "Şikayət etmək qərarına gəldim"

Vəli bildirib ki, sonrakı müddətdə Ceyhun ondan 1000 manat pul tələb etməyə başlayıb: "Yenə "Çayka" çay evində görüşdük. Ceyhun bildirdi ki, 1000 manat pul versəm, bütün şəkillərimi siləcək, verməsəm, şəkillərimi yaşadığım bütün Yasamal rayonundakı tanışlarına və sosial şəbəkədə yayacaq.

Artıq vəziyyətin çıxılmaz olduğunu gördüm. Əsl baş verənlər və Ceyhunun mənə qarşı olan hədə-qorxuları barədə polisə şikayət etmək qərarına gəldim. Şikayətdən əvvəl dedim ki, ilkin olaraq 200 manat pul verə bilərəm. Sonra Baş Mütəşəkkil Cinayətkarlıq Mübarizə İdarəsinə ərizə ilə müraciət etdim.

Ceyhun Nəsimi rayonu ərazisində yerləşən "50 Qəpik" adlı çayxananın qarşısında görüş təyin etdim. Bundan sonra mənə həmin idarədə 2 ədəd 100 manatlıq olmaqla nömrələnmiş və kserosurətləri çıxarılmış 200 manat pul verildi. Pulları Ceyhunla görüşərək ona verməli idim və polislər onu saxlamalı idilər. Həmin tarixdə iki nəfər polislə birgə qeyd olunan ünvana getdik. Qeyd olunan vaxtda görüşdük, deyilənləri etdim. Ceyhuna 200 manat pulu verdim. O, pulu alaraq əynindəki şalvarının sağ yan cibinə qoyduqda polis əməkdaşları tərəfindən saxlanılaraq baş idarəyə gətirildi".

Bu cinayət işinə Nəsimi rayon Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə baxılıb.

Ceyhun 2 il 1 1 ay 28 gün müddətinə azadlıqdan məhrum edilib.

# "Şuşa Bəyannaməsi iqtisadiyyata yeni imkanlar açır" - Vüsal Qasımlı

***Şuşa Bəyannaməsi ilə Azərbaycan dünyanın 17-ci ən böyük iqtisadiyyatına sahib olan Türkiyə ilə əməkdaşlıqdan daha çox faydalanacaq. Türkiyə 2020-ci ildə 1,8 faiz iqtisadi artım göstərərək pandemiya şəraitində iqtisadiyyatı kiçilməyən nadir ölkələrdən olmaqla yanaşı, bu il də 5 faizdən yüksək artım proqnozu ilə dünyada ən sürətlə inkişaf edən ölkələrin sırasındadır. Türkiyə iqtisadiyyatının artım sürəti getdikcə onunla daha çox inteqrasiya olunan Azərbaycanda da iqtisadi artıma stimul verə bilər.***

Bu sözləri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin iqtisadi tərəflərini şərh edərkən deyib.



Onun sözlərinə görə, Şuşa Bəyannaməsi Azərbaycanda biznesin uzunmüddətli gözləntiləri üçün zəmin yaradır: "Xüsusən də, Bəyannamənin Şuşada imzalanması Qarabağda investisiya mühitinə əlavə bir qarant kimi qiymətləndirilməlidir. Şuşa bəyannaməsi ilə BP, "Signify" kimi qlobal şirkətlərin Qarabağda sərmayə yatırmaq niyyətləri bir-birini tamamlayır, Qarabağda investor inamı indeksini yüksəldir. İqtisadi əlaqələrin genişləndirilməsi ölkələr arasında investisiya qoyuluşlarını da artıracaq. Hazırda Türkiyə Azərbaycanda daha çox qeyri-neft sektoruna, Azərbaycan isə Türkiyədə, əsasən, energetika və kimya sahələrinə kapital yatırır. Türkiyədən Azərbaycana investisiya qoyuluşları 12 milyard dollar, Azərbaycandan Türkiyəyə sərmayə yatırımları isə 19,5 milyard dollar təşkil edir".

V.Qasımlı bildirib ki, dünyanın müdafiə sənayesi bazarında ilk onluğa iddialı olan Türkiyə ilə Azərbaycanın müdafiə sənayesi sahəsində əməkdaşlıq böyük perspektivlər vəd edir: "Türkiyənin köməyi ilə Azərbaycan müdafiə sənayesi sahəsində ixrac, idxalın əvəzlənməsi və qlobal dəyər zəncirlərinə qoşulmaq nöqteyi-nəzərindən imkanlar qazanır. Eyni zamanda, Türkiyənin enerji təhlükəsizliyində mühüm rol alan SOCAR-ın "TPAO" ilə əməkdaşlığı iki qardaş ölkənin neft-kimya sahəsində - dounstrimdə irəliləməsi üçün imkan yaradır".

Şuşa Bəyannaməsindən sonra ticarət həcminin daha da artması üçün əlavə fəaliyyətlərin gözlənildiyini deyən İİTKM-in icraçı direktoru qeyd edib: "2019-cu ildə Türkiyə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 4,5 milyard dollar olmaqla 14 faiz paya malik olub. Yüksələn trayektoriya üzrə inkişaf edən qarşılıqlı idxal-ixrac əməliyyatlarının həcminə pandemiyanın yaratdığı gərginliklər ciddi təsir göstərməyib. Belə ki, 2020-ci ildə iki ölkə arasında ticarət həcmi 4,16 milyard dollar təşkil edib. Azərbaycan və Türkiyə 15 milyard dollar olaraq hədəflənən ticarət həcminə nail olmaq üçün davamlı kompleks tədbirlər həyata keçirir. Bu tədbirlərdən biri kimi 2021-ci il martın 1-dən qüvvəyə minən Preferensial Ticarət Sazişi qeyd edilə bilər. Bu saziş 15 mal qrupu üzrə tariflərin azaldılması, qeyri-tarif maneələrinin aradan qaldırılması ilə iki ölkə arasındakı idxal-ixrac əməliyyatlarını artıraraq ölkələrin qoyduqları ticarət dövriyyəsi hədəfinə çatmasını sürətləndirəcək".

V.Qasımlının sözlərinə görə, bəyannamədə "Zəngəzur dəhlizi"nə yer ayrılması hər iki ölkə üçün əhəmiyyətlidir: "Təkcə bu il ixrac həcmini 15-20 faiz artırmağı planlaşdıran Türkiyə ticarət dövriyyəsi 6 milyard dollara çatan Mərkəzi Asiya və 21 milyard dollar olan Çinlə iqtisadi əlaqələrdə "Zəngəzur dəhlizi"ndən istifadə edəcək. Hətta "Zəngəzur dəhlizi" Türkiyə-Rusiya iqtisadi əlaqələrinin də güclənməsinə imkanlar açə bilər. İxracyönümlü Türkiyə iqtisadiyyatı üçün "Zəngəzur dəhlizi" ixrac marşrutlarının şaxələndirilməsi deməkdir".

# FAO "ağıllı kənd" lə bağlı əməkdaşlığa hazırdır

***Kənd təsərrüfatı naziri İnam Kərimov BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 42-ci sessiyasında çıxış edib.***

Kənd Təsərrüfatı Nazirliyindən "Unikal"a verilən məlumata görə,hər iki ildən bir keçirilən beynəlxalq tədbir bu il ilk dəfə olaraq onlayn formatda baş tutub. FAO-nun 42-ci sessiyasının açılış mərasiminə dünyanın müxtəlif ölkələrindən 119 nazir və nazir müavini olmaqla rekord sayda - 1 300 nəfərdən çox iştirakçı qatılıb.




"Qida və kənd təsərrüfatının mövcud vəziyyəti: kənd təsərrüfatı sisteminin qida sisteminə çevrilməsi: Strategiyadan fəaliyyətə" adı altında keçirilən iclas İtaliya Prezidenti Sergio Mattarella və Roma Papası Fransiskin tədbir iştirakçılarına müraciəti ilə başlayıb. Müraciətlərdə COVID-19 pandemiyasının aqrar istehsal sistemlərinə təsirinə toxunulub, ərzaq təhlükəsizliyinin və yeni çağırışlara uyğun dayanıqlı inkişafın təmin edilməsinin vacibliyi vurğulanıb.

Açılış nitqində FAO-nun Baş Direktoru Qu Donqyu COVID-19 pandemiyasının bütün dünya üzrə ərzaq təhlükəsizliyi və qidalanma səviyyəsinə mənfi təsirlərini azaltmaq, qarşıda duran hədəflərə çatmaq üçün kompleks fəaliyyətin zəruri olduğunu qeyd edib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə sıx əməkdaşlıq şəraitində COVID-19 pandemiyasına qarşı qlobal mübarizə tədbirlərinə fəal şəkildə töhfə verir. Azərbaycan hökuməti pandemiyanın aqrar sahəyə və fermerlərin rifahına təsirini minimuma endirmək üçün operativ və lazımi tədbirlər görüb. 2020-ci ildə Azərbaycanda aqrar sahədə 2 % artım qeydə alınıb.

Diqqətə çatdırılıb ki, torpaqlarımız işğaldan azad edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev Qarabağ bölgəsini yaşıl enerji zonası elan edib. Bu ərazilərdə kənd təsərrüfatı ən yaxşı texnologiya və təcrübələri özündə ehtiva edən ağıllı kənd konsepsiyasına əsasən inkişaf etdiriləcək. Bu hədəf FAO-nun müxtəlif ölkələrdə kəndlərin rəqəmsallaşma yolu ilə gələcəkdə "ağıllı kənd"ə çevrilməsi planına uyğun gəldiyindən Azərbaycan bu istiqamətdə sıx əməkdaşlığa hazırdır. Bununla yanaşı, digər strateji təşəbbüslərə qoşulan Azərbaycan beynəlxalq platformalarda da effektli əməkdaşlığı dəstəkləyir.

Konfransda iqlim dəyişikliyi, ətraf mühiti qorunmaqla məhsuldarlığın artırılması, keyfiyyətli qida istehsalı, qlobal əməkdaşlıq çərçivəsində fundamental transformasiya yolu ilə dayanıqlı kənd təsərrüfatı sisteminin qurulması əsas müzakirə mövzularından olub. Tədbir iştirakçıları kənd təsərrüfatında elmi yeniliklər, innovasiya və rəqəmsal həllərin tətbiqinin genişləndirilməsinin vacibliyini diqqətə çatdırıblar.




## Qarabağın elektrik enerjisi ilə təchizatı ilə bağlı AÇIQLAMA

***Qarabağda inşa edilən Şuşa yarımstansiyası da istifadəyə verilib.***

Bu barədə jurnalistlərə açıqlamasında "Azərenerji" ASC-nin mətbuat xidmətinin rəhbəri Teymur Abdullayev məlumat verib. O bildirib ki, Kəlbəcərdə də yeni 110 kV-luq yarımstansiyanın tikinti işləri gedir: "Eyni zamanda Murov dağını aşmaqla Kəlbəcərə 70 kilometr məsafədə 110 kV-luq ikidövrəli xətt də çəkilir".

T.Abdullayev Qarabağda inşa edilən digər yarımstansiyalar barədə də məlumat verib: "İşğaldan azad edilən ərazilərdə Qubadlı, Zəngilan, Cəbrayıl rayonlarına 110kV-luq yeni xətlər çəkilir. Ağdamda 110 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaları tikilir. Bundan başqa "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarında işlər yekunlaşıb".

## Ötən ay xüsusi şərtlərlə əmək pensiyası alanların sayı açıqlandı

***2021-ci ilin may ayında xüsusi şərtlərlə əmək pensiyası alanların sayı 127,2 min nəfərdən çox olub.***

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Dövlət Sosial Müdafiə Fondu (DSMF) məlumat yayıb.

Bunun 97 min nəfərdən çoxu yaşa görə, 16,7 min nəfərdən çoxu əlilliyə görə, 13,5 min nəfərdən çoxu isə ailə başçısını itirməyə görə əmək pensiya alanlardır.

## Azərbaycanın müsbət ticarət saldosu

***Bu ilin yanvar-may aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 2020-ci ilin eyni aylarl ilə müqayisədə 6,1% artaraq 11 820 174 min ABŞ dolları təşkil edib.***

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin ilk beş ayında Azərbaycan xarici ölkələrə 7 427 289,99 min dollar dəyərində məhsullar ixrac edib, idxalın həcmi isə 4 392 884,02 min dollar olub. Nəticədə, 3 034 406 min dollarlıq müsbət ticarət saldosu yaranıb.

Ötən ilin eyni ayları ilə müqayisədə 2021-ci ilin yanvar-may aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin müsbət saldosu 8,1% artıb, ixrac və idxal isə müvafiq olaraq 6,5% və 5,5% artıb.




# Xəzər dənizini çirkləndirən amil açıqlandı

***Bakı şəhərinin 12 məntəqəsindən məişət tullantıları təmizlənmədən Xəzər dənizinə axıdılır və bu da sonda Xəzər dənizinin çirklənməsinə səbəb olur.***

"Unikal" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin Sanitar-Epidemiologiya Mərkəzinin şöbə müdiri Ziyəddin Kazımov deyib.

O bildirib ki, dəniz suyunda bağırsaq çöplərinin həddə uyğun olub-olmaması vacibdir.

"Dəniz suyunda bağırsaq çöplərinin normaya uyğun olmaması insanlar arasında kəskin mədə-bağırsaq xəstəliklərinin yayılmasına səbəb ola bilər. Çimərlik mövsümü başlamamışdan öncə ərazidən dəniz suyu nümunələr götürülür, labortoriyada müayinələr aparılır. Bir litr suda bağırsaq çöplərinin icazə verilən norması 5 mindir, lakin bəzi ərazilərdə bu göstərici həddindən artıq normadan çox olur. Məsələn Qaradağ rayonunda Sahil zonası, Səbail rayonunda Şıx çimərliyi, Suraxanı rayonunda Hövsan çimərliyi, Xəzər rayonunda Türkan çirməliklərində götürülən bakteroloji nümunələr standartlara uyğun gəlməyib. Bu çimərliklərdə istifadə qadağan olunub".

Z.Kazımov qeyd edib ki, Abşeron yaramadasında, Xəzər rayonunda, Binəqədi rayonu ərazisində olan çimərliklərdən istifadə məqsədəuyğundur.

# İmtahanın nəticələri yaxın 1 həftədə elan olunacaq

***Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən 16 iyun 2021-ci il tarixində ümumi (9 illik) orta təhsil səviyyəsi növbəti buraxılış imtahanları keçirilib.***

DİM-dən a bildirilib ki, Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (əlcək, üz sipəri, tibbi maska və s.) təmin olunub.

İmtahanlar 12 (Bakı şəhərinin Xətai, Xəzər, Yasamal rayonlarında, həmçinin Beyləqan, Gədəbəy, Göyçay, Göygöl, Masallı, Oğuz, Salyan, Tovuz, Xaçmaz-da) şəhər və rayonda keçirilib.

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 105 imtahan binası, 1853 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 105 ümumi imtahan rəhbəri, 297 imtahan rəhbəri, 2313 nəzarətçi-müəllim, 210 buraxılışı rejimi əməkdaşı (mühafizə), 105 bina nümayəndəsi ayrılıb.

Bu gündən etibarən DİM-də imtahan protokollarının və cavab kartlarının emalına başlanılacaq.

İmtahan nəticələrinin yaxın 1 həftə ərzində elan olunması nəzərdə tutulur.

# Şuşa türməsində işgəncə görən döyüşçü: "Əsirlərin üstünə itləri buraxırdılar"

***Keçmiş əsir başına gələnləri 27 ildən sonra ilk dəfə danışır. Zahid Həsənov Birinci Qarabağ Müharibəsinin iştirakçısı olub. Müharibənin qızğın çağında torpaqlarımızın azadlığı uğrunda döyüşə yollanan Z.Həsənov bir müddət sonra erməni hərbçiləri tərəfindən əsir götürülüb. O, 71 gün düşmənin əsarətində ən ağlasığmaz işgəncələrə məruz qalıb.***

Həmin hadisələrdən artıq 30 ilə yaxın vaxt ötür. Əsirlikdə Zahid Həsənova dəhşətli işgəncələr verən erməni terrorçuları Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviç Bakıda ədalət mühakiməsi qarşısında cavab verirlər.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş azərbaycanlılara qarşı amansız işgəncələr verməkdə ittiham olunan erməni hərbçilər - Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviç saxlanılaraq, istintaqa cəlb olunublar. Onlar işğal altında olmuş ərazilərdə azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətməsi və digər faktlara görə başlanmış cinayət işi üzrə təqsirləndirilirlər.

Adları çəkilən erməni terrorçularının amansız işgəncələrinə məruz qalan Zahid Həsənov Azvision.az-a müsahibəsində ilk dəfə əsirlikdə yaşadığı günlərdən danışıb.

***- Zahid bəy, müharibəyə nə zaman qatıldınız?***

-1993-cü ildə könüllü olaraq Füzuli rayonunun hərbi komissarlığına ərizə ilə müraciət edib müharibəyə yollandım. Biz Beyləqan- Füzuli istiqamətində döyüşürdük. Bir çox yerləri azad etmişdik. 1994-cü ilin mart ayında Füzulinin Aşağı Seyidəhmədli kəndində döyüşdə yaralandım. Elə vəziyyət yarandı ki, yoldaşlarım məni döyüş meydanından çıxara bilmədilər. Beləliklə, martın 8-də ermənilər tərəfindən yaralı vəziyyətdə əsir götürüldüm.

***- Hansı nahiyyədən yaralanmışdınız?***

- Baş nahiyyəmdən, çiynimdən, belimdən və ayaqlarımdan yaralanmışdım. Bədənimdə 30 qəlpə var. Elə buna görə də hərəkət edə bilmədim, orada qaldım. Məni ərazidən çıxara bilmədilər. Ermənilər məni Xankəndində uşaq xəstəxanası deyilən bir yer vardı, ora apardılar. Xəstəxanada qaldığım müddətdə müalicə etmədilər. Ay yarım Xankəndində saxlanıldım. 45 gün ərzində Qırmızı Xaç Komitəsinin nümayəndələri cəmi 3 dəfə mənə baş çəkdilər.

Aprel ayının sonunda Şuşa həbsxanasına apardılar. Xankəndində olanda Moskvanın "Vesti" proqramının əməkdaşları bizimlə çəkiliş etməyə gəlmişdilər. Erməni jurnalist də onlarla birgə idi. Məcbur edirdilər ki, hökumətimiz əleyhinə çıxış edək və bildirək ki, müharibəyə getmək istəmirdik, bizi zorla gətiriblər.

Mən müharibəyə gedəndə 34 yaşım vardı. Məni zorla apara bilməzdilər. Könüllü getmişdim. Bir sözlə, onların dediyinə əməl etmədim. Çəkiliş bitəndən sonra erməni jurnalist əlindəki qəzeti alnıma vurdu. Qəzetin arasında dəmir parçası var idi. Alnımdakı çapıq həmin hadisə zamanı yaranıb. Alyoşa Xosrovyan da orada idi. O, çəkiliş zamanı danışmadığıma görə mənə işgəncə verdi. Dodağımdakı çapıq onun vurduğu izdir.

***- Alyoşa o zaman hansı vəzifəni icra edirdi?***

- Alyoşa hərbçi idi. Şuşa türməsində nəzarətçi vəzifəsini icra edirdi. O, hər 10 gündən bir Xankəndinə gəlib xəstəxanada sağalan əsirləri və girovları götürüb, Şuşa türməsinə aparırdı. Birinci dəfə mən onu orada görmüşəm. Alyoşa mən də daxil olmaqla, bir neçə nəfəri Şuşa həbsxanasına apardı.

***- Şuşa həbsxanasında vəziyyət necə idi?***

- Şuşa həbsxanası ağır yerdir. Orada bütün işgəncələrə məruz qalmışıq. Mkrtiçyan Lüdvik kimi tanınan, bizim isə Lyoxa adlandırdığımız ermənini məhz həmin türmədə gördüm. O da azərbaycanlı əsir və girovlara işgəncələr verirdi. Həbsxanada işgəncələrə tab gətirməyib ölənlər də oldu. Bir nəfər azərbaycanlını yüksək cərəyanlı xətti bağlamağa məcbur etdilər. Həmin şəxsi cərəyan vurdu və dünyasını dəyişdi.

Xankəndində olduğum vaxt təxminən 40 nəfərə yaxın əsir və girov vardı. Onların içərisində qadın və uşaqlara da rast gəlmək olurdu. Cəmi bir nəfər nəzarətçi var idi. İstənilən erməni gəlib bizə işgəncə verə bilərdi. Onlara sərbəstlik verilmişdi. Azərbaycanlı əsirləri orta məktəb şagirdlərinə göstərib deyirdilər ki, bunlar türklərdir, sizin düşmənlərinizdir.

***- Şuşa həbsxanasında sizə tibbi yardım göstərilmədi?***

- Heç bir yardım göstərilmirdi. Gündə bir dəfə qidalanırdıq. Soyuq çay və bir dilim çörək verilirdi. Orada şərait çox ağır idi. Natəmizlik baş alıb gedirdi. Üstəlik çox vahiməli bir yer idi. Qapılar yüksək səslə açılıb bağlanırdı. Torpaq görmürdük, ancaq səmaya baxa bilirdik.

Türmə düz qayanın üstündədir. 30-40 metr o tərəfə Azərbaycan qəbiristanlığı yerləşirdi. Həmin qəbiristanlığı da darmadağın etmişdilər.

***- Aranızda qadın və uşaqların da olduğunu dediniz. Onlarla necə davranırdılar?***

- Eyni qaydada... Onlara da işgəncə verirdilər.

***- Daha çox hansı işgəncə növlərindən istifadə edirdilər?***

- Armatur, dəmir parçası, meşə odunu və dubinka ilə döyürdülər. Uşaqlar mənə əllərini, ayaqlarını göstərmişdilər. Hamısını it dişləmişdi. Əsirlərin üstünə itləri buraxırdılar. Lyoxa boksla məşqul olurdu. O, əsirləri boks əlcəyi ilə döyürdü. Karen, Qarik, Samvel, Muxtar, Armiyan da var idi. Bizə işgəncələr verirdilər.

***- Əsirlikdə sizinlə hansı dildə danışırdılar?***

- Azərbaycan dilində. Bizim dili təmiz bilirdilər. İndi boyunlarından atırlar. Tərcüməçi məhkəmədə tərcüməsini bitirməmiş Alyoşa cavabını verir. Diqqətlə baxanda bilinir ki, hər şeyi başa düşür. Biz müstəntiqlə Azərbaycan dilində danışırdıq. Alyoşa qıraqdan reaksiya verib "Eto ne bılo" dedi. Biz gülüb ona Azərbaycan dilini bilirsən dedik. Özü də bir anlıq çaşdı.

***- Kameralarda tək saxlanırdınız?***

- Kimisə gizlədirdilərsə, tək saxlayırdılar. Elə kameralar vardı idi ki, orada 12 nəfər olurdu. Məni bir dəfə karsa salmışdılar. Qapını açıb üstümə bir vedrə soyuq su tökdülər.

***- Şuşa türməsində təxminən neçə azərbaycanlı olardı?***

- Mən olan vaxt təxminən 30 nəfərə yaxın azərbaycanlı əsir düşmüşdü. Onlardan bəziləri ilə bu günlərdə keçirilən məhkəmədə görüşdük. Qayıda bilməyənlər, öldürülənlər də oldu.



***- 71 gündən sonra əsirlikdən azad edildiniz..***

- Erməni mayor Albert Vasqanyan mənə dəyişdiriləcəyimi dedi. Adətən bizim tərəf bir erməni təhvil verəndə 10-15 azərbaycanlını geri alırdı. Məndə isə təkbətək oldu. Vartan adlı 18 yaşlı erməni ilə dəyişdirildim. Dayısı polkovnik, qardaşı kapitan idi. Ermənistan vətəndaşı idi. Onu dəyişdiriləndə gördüm.

Ailəli idim. Iki qızım var idi. Anam heç əsir düşdüyümü bilmirdi. Füzulidə Aşağı Seyidəhmədli kəndində qarşıladılar məni. Sözün açığı 27 il ərzində heç yerdə müsahibə vermirdim. Biz müsahibə verəndə ermənilər bizim hərbi əsirləri incidirdilər. İndi isə torpaqlarımız azaddır, düşmən əsirliyində olanlarımız yoxdur.

***- Əsir olduğunuz müddətdə sizdən nələri soruşurdular?***

- Bizim hərbi sirləri bilmək istəyirdilər. Nə qədər texnikamızın olması ilə maraqlanırdılar. Yaxud da öz tərəflərinə çəkmək istəyirdilər.

***- Ağlınıza gələrdimi ki, 27 ildən sonra sizə işgəncə verən ermənilərlə görüşəcəksiniz?***

- Açığı inanmırdım ki, belə bir şey olar. İnanıram ki, igidlərimiz digər erməni cinayətkarlarını da gətirib, burada mühakimə edəcəklər.

***Şahanə Rəhimli***

# Ermənilərin azərbaycanlı əsirlərə verdiyi tükürpədici işgəncələr - Məhkəmə



***Bizə Şuşa həbsxanasında otu təmizlətdirirdilər, sonra deyirdilər ki, siz ota əziyyət verdiniz, otun yerini dilnizlə yalayın.***

Bunu erməni terrorçuların Bakıdakı məhkəməsində ifadə verən zərərçəkmiş Həbib Kazımov deyib. O bildirib ki, 1992-ci ildə hərbi xidmətə çağırılıb və Qubadlı rayonunda Milli Qəhrəman Əlyar Əliyevin batalyonunda xidmətə başlayıb:

”1993-cü ildə Kəlbəcərdə kəllə-beyin travması alıb əsir düşmüşəm. Məni Şuşa həbsxanasına apardılar. Orada bildilər ki, Sumqayıtdanam, ”Sumqayıt hadisələrinə” görə mənə xüsusi işgəncə verirdilər. Məni o qədər döydülər ki, halım dəyişdi. Məni Xankəndi xəstəxanasına aparıb yenidən qaytardılar Şuşa həbsxanasına. Mkrtçyan və Xosrovyan məni dəmirlə, armaturla döyürdülər. 1994-cü ildə Sərdar adlı azərbaycanlı əsiri döyə-döyə öldürdülər. Bizə odun doğratdırırdılar. Məni Sumqayıt uşağı deyə çağırıb odunla döyürdülər. Məni orda öldürmək istəyirdilər”.

Prokurorun suallarını cavablandıran zərərçəkmiş deyib ki, 1 il 9 ay əsirlikdə qalıb. Bir il 2 ay işgəncələrə məruz qalıb: ”Ancaq Şuşa həbsxanasında işgəncə veriblər mənə. Mkrtçyan və Xosrovyan terrorçu olduqları üçün onlar hörmətli döyüşçü adlanırdılar. Lüdvik Sumqayıtlı olduğum üçün mənə dəhşətli işgəncə verirdi. Məni ac-susuz saxlayırdılar. Şuşa şəhərində, Şuşa şəhər İcra Hakimiyyətinin qarşısında hansısa erməni hərbçisinin abidəsinin açılışı idi. Abidənin açılışında bizi döyməyə başladılar. Uşaq bağçasından azyaşlı uşaqları, məktəblərdən yeniyetmə uşaqları gətiridilər, bizi onların gözü qarşısında döyürdülər, 13-14 yaşlı oğlan uşaqlarını gətirirdilər deyirdilər ki, bunlara işgəncə verin. Həmin uşaqlar bizi döyürdü, vururdu.

O vaxt aldığım işgəncələrdən topuğumda ağrılar var, bədənimə, ayaqlarıma vururdular, böyrəyimə vururdular”.

Şuşada Lüdvik bizi gətirirdi, torpaq yedirirdi, deyirdi ki, Şuşa bizim torpağımızdır, yeyin torpağı. Lüdvik deyirdi ki, bura bizim yerimizdi, biz bura istədiyimiz vaxt gəlib gedirik”.

“Şuşa həbsxanasında Mkrtçyan avtomatın sünbəsini qızdırıb yarama basırdı”. Bunu Yasamal rayon məhkəməsində azərbaycanlı əsirlərə işgəncə verən Lüdvik Mkrtçyan və Alyoşa Xosrovyanın işi üzrə keçirilən prosesdə zərərçəkmiş Zaur Rzayev deyib.

O bildirib ki, Ağdamda ağır yaralanıb əsir düşüb: ”Məni apardılar həbsxanaya. Orada çiynimdən yaralandım. Lüdvik mənim yaramı ayağı ilə basırdı. Su içəndə başıma armatur və bellə vururdular. Siqareti yandırıb yarama basırdılar. Beli götürürdü, belin sapı ilə yox, dəmir hissəsi ilə, kəsici tərəfi ilə yaramı kəsirdilər. Xocavənd rayonunda Samvel Babayanın ferması var idi. Bizi orda işlədirdilər. 30-40 nəfər azərbaycanlı əsirə 50 metr uzunluğunda donuz və toyuq fermaları tikdirirdilər. Usta işlərini ermənilər görürdü, söküntü işlərini bizə gördürürdülər. David, Karen, Lüdvik nəzarətçi idi. Hərbi forma geyinib gəlirdilər orda bizə işgəncə verirdilər. Lüdvik Mkrtçyan bizi Azərbaycan dilində söyüb. təhqir edirdi. Başqa yerdə binanı sökdürüb materialları Samvel Babayanın fermasına aparırdıq”.

Zərərçəkmiş deyib ki, Lüdvik Mkrtçyan azərbaycanlı əsirləri avtomatın qundağı ilə, dəmir parçası, armaturla döyürdü: ” Daş daşıyırdıq, acsusuz olurduq, gücümüz çatmırdı daşımağa. Lüdvik məni avtomatın qundağı və avtomatla döyürdü, cəld işləməyi tələb edirdi. Bizi növbə ilə döyürdülər. 5 nəfərlik dəstə bir həftə gəlib işgəncə verirdi, onlar gedirdi, yeni dəstə gəlirdi, onlar da döyürdü. Başımda döyülməkdən çapıqlar var, avtomatın sünbəsini ocaqda qızdırıb basırdı sinəmə, güllə yarası olan yerə basırdı, qışqırdırdı bizi”.

“Erməni əsirliyində olan zaman işgəncələrə görə intihar etmək istəyirdim”. Bunu Birinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş azərbaycanlılara qarşı amansız işgəncələr verməkdə ittiham olunan erməni hərbçilər - Mkrtçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin cinayət işi üzrə məhkəmə iclasındakı ifadəsində zərərçəkmiş Famil Əliyev deyib.

“Özümü elektrik cərəyanının üzərinə atdım, lakin ölmədim. Ermənilər bizə azərbaycanlılara məxsus qəbiristanlıqlardakı qəbirləri zorla açdırırdılar. Qəbirdəki meyitlərə məxsus metal əşyaları, qızılları çıxarmağa məcbur edirdilər. Şuşa türməsində mənə daha çox Xosrovyan Alyoşa işgəncə verirdi. Ayaq dırnaqlarımı kəlbətinlə çıxardırdılar, söküntü işlərinə cəlb edirdilər. Daha çox Xocavənd, Şuşa və Xankəndində saxlanılırdım”, - zərərçəkmiş bildirib.

Qeyd edək ki, Ermənistan Respublikasının vətəndaşı, 1969-cu il təvəllüdlü Mkrtçyan Lüdvik Mkrtiçoviç Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan, habelə Ermənistan Respublikasından gəlmiş millətçi ermənilərdən ibarət yaradılan silahlı qrupların fəaliyyətində iştirak edib onlarla qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əlaqəsinə girərək 1991-ci ilin iyul ayında Xocalı şəhəri yaxınlığındakı “Ballıca” adlandırılan meşədə girov götürüb qanunsuz olaraq azadlığı məhdudlaşdırılmış Azərbaycan vətəndaşına, habelə 13 sentyabr 1999-cu il tarixdə Goranboy rayonunun Tapqaraqoyunlu kəndi ərazisində girov götürülərək Ermənistan Respublikasının İrəvan şəhərinə gətirilib və həmin şəhərdə yerləşən hərbi hissələrin birində qanunsuz saxlanılan mülki şəxsə Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən sorğu-sual edilən zaman tərcüməçi kimi iştirak edərkən işgəncə verib.

İstintaqla Lüdvik Mkrtiçyan tərəfindən daha 11 nəfər əsir götürülmüş Azərbaycan vətəndaşının müxtəlif vaxtlarda Xocavənd və Ağdərə rayonları ərazisində, Şuşa həbsxanasında və Ermənistanın İrəvan şəhərində qanunsuz saxlanıldığı yerlərdə döyülərək müxtəlif xarakterli işgəncələrə məruz qaldığı və Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusunun avtomat silahdan atəş açılaraq öldürüldüyü müəyyən edilib.

Lüdvik Mkrtçyan 20 oktyabr 2020-ci il tarixdə Füzuli rayonunun Məlikcanlı kəndi ərazisində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları tərəfindən saxlanılaraq ələ keçirilib.

Aparılan istintaq tədbirləri nəticəsində Lüdvik Mkrtçyanla birlikdə azərbaycanlılara qarşı amansız rəftar edərək onlara işgəncələr verən Ermənistan Respublikasının vətəndaşı 1967-ci il təvəllüdlü Xosrovyan Alyoşa Aramaisoviçin də cinayətkar əməlləri ifşa olunub.

İstintaqla Alyoşa Xosrovyanın 5 nəfər azərbaycanlıya əsirlikdə olduqları müddətdə işgəncə verməsi, onlarla qəddar və qeyri-insani rəftar etməsi müəyyən edilib.

Belə ki, Alyoşa Xosrovyan 1994-cü ilin aprel ayında Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin əsir düşmüş sabiq əsgərini Xocavənd rayonunun Mısmına (Ağbulaq) kəndindəki yaşayış evlərinin birində qanunsuz olaraq saxlanılan zaman, qondarma Dağlıq Qarabağ Respublikasının Müdafiə naziri Babayan Samvel Andranikoviç üçün həmin kənddə evin tikintisində ağır işlərin görülməsinə məcbur edib ona müxtəlif dərəcəli xəsarətlər yetirib.

Bundan başqa, Alyoşa Xosrovyan Azərbaycan Silahlı Qüvvələrinin 1993-1994-cü illər ərzində əsir düşərək Şuşa şəhər həbsxanasında qanunsuz olaraq saxlanılan əsgərlərinə qarşı da xüsusi qəddarlıq nümayiş etdirərək onlara mütəmadi olaraq döymə, acsusuz saxlama, fiziki və psixi iztirablar yetirməklə işgəncə verib.

Alyoşa Xosrovyan Azərbaycan Respublikasının ərazilərində kəşfiyyat xarakterli hərəkətlər apararkən 3 oktyabr 2020-ci il tarixdə Azərbaycan silahlı bölmələrinin hərbi qulluqçuları tərəfindən ələ keçirilib.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində qanunsuz fəaliyyət göstərən erməni separatçı rejiminin silahlı birləşmələrinin üzvləri, Ermənistan Respublikasının vətəndaşları Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətməsi və digər faktlara görə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılıb.

Belə ki, Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın Cinayət Məcəlləsinin 113-cü (işgəncə), 115.2-ci (müharibə qanunlarını və adətlərini pozma), 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə nəzərdə tutulan cinayətləri törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən onlara həmin maddələr üzrə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Mayın 20-də iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

# Rəşid Behbudovdan 10 tükürpədən fakt

## Gizli kasetin güdazına getdi, danışsın deyə dırnaqlarını çıxardılar, ölüm anında nalə çəkdi



***"Unikal" Kulis.az-a istinadən SSRİ Xalq artisti, dünyaca məşhur müğənni Rəşid Behbudov haqqında ən ağlasığmaz 10 faktı təqdim edir.***

1. Rəşid Behbudov SSRİ-də mikrofonsuz oxuması ilə məşhur idi. Onun məxsus olduğu yüksək səs tembri buna imkan verirdi.

2. "Bəxtiyar" filminə çəkilişləri zamanı Saşa rolunun ifaçısı aktrisa Tamara Çernova süjetə əsasən, avtomobil sürməli olur. Ancaq bunu yaxşı bacarmır. O, hər dəfə sükan arxasına keçəndə çəkiliş qrupu qorxu keçirir. Maşınla olan epizod başa çatandan sonra Rəşid Behbudov bağ evində çəkiliş qrupuna kabab qonaqlığı verir.

3. Aktrisa Nəcibə Behbudova xanəndənin bacısı olub. Onun oğlu Cəfər Rəşidov uzun illər Moskvada yaşayıb. Çox yaxşı səsi və musiqi təhsili olsa da, deyilənlərə görə bacısının bir neçə dəfə xahiş etməsinə baxmayaraq Rəşid Behbudov ona heç bir köməklik göstərmir. Bunu isə onun Cəfəri qısqanması ilə əlaqələndirirlər. Bakıda istədiyi uğuru qazana bilməyən Cəfər vətəni tərk edərək Moskvaya köçüb orada yaşayır.

4. Qarabağa konsert verməyə gedəndə onun papağı ilə təsbehini oğurlayırlar. Rəşid Behbudov təsbehi oğurlayana bağışladığını bəyan edir, ancaq papağı geri istəyir. Xanəndənin papağı qısa müddətdə tapılaraq özünə qaytarılır. Bu fakt Aqil Abbasın "Dolu" romanında da özü əksini tapıb.

5. Əfsanəvi hind aktyorları Rac Kapur və Nərgis Dattla çox yaxın dost olur. 1989-cu ildə vəfat edən xanəndənin ölümü ilə bağlı bir neçə fərziyə dolaşır. Əsas ehtimal isə onun 1988-ci ildə baş tutan Hindistan səfəri ilə bağlı olur.

6. Mahnı Teatrının kollektivi ilə Hindistana səfər edən Rəşid Behbudov maraqlı bir faktla rastlaşır. Komandasına tərcüməçilik edən hindistanlı şəhərlərin birindən keçən zaman SSRİ-dən olan Şaumyanın burada basdırıldığını və dəfnində özünün də iştirak etdiyini deyir. O zaman SSRİ Ali Sovetinin deputatı olan azərbaycanlı müğənni buna çox təəccüblənir və həmin adamdan dəfnlə bağlı olan kaseti ona verməsini xahiş edir. 1988-1989-cu illərdə Dağlıq Qarabağ problemi başlayanda Rəşid Behbudov ərazi məsələləri üstündə Mixail Qorbaçovla dalaşır və erməni tarixinin uydurma olduğunu sübut etməkdən ötrü həmin kaseti ona verir. Bundan sonra Ali Sovetdən uzaqlaşdırılan Rəşid Behbudov hər il getdiyi tibbi komissiyanın müalicələrinə buraxılmır. Onun səhhətində, xüsusən də böyrəklərində problemlər yaranır.

7. Rəşid Behbudov sonralar xəstəxanada yatanda xanımına deyir ki, kaset məsələsinə görə onu aradan götürəcəklər.

8. Xanəndənin qızı Rəşidə Rəşidin sözlərinə görə xanəndə Qorbaçovdan rus tanklarının Bakıdan çıxarılmasını tələb etdiyi üçün ona güclü təzyiqlər olur. Bundan sonra onun əsəbləri sıradan çıxır. Ona tez-tez sakitləşdiricilər verir, işgəncəyə məruz qoyurlar. Xanəndənin kürəyində qançırlar əmələ gəlir, ayağının iki, sağ əlinin bir dırnağını çıxarmışdılar. Bu faktlar KQB-nin sənədlərində öz əksini tapır.

9. Böyrəklərindəki problemlərlə bağlı Moskvada xəstəxanaya yatırdılır. Ailəsinə əməliyyat olunacağı deyilir. Ailə üzvləri yanına buraxılmayan xanəndə bir neçə saatdan sonra qışqırmağa başlayır, ardınca isə onun ölüm xəbəri gəlir.

10. Müəmmalı ölümdən sonra Moskvada müğənninin ailəsinə bildirirlər ki, "sizin dinə görə meyiti yarmaq olmaz". Ancaq həyat yoldaşının xahişi ilə onun meyiti Bakıda Tibbi Ekspertiza İnstitutunun əməkdaşları tərəfindən yox, polis işçiləri tərəfindən yarılır. Lazımi sənədləri isə yoxa çıxarırlar.

# Əliyar Əliyevin Qubadlıdakı məzarı bərpa olundu

***Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin Qubadlının Qəzyan kəndində dağıdılmış məzarı yenidən bərpa olunub.***

Unikal.org xəbər verir ki, Milli Qəhrəmanın oğlu Emin Əliyev də atasının məzarının bərpa olunmasında iştirak edib.

# Üzeyir bəyin tələbəsinin ürək dağlayan sonu

## Dostlarını evindən qovdu, oğlu köhnə vaqonda səfil həyatı yaşadı

***"Unikal" Kulis.az-a istinadən əməkdar artist Fatma Mehrəliyeva haqqında maraqlı faktları təqdim edir.***

Fatma Yusif qızı Mehrəliyeva 1926-cı ildə Quba rayonunda anadan olub. Fatma xanım uşaqlıqdan çox çətinliklər görüb. 3-4 yaşlarında olarkən anası vəfat edib. Onu bir müddət Quba rayonunun İspik kəndində yaşayan xalası Əsməgül himayə edib. Xalasını yaddan çıxarmayan sənətkar gənclik illərində tez-tez onu yad edər, İspik kəndinə qonaq gələrmiş.

Hələ kiçik yaşlarından öz səsi ilə qohum-qonşunun, müəllimlərinin sevgisini qazanan Fatma Qubada orta məktəbdə tədris olunan nəğmə dərslərində xüsusi fəallıq göstərərmiş. Müəllimləri onun bu məharətini dəyərləndirərək balaca Fatmanı bir musiqi festivalında iştirak etmək üçün Bakıya göndərir. Festivalda "Qubanın ağ alması" xalq mahnısını ifa edən 11 yaşlı qızcığazın ifası dahi Üzeyir Hacıbəyovun diqqətini cəlb edir.



Üzeyir bəylə tanışlığı Fatma Mehrəliyevanın həyatında böyük rol oynayır. Üzeyir bəy ona əsil ata qayğısı göstərir. Fatmanı məktəbdə oxudur, ona musiqi təhsili almaq üçün şərait yaradır. Beləcə, Üzeyir bəyin xeyir-duası Mehrəliyeva üçün uzun həyat yolunda yaşıl işığa çevrilir.



Mehrəliyeva xanəndəlik fəaliyyətinə 1940-cı ildən Azərbaycan Dövlət Filarmoniyasının nəzdində "Sazçı qızlar" ansamblında başlayır. Geniş konsert salonlarında bir-birinin ardınca uğurlu çıxışlar edən Fatma Mehrəliyevanın sorağı bütün Azərbaycana yayılır.

1941-1945-ci illərdə Böyük Vətən Müharibəsi də Fatma xanımın həyatına təsirsiz ötüşmür. O, tez-tez cəbhədə hərbçilərin qarşısında çıxış edir. Fatma xanımın cəbhə repertuarında Ü. Hacıbəylinin vətənpərvərlik nəğmələri geniş yer tutur. Bəstəkarın Səməd Vurğunun sözlərinə bəstələdiyi "Şəfqət bacısı" mahnısının ilk ifaçısı məhz F. Mehrəliyeva olub. Lakin həmin ifanın lent yazıları qalmayıb.

Rejissor Rza Təhmasib 1945-ci ildə "Arşın mal alan" filmini lentə alanda Telli obrazını heç düşünmədən Fatma Mehrəliyevaya həvalə edir.

Azərbaycan ifaçılıq sənətində adı hörmətlə çəkilən F. Mehrəliyeva 1960-cı ildə əməkdar artist fəxri adına layiq görülür. Ondan bizə yadigar qalan və qorunan nəğmələri - "Qubanın ağ alması", "Azərbaycan maralı", "Ahu kimi", "Qaragilə" hələ də sevilir. Amma bu lent yazıları içərisində "Kəsmə şikəstə"nin müstəsna yeri var. Elə ona görə də sənətkarlar bəzən bu muğama "Fatma şikəstəsi" də deyirlər.

Qohumları deyir ki, 90-cı illərin əvvəllərində Fatma xanım bir qədər diqqətdən kənarda qalır və səhnədən uzaqlaşmağa başlayır. Böyük sənətkarın qohumu Balaşirin Hacıməmmədov o illəri belə xatırlayır:

"Sonuncu dəfə o, dayım oğlunun toyunda iştirak edib. Səhv etmirəmsə, 87-ci il idi. Gözəl bir mahnı oxudu, rəqs də etdi. Sonradan heç yerdə görünmədi. Bir dəfə televiziyada hansısa kanaldan onun evinə çəkilişə getmişdilər. Qapını gələnlərin üzünə çırpıb demişdi ki, məni bu vaxta qədər yada salmayıblarsa, bundan sonra da ehtiyacım yoxdur".

Fatma xanım xəstə olanda onu heç kim axtarmırdı. Qubadakı evinə gedib, özünə qapıldı. Həyatının son günlərini yaşadığı zaman sənət dostları onu görməyə getmişdilər. Ancaq o sənət dostlarına da dedi ki, siz mənə hansı qapını açdınız ki, bu gün mən də sizin üzünüzə qapı açım?

Xalq artisti, rejissor Vasif Babayev Fatma xanımla bağlı xatirələrini belə bölüşüb:

"Fatma xanım həm qayğısızlıqdan, təklikdən əziyyət çəkirdi, həm də onun maddi problemləri var idi. Həyat yoldaşı yox idi, aldığı məvacib də ona çatmırdı. Çox pis vəziyyətə düşmüşdü. Hətta bayıra çıxmağa da utanırdı. O, möhtəşəm qadın idi. Təsəvvür edin, öz evində oxumağa başlayanda hamı - bütün İçərişəhər sakit dayanıb onun səsinə qulaq asırdı. O, sənətinin zirvəsində olanda belə bəzi toylara təmənnasız gedirdi.



Ömrünün son illərini faciəli şəkildə yaşayan unudulmaz sənətkar - Fatma xanım Mehrəliyeva 2000-ci il yanvarın 4-də vəfat edib.

Bir neçə il əvvəl televiziya verilişlərinin birində Fatma Mehrəliyevanın oğlu Qalib Mehrəliyev 18 ildən sonra nəvəsi Fatimə ilə görüşüb. Verilişdə Qalib Mehrəliyevin acınacaqlı taleyindən də bəhs edilib. Belə ki, üç oğul, bir qız atası olan Q. Mehrəliyev illərdir səfil həyatı yaşayır. 2005-ci ildən Bakının mərkəzi küçələrinin birində, "Trolleybus parkı" deyilən ərazidə məskunlaşdığı köhnə vaqonda həyatla ölüm arasında mübarizə aparır.

# Sevdiyi qızı aldadıb onunla gizli nikaha girdi, ermənilər konsertində dava saldı, yubiley tədbirinə görə şəkər tutub öldü



***“Unikal” Kulis.az-a istinadən Xalq artisti Gülağa Məmmədov haqqında maraqlı faktları təqdim edir.***

Gülağa Allahverdi Məmmədov 1925-ci il iyunun 28-də Lənkəranın Kiçik Bazar məhəlləsində olduqca kasıb ailədə anadan olub. Onun atası pinəçi, anası evdar qadın olub. Kirayədə yaşayıblar, ailə atasının cüzi qazancı ilə dolanıb. Bir müddət sonra isə ailə Bakıya köçüb.

Uşaqlıqdan Musiqiyə böyük marağı olan 12 yaşlı Gülağa teztez qonşu uşaqları başına yığıb, onlara mahnılar oxuyur. Günlərin birində təsadüfən onların küçələrindən keçən bəstəkar Üzeyir Hacıbəyov məlahətli uşaq səsi eşidib ayaq saxlayır. Üzeyir bəy Moskvada keçiriləcək Azərbaycan Mədəniyyəti və İncəsənəti ongünlüyünə Koroğlunun ariyasını ifa etmək üçün elə bu yaşda istedadlı uşaq axtarırmış. Gülağanın səsinə valeh olan bəstəkar həyətə keçir və Gülağa ilə tanış olur. Onu Opera Teatrında keçiriləcək müsabiqəyə dəvət edir. Azyaşlı Gülağa Üzeyir Hacıbəyov, Bülbül, Səid Rüstəmov kimi görkəmli sənətkarların münsiflər heyətinin tərkibində olduğu müsabiqədə iştirak edir və səsi bəyənilir.

***

Gülağa Məmmədov 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyünün iştirakçısı olur. Böyük Teatrın səhnəsində Maestro Niyazinin müşayiəti ilə ifa etdiyi Koroğlunun ”Səni gördüm, aşiq oldum” ariyası böyük alqışlarla qarşılanır.

Üzeyir Hacıbəyov onun ailəsi, yaşam tərzi haqqında bütün məlumatları da öyrənir. Moskvadan gümüş medal və fəxri fərmanla qayıtdığını eşidəndə isə Gülağanı anasıyla birgə yanına çağırır və tapşırır ki, ev seçmək üçün xoşlarına gələn ünvanı göstərsinlər. Mirzəağa Əliyev küçəsində yerləşən ikiotaqlı həyət evi onların xoşuna gəlir. Üzeyir Hacıbəyovun dəstəyi ilə Gülağa Məmmədovun ailəsinə ikiotaqlı mənzil və aya 250 manat təqaüd ayrılır.

***

Gülağa 15 yaşında Səid Rüstəmovun ansamblına qəbul edilir. Sonra Konservatoriyada təhsil alır. O, 20 yaşından Musiqili Komediya Teatrında çalışmağa başlayır. ”Arşın mal alan”, ”Beşmanatlıq gəlin” və digər tamaşalarda baş rolları oynayır. Lakin bir neçə ildən sonra teatrdan ayrılır. Konservatoriyada oxuduğu illərdə Gülağa vokal dərsini Bülbüldən, muğamın sirlərini isə Sarabskidən öyrənmişdi. Oxuduğu mahnıların çoxu isə Səid Rüstəmova məxsus olurdu. Çünki, Səid Rüstəmov mahnılarının əksəriyyətini xüsusi olaraq Gülağa üçün yazırdı. Tofiq Quliyevin də, Cahangir Cahangirovun da əsərlərini ilk səsləndirən Gülağa Məmmədov olub.

”Şərifli çörək” filmində ”Quba meydanı” adlı bazarda kartof oğurlayan uşaq isə SSRİ xalq artisti Gülağa Məmmədovun qardaşı olub.

***

”Nəsimi” filmində Nəsimin səhrada dərvişlərin əhatəsində gəzərkən oxunan ”İstəmə” qəzəlini də Gülağa Məmmədov ifa edib.

***

Həm məktəbdə oxuyan, həm də işləyən bu yeniyetmə oğlan bir həyətdə böyüdüyü Aliyə adlı qonşu qıza meylini salır. Amma qızın valideynləri onların evlənməyinə razı olmur. Deyirlər ki, Gülağa hələ ali savad alsın, sonra evlənsin. Uşaqlıqdan çox zirək, həm də inadkar olan Gülağa arzusuna çatmağın yollarını axtarır.

Böyük Vətən müharibəsi başlayır. Gülağa Məmmədov Şövkət Ələkbərova ilə birgə döyüşçülərin qarşısında konsert proqramlarıyla çıxış edir. Başlarına od-alov yağa-yağa oxuyurlar. Müharibə qurtarandan sonra Gülağa evlənmək qərarına gəlir. Amma gənclərin sevdasından duyuq düşən Aliyənin dayısı onlara göz verib, işıq vermir. Çarəsiz qalan Gülağa hiyləyə əl atır. Bir gün sevdiyi qızdan pasportunu istəyir. Deyir ki, ”bütün qonşuların pasportlarını yığıram. Evlər idarəsinin müdiri tapşırıb. Sən də öz pasportunu mənə ver”. Vaxt keçir və Aliyə öz pasportunu geri alanda heyrətdən donub qalır. Görür ki, pasportuna evlənmələri barədə möhür vurulub. Sən demə, Aliyənin hərisini ala bilməyən Gülağa köhnə məhəllələrinə gedir. Oradan Aliyəyə oxşayan bir qızla danışıb razılığını alır. Onun başına yaylıq da bağlayır ki, nikah mərasimində heç kim şübhələnməsin. Nikah qeydiyyatından keçib, Aliyə ilə onun özündən xəbərsiz ailə qurur. Möhür vurduqdan sonra pasportu geri qaytarır.

***

Evlənirlər. Gülağa Məmmədovla Aliyə xanım uzun illər övlad həsrəti çəkiblər. Hətta həkimlər onlara Aliyənin uşaq dünyaya gətirə bilməyəcəyini deyiblər. 1956-cı ildə - evləndikləri vaxtdan on il keçəndən sonra taleləri üzlərinə gülüb. Onların yeganə övladları - Gülarə dünyaya gəlir. Olduqca qısqanc olan Gülağa həyat yoldaşının Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil almasını istəmir.

Gülarə xanım atasıyla bağlı xatirələrini danışarkən belə deyir: ”Atam sürpriz etməyi xoşlayırdı. Onun bu ailədə ən böyük sürprizi, anama ən böyük, ən qəribə, gözlənilməz hədiyyəsi, söz yox ki, pasportuna vurdurduğu evlənmələri barədə möhür olmuşdu. Sonralar da anama həmişə sürprizlər edib. Heç nə demədən evdən anamın şəklini, pasportunu aparıb, bir müddət sonra ”Hazırlaş, xaricə gedirik” - deyə aldığı putyovkanı ona uzadıb. Onlar birlikdə, demək olar, dünyanın az qala yarısını gəziblər. Anam özü deyərdi ki, Ərəbistan, İtaliya, Almaniya, hətta Afrikayadək gedib çıxıblar. Müğənnilik sənəti atama dostlar qazandırdı. Şövkət Ələkbərovayla çox yaxın idilər. Onlar səhnəyə bir gündə gəliblər”.

***

Gülağa Məmmədov şirin, lakonik səsi ilə 600-dən artıq xalq və bəstəkar mahnıları oxuyub. 15-dən çox bədii filmdə, teatr tamaşalarında xarakterik musiqi nömrələri ifa edib. Respublikada fəaliyyət göstərən əksər xalq çalğı alətləri ansambllarıyla, simfonik orkestrlərlə birgə çıxışlar edib. Müslüm Maqomayev adına Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblında, Dövlət Musiqili Komediya Teatrında işləyib. 1952-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin (hazırda Səid Rüstəmov adına) xalq çalğı alətləri ansamblının solisti olub. ”Ay qız”, ”Ana Kür”, ”Oxu, gözəl”, ”Şeir deyilmi”, ”Mənim qızım” kimi mahnıların hər birini özünəməxsus tərzdə ifa edib.

Gülağanın həmçinin, yaxşı muğamat oxumağı olub. Ancaq efirdə muğam oxumayıb. Bu barədə ona sual verəndə ”oxuyacağam” - deyə cavab verərmiş. Tez-tez qastrollarda olan sənətçi nədənsə, Gürcüstan və İrəvanda daha çox sevilir. Hətta İrəvanda konsert verən zaman qalmaqal da əskik olmurdu. Belə ki, bütün biletlər satıldığından onun səsini eşitmək istəyən camaat biletsiz içəri daxil olur, ya da konsert salonunun qabağına toplaşırdı. Milislər onları uzaqlaşdırmağa çalışanda isə böyük səs-küy qopurdu.

***

Xanəndənin bir xasiyyəti də var imiş - haqsızlığa, ədalətsizliyə dözən olmayıb. Hansısa işi irəli getsin deyə, kiməsə yalvarmaq, minnətçi düşmək istəməyib. Düzgünlüyü sevib. 1942-ci ildən radionun Bədii Şurasının üzvü olub. Şit, bayağı mahnı olanda öz fikrini qəti şəkildə bildirərmiş: ”Efirə buraxmaq olmaz!” Şuranın digər üzvləri də ”baş üstə” deyib onun fikrilə razılaşırdılar. Lakin bir az keçəndən sonra həmin mahnını eşidirdi. Bu cür hallar tez-tez təkrarlandığından o, bu vəzifədən imtina edir.

***

Şair Rəfiq Zəkanın sözlərinə yazdığı ”Ana Kürüm” mahnısı lentə alınan vaxt unudulmaz bəstəkar Cahangir Cahangirov kövrəlir. Və Gülağaya tərəf baxıb deyir: ”Ay Gülağa, sən avazınla, şirin səsinlə məcrasına sığmayan dəli Kür çayını ovsuna saldın”. Həmin mahnı məşhur ”Dəli Kür” bədii filmində səslənir.

1989-cu ildə Gülağa Məmmədov Almaniyada olarkən orada əslən Cənubi Azərbaycandan olan vokalist və müğənni Yaqub Zurufçu ilə görüşür. Gülağa Məmmədov onun ”Ayrılıq” mahnısına çəkdiyi klipi görüb heyrətə gəlir. Azərbaycanın Cənubi və Şimali Azərbaycana bölünməsinə həsr edilən klip Gülağa Məmmədovun səyi ilə Azərbaycanda yayımlanır. Azərbaycan Milli Azadlıq Hərəkatı zamanında ”Ayrılıq” mahnısı milli-mənəvi dirçəlişə təkan verir.

***

Gülağa Məmmədovun həyat yoldaşı Aliyə xanım xatirələrində deyir: ”Bir dəfə xalam qızının dəvəti ilə Almaniyaya getmişdik. Yaqub Zurufçu orda olduğumuzu eşidib yanımıza gəldi. Yaqub Gülağadan xahiş etdi ki, Bakıya qayıdanda onun üçün dəvətnamə göndərsin. Biz onun kasetini gətirdik. O vaxta qədər Zurufçunu heç kim tanımırdı. O vaxt televiziyada ”Ayrılıq” verilişi gedirdi. Gülağa da kaseti apardı ki, mahnı verilişdə səslənsin. Mahnı lap yerinə düşdü. Bu mahnıdan sonra çox adamlar bizə zəng vurub onunla maraqlanırdı. Gülağa Yaquba verdiyi sözü yerinə yetirib ona dəvətnamə göndərdi. Yaqub Zurufçu ailəsi ilə Bakıya gəlib bir ay burda qaldı. Bu müddətdə Gülağa ona xeyli köməklik göstərdi, öz mahnılarını öyrətdi. Şövkət, Gülağa və Yaqub Zurufçu birlikdə sarayda konsert verdilər. Ona görə də Yaqub Zurufçu hər yerdə deyir ki, məni Azərbaycana tanıdan Gülağa olub”.

Sənətinə layiqli qiymət verilməməsi, laqeydlik ona çox toxunur. Ən böyük ədalətsizliklərdən biri isə 60 illik yubileyi ərəfəsində olur. Yubileyinin qeyd olunması üçün xüsusi komissiya yaradılır. Afişalar asılır, dəvətnamələr paylanır. Oktyabrın 24-də Filarmoniyada keçiriləcək yubiley tədbirinə digər respublikalardan da qonaqlar gələcəkdi. Lakin son anda Mərkəzi Komitədən xəbər gəlir ki, tədbir keçirilməsin. O zaman bunun səbəbini Gülağa Məmmədovun Filarmoniyanın işçisi olmaması ilə əlaqələndirirlər. Sonra qərara gəlirlər ki, tədbiri Aktyorlar evində keçirsinlər. Oranın da pərdələri cırıq, oturacaqları sınıq idi. Gülağa buna razı olmur. Deyir, əgər məni Filarmoniyaya layiq bilmirlərsə, qoy, ümumiyyətlə, tədbir keçirilməsin. ”Məgər mən ölmüşəm? Ölənləri Aktyorlar evindən götürürlər”.

Bu haqsızlıq ona çox pis təsir edir. Deyir, mən Filarmoniyada o qədər zəhmət çəkmişəm. Bircə gün mənə vaxt sərf oluna bilməz? O, əsəbiləşib gecə ilə bütün afişaları çıxarır. O biri respublikalara da teleqram vurur ki, qonaqlar gəlməsin.”

***

Aliyə xanım həyat yoldaşı barədə deyir:

”Sağlığında bircə dəfə də yubileyi keçirilmədi. Öləndən sonra isə bir dəfə Muğam Teatrında xatirə gecəsini təşkil ediblər. Gördüyü diqqətsizlik Gülağa üçün ağır zərbə oldu. O, bu haqsızlıqlara dözə bilməyib şəkər xəstəliyinə tutuldu. Xəstəliyinə baxmayaraq, son günə qədər yeni mahnılar üzərində çalışırdı. Rəhmətə gedən günə qədər orkestrlə mahnı yazdırmağa gedirdi.

1994-cü il iyunun 7-də səhər yeməyini yedikdən sonra Gülağa Məmmədovun halı pisləşir. Ailəsinin təkidinə baxmayaraq o, işə gedir. Həyətə təzəcə düşən kimi isə halı daha da pisləşir. Qızı Gülarə xanım o anı belə xatırlayır: ”Atamı çətinliklə pillələrdən qaldıraraq evə apardılar. ”Təcili yardım” gəlib, ona infarkt diaqnozu qoyulub. Həkimlər anamla oğlum Ramizi palatadan çıxarıblar. Deyiblər ki, siz bizə mane olursunuz. Palatada çoxlu həkim, tibb bacısı olduğundan anam görüb ki, doğrudan da onlara maneçilik törədə bilərlər. Ramizlə birgə qapıdan çıxmaq istəyəndə atam onu səsləyib: ”Aliyə getmə, sən yanımda qal”. Amma həkimlər etiraz ediblər. Anam otaqdan çıxa-çıxa onu arxayın edib: ”Heç yerə getmirəm. Buradayam, qapının ağzında gözləyirəm”. Xeyli vaxt keçəndən sonra anam içəridən çıxan tibb bacısından atamın vəziyyətini soruşub. Tibb bacısı da qəfildən - anamı bu acı xəbərə hazırlamadan - ”o vəfat etdi”, deyib.



## Varikoz insan üçün hansı təhlükə yarada bilər

***Həkim-kardioloq Aleksandr Myasnikov bəzi hallarda damarların genişlənməsi təhlükəli ola biləcəyini söyləyib. Həkimin dediyinə görə, bəzən varikoz damar genişləməsində dərin trombozun inkişaf etmə təhlükəsi var.***

Bu halda ayrılmış qan laxtası ağciyər infarktına səbəb ola bilər ki, xəstəni ölüm riski ilə üzbəüz qoya bilər. Həkim sözlərinə görə, bəzi kateqoriyadan olan insanlar, sağ ürək mədəciyi sol mədəcikdən ayıran çəpərin defektindən əziyyət çəkir. Myasnikov bildirir ki, bu halda paradoksal emboliya, anatomiya qanunlarına görə heç vaxt sağ ürəkdən sola keçmədiyi halda sol ürəyə keçərək insulta səbəb ola bilər.

## 3 və 4-cü doza vaksin vurula bilərmi?

***Bəzi ölkələrdə peyvəndlərin 3 və 4-cü dozaları vurulmağa başlanıb. İlk iki dozadan sonra əlavə dozaların vurulmasına ehtiyac varmı?***

"Unikal" axar.az-a istinadən bildirir ki, məsələ ilə bağlı açıqlama verən tibb elmləri doktoru, professor Adil Qeybulla bildirib ki, hazırda sadəcə "Conson-Conson" vaksinləri tək doza olaraq vurulur:

"Hesab etmək olar ki, bu vaksinlərin hamısı müəyyən araşdırmalardan keçib və tələsik olaraq istifadəyə verilib. Ola bilər ki, gələcək araşdırmalar tamamilə başqa nəticələr versin. Peyvənd vurdurmuş, lakin antitel testi nəticəsində immunitet yaranmayan insanlar yenidən 3 və ya 4-cü doza vaksin vurdura bilərlər. Əlavə dozalar peyvənd olunmasına və ya əvvəl yoluxub sağaldığına baxmayaraq, immunitet yaranmamış insanlara vurulacaq".

## İnsultun profilaktikası üçün qida məhsulları

***Düzgün qidalanma ilə ürək-damar xəstəlikləri riskini azaltmaq mümkündür. Həkim hansı qidaların insult və ya infarkt riskini minimuma endirəcəyi barədə danışaraq, sağlam həyat tərzinə riayət etməyin son dərəcə vacib olduğunu söyləyib.***

Həkim-dietoloq Natalya Nefedova spirtli içkilərdən çəkinərək, qazlı sulardan pəhriz edərək, düzgün qidalanmağı tövsiyə edir. Menyuya yağlı balıq, qoz-fındıq, ədviyyat əlavə etmək daha yaxşıdır. Dietoloqun qeyd etdiyi kimi, bu qidalar iltihaba qarşı profilaktik qoruyucu təsirə malikdir. Həkim, həmçinin qida rasionuna balığı və tərəvəzləri əlavə edərək, idman etməyi tövsiyə edir.

# Yayda sağlam və canlı saçlar üçün 8 QIZIL TÖVSİYƏ

***DS Laboratories-in saç mütəxəssisləri yayda sağlam, baxımlı və canlı saçlara sahib olmaq üçün 8 qızıl qaydanı açıqlayıb.***



Lent.az-ın Milliyet.com-a istinadən məlumatına görə, ABŞ-da saç və cildə qulluq sektorunun qabaqcıl markalarından olan DS Laboratories-in saç mütəxəssisləri hava temperaturunun yüksəldiyi yay aylarında sağlam və canlı saçlara sahib olmaq üçün tətbiq edilməsi gərəkli olanları və tövsiyələrini açıqlayıb.

Daha həcmli, canlı, parlaq və gözəl saçlar üçün müntəzəm qulluğun əhəmiyyətinə toxunan mütəxəssislər kənardan tətbiq olunan müalicə, qulluq və müxtəlif vasitələrlə birlikdə sağlam qidalanmanın da çox önəmli olduğunu vurğulayır.

Yay aylarında saçın və saç dərisinin qüvvətləndirilməsi və çətin günlərə hazırlanması lazımdır. Bunun üçün düzgün məhsullardan istifadə, stressdən uzaq durmaq, yuxu nizamına diqqət etmək və lazımi baxım prosedurlarının aparılması tövsiyə edilir.

DS Laboratories-in saç sağlamlığı mütəxəssislərinin tövsiyələri bunlardır:

**1. Havalar çox qızmadan saç fenindən istifadəni azaldın**

İsinməyə başlayan havalar saçların da daha çox və sürətlə qurumasına, kövrək quruluşa malik olmasına və solğun görünüş qazanmasına səbəb olur. Hava temperaturunun və havadakı nəm nisbətinin artmağa başladığı yayın ilk ayında saçqurutma cihazından mümkün qədər uzaq durulmalı, daha az fendən istifadə etməli və saça itirdiyi nəmliyi qaytarmaq üçün qulluq məqsədli prosedurlar aparılmalıdır.

**2. Saç rənginizi qoruyun**

Yay ayları ilə birlikdə hovuz və dənizə girmə halları da artır. Xüsusilə təbii olmayan və qoruyucu maddələrin sıxlıqla istifadə olunduğu hovuz suyu saçın kimyəvi tərkibini pozur, rəngini açır və saçlara zərər verir. Hovuzun bu zərərli təsirlərindən qorunmaq üçün yayın əvvəlində saçlara xüsusi qulluq olunmalı, həm saçın sağlamlığı, həm də canlı rəngini saxlaması zəmanət altına alınmalıdır.

**3. Qidalanmanıza diqqət edin**

Sağlam saçlara sahib olmaq sadəcə müntəzəm qulluq və kənardan tətbiq olunacaq vasitələrlə mümkün deyil. Canlı, parlaq və gur saçlar üçün nizamlı və sağlam qidalanma da bir o qədər əhəmiyyətlidir. Bunun üçün saçın ehtiyacı olan vitamin, mineral, amin turşusu, protein və yağlarla zəngin qidalara üstünlük verilməlidir.

**4. Yuxunuzdan qalmayın**

Yuxu bədənin özünü dincəltməsi və gərəkli enerjini yenidən toplaması üçün ən önəmli amillərdən biridir. Nizamlı və bölünməyən yuxu sağlam saçlar üçün də əhəmiyyətlidir.

**5. Stressdən uzaq durun**

Stress qadınların və kişilərin günümüzdə ən böyük problemlərindən biri olan saç tökülməsinin əsas səbəbləri sırasındadır. Yaz yorğunluğu, yaz depressiyası kimi fərqli səbəblərlə ortaya çıxan stress yay aylarında saç sağlamlığına da mənfi təsir göstərir. Bu səbəblə yaya daha sağlam və canlı saçlarla girmək üçün stressdən uzaq durmanız lazımdır.

**6. Şampun seçiminə diqqət**

Yaz ayları da daxil olmaqla yay ərzində istifadə olunan şampunları seçərkən daha diqqətli olmaq lazımdır. Saç növləri və quruluşları bir-birindən fərqli olduğu üçün şampun seçimində də saçın rəngini, növünü, keyfiyyətini və təbii strukturunu nəzərə alaraq qərar vermək lazımdır. Saçlarınızı kənar təsirlərdən qoruyan məhsullara üstünlük verə bilərsiniz. Saç dərisinə güc və canlılıq qazandıran, spesifik anti-DHT, antioksidant və anti-iltihabi təsirlərə malik şampunlardan istifadə etmək tövsiyə edilir.

**7. Saçlarınızı yuma zamanını dəyişdirin**

Yazda və yayda istifadə etdiyiniz şampun və saça qulluq vasitələrindən daha yüksək səviyyədə fayda əldə etmək üçün saçlarınızı axşam yumaq məsləhətdir. Bu halda saçı günəş işığı, toz, isti hava kimi təsirlərdən qoruyaraq daha az elektriklənməsini təmin edə və daha dalğalı, həcmli, parlaq və canlı saçlara qovuşa bilərsiniz.

**8. Yayın əvvəlində saçlarınızı kəsdirin**

Saç telləri uzandıqca qırılma, zəifləmə və tutqunlaşma səviyyəsi də artır. Saç tellərindəki qırılmalar və haçalanmalar uclardan başlayaraq ən üst nöqtəyə qədər çata bilir. Bunun üçün ilk əvvəl saç ustasına müraciət edərək qırılan hissələri götürməli, saçlarınızı kəsdirməli və saçınızın uzunluğunu sağlam hissələrə qədər qısaltmalısınız.

# Süni şəkərli içkilər qəbul edirsiniz? -Ürək-damar xəstəliyi və...

***Süni şəkərli içkilər ürək-damar sisteminin düşməni ola bilər. Süni şəkərli içkilərin də şəkərli içkilər kimi ürək-damar xəstəliklərinə səbəb olduğu açıqlanıb.***



Lent.az xəbər verir ki, bununla bağlı aparılan araşdırmanın nəticələri "Journal of the American College of Cardiology" jurnalında dərc olunub. Qeyd olunub ki, şəkərli və süni şəkildə dadlandırılan içkilər ürək-damar xəstəlikləri riski artırır. Bu səbəbdən araşdırmada süni şəkərli içkilərin bilinənlərin əksinə şəkərli içkilərə alternativi olmadığı vurğulanıb.

Bununla bağlı əvvəlki araşdırmalara toxunan alimlər, şəkərli içkilərin qəbul edildiyi qidalanma tərzinin ürək-metabolik sağlamlığa mənfi təsir göstərdiyinin məlum olduğunu xatırladıb, şəkərli içkilərə alternativ olaraq göstərilən süni şəkərli içkilərin ürək-damar sağlamlığına təsirinin indiyə kimi tam bilinmədiyini qeyd ediblər.

Araşdırmada, Fransada 104,760 iştirakçını əhatə edən qidalanma anketinin nəticələri müzakirə edilib.

İştirakçılardan hər 6 ayda bir dəfə 24 saatlıq 3 pəhriz qeydlərinin onlayn doldurulması istənilən araşdırmada, süni şəkərli içkilər qida dəyəri olmayan içkilər olaraq, şəkərli içkilərin isə 5 faiz və ya daha çox şəkəri olan bütün içkiləri əhatə edəcək qidalandırıcı olduğu təsbit edilib.

Araşdırmada iştirakçılar heç istifadə etməyənlər, az istifadə edənlər və çox edənlər olaraq qruplara ayrılıb.

Çoxlu süni şəkərli içki içənlərin həyatlarında heç vaxt içməyənlərə nisbətən 20 faiz daha çox ürək-damar xəstəliyinə sahib olduğu qənaətinə gəlinib. Oxşar nəticənin şəkərli içkilər içənlər üçün də keçərli olduğu qeyd edilib.

# Tokio-2020: Yerli azarkeşlərin iştirakına icazə verildi

***Yaponiyada pandemiya şəraitində idman tədbirlərinin keçirilməsi qaydası Tokio Yay Olimpiya Oyunlarına da şamil ediləcək.***



"Report"un məlumatına görə, bu barədə ölkənin baş naziri Yoşihide Suqa mətbuat konfransında açıqlama verib.

O bildirib ki, yerli tamaşaçılar müəyyən tələblərə cavab vermək şərtilə yarışa qatıla biləcəklər.

Nazir stadionları və idman obyektlərini ziyarət edən azarkeşlərin tibbi maska taxmalı olduqlarını, onların yüksək səslə qışqırmalarının qadağan ediləcəyini də vurğulayıb. Onun sözlərinə görə, yaxın vaxtlarda tamaşaçılar üçün müvafiq qaydalar toplusu hazırlanacaq.

Hökumət idman tədbirlərinin pandemiya şəraitində keçirilmə qaydalarını tezliklə təsdiqləmək niyyətindədir. Bu qaydalar arenalarda tamaşaçı sayının 10 mini keçməməsini təmin edir.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunları 2020-ci il 24 iyul - 9 avqustda keçirilməli idi. Oyunlar koronavirus pandemiyası üzündən bu il 23 iyul - 8 avqusta təxirə salınıb.

# Şəhriyar Məmmədyarovun qazancı bəlli oldu

***Rumıniyanın paytaxtı Buxarestdəki "Superbet Chess Classic"in qalibi olan Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarovun turnirdəki qazancı bəlli olub.***



"Report"un məlumatına görə, 36 yaşlı qqrossmeyster 90 min ABŞ dolları əldə edib.

6-cı yeri tutan Teymur Rəcəbov isə 22 min 500 dollar qazanıb.

Qeyd edək ki, Şəhriyar Məmmədyarov "Superbet Chess Classic"in sonuncu - IX turunda Maksim Vaşye-Laqravla heç-heçə edərək xallarının sayını 6-ya çatdırıb və çempion olub.

# "Neftçi" Polşa klubuna irad bildirdi, alçaldıcı video silindi

***"Neftçi" Polşanın "Visla" (Plotsk) klubuna keçən sabiq futbolçusu Anton Krivotsyukun təqdimatı zamanı Azərbaycanın və flaqmanın bayrağına hörmətsizliklə bağlı Plotsk təmsilçisinin rəhbərliyinə irad bildirib.***



Bu barədə "Report"a açıqlamasında paytaxt klubunun Mətbuat və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Rüstəm Allahverdiyev məlumat verib.

Onun sözlərinə görə, artıq sözügedən video bütün sosial platformalardan və yutubdan silinib: "Bizə dedilər ki, həmin detallara fikir verməyiblər. Səhvlərini etiraf etdilər və videonu sildiklərini söylədilər".

Allahverdiyev bu barədə Krivotsyukun özü ilə də danışığın olduğunu söyləyib: "Antonla da söhbətimiz oldu. Həmin vaxt bu məsələ onun da ağlına gəlməyib. Əsas odur ki, problem aradan qalxdı".

Qeyd edək ki, Anton Krivotsyuk "Visla" ilə 2 illik müqavilə bağlayıb. Futbolçunun təqdimat videosunda Azərbaycanın və "Neftçi"nin bayraqları yerə atılıb.

# Azərbaycan Velosiped İdmanı Federasiyası təhsil nazirinə müraciət etdi

***Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF) təhsil naziri Emin Əmrullayevə müraciət edib.***

Bu barədə "Report"a AzVİF-in Mətbuat katibi Pərviz Musayev məlumat verib.

Onun sözlərinə görə, müraciət 7 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin idmançılarının açıq havada yarış keçirməsinə hələ də razılıq cavabının gəlməməsi ilə əlaqədardır: "Gənclər və İdman Nazirliyinin xətti ilə Təhsil Nazirliyinə yazdıqları icazə məktubları təəssüf ki, cavabsız qalır. Bu səbəbdən, iyunun 21-də Veloparkda açıq havada keçirmək istədiyimiz yarışı təxirə salmaq məcburiyyətindəyik. Təhsil naziri Emin Əmrullayevdən bu məsələni nəzarətə



götürməyi və idmançıların yarışlarda iştirakına şərait yaradılması üçün köməklik göstərməsini xahiş edirik".

# AVRO-2020: Slovakiya millisində koronavirus aşkarlandı

***Futbol üzrə Avropa çempionatında iştirak edən Slovakiya millisində koronavirusa yoluxma halı aşkarlanıb.***



"Report" xəbər verir ki, bunu yığmanın baş məşqçisi Ştefan Tarkoviç açıqlayıb.

48 yaşlı mütəxəssisin sözlərinə görə, komandanın yarımmüdafiəçisi Denis Vavrodan götürülmüş analiz nəticəsi müsbət çıxıb. Onunla yanaşı, millinin nümayəndələrindən biri də infeksiyaya yoluxub.

Qeyd edək ki, E qrupundakı ilk oyunda Polşa yığmasını 2:1 hesabı ilə məğlub edən Slovakiya seçməsi növbəti matçını sabah İsveçə qarşı keçirəcək.

# AVRO-2020: Mühafizəçi Ronaldunu tanımadı, akkreditasiya tələb etdi

***Portuqaliya millisinin kapitanı Kriştianu Ronaldu Avropa çempionatının F qrupunun Macarıstanla oyunundan öncə kuryoz hadisə ilə üzləşib.***

"Report"un məlumatına görə, 36 yaşlı ulduz futbolçu stadiona daxil olarkən mühafizəçi onu tanımayıb və hücumçudan akkreditasiyasını göstərməsini tələb edib.

Təcrübəli forvard yalnız buraxılış vərəqəsini təqdim etdikdən sonra onun arenaya girişinə icazə verilib.

Qeyd edək ki, Macarıstanın paytaxtı Budapeştdəki "Puşkaş Arena"da keçirilmiş görüş portuqaliyalıların 3:0 hesablı qələbəsi ilə başa çatıb. Qollardan ikisini Kriştianu Ronaldu vurub.

# "Keşlə" braziliyalı vingerlə anlaşdı, Utriqdən cavab gözləyir

***Azərbaycanı UEFA Konfrans Liqasında təmsil edəcək "Keşlə" heyətini daha 2 futbolçu ilə gücləndirə bilər.***

Bu barədə "Report"a komandanın baş məşqçisi Sənan Qurbanov məlumat verib.

Onun sözlərinə görə, ötən mövsümün sonunda "Qəbələ" ilə müqaviləsi başa çatan Rafael Utriq və Sloveniyanın "Maribor" klubundan ayrılan Felipe Santosa təklif göndərilib: "Utriq hələ bizə cavab verməyib. Santosla isə artıq razılıq əldə olunub. Amma futbolçu müqaviləyə imza atmamış hər an şey baş verə bilər".

Utriq ötən ilin sentyabrında "Qəbələ"də keçib. Santos isə 2018-ci ildən "Maribor"un formasını geyinirdi. O, bu müddət ərzində meydana çıxdığı 47 oyunda 4 qol vurub. 24 yaşlı hücumameylli yarımmüdafiəçi daha əvvəl ölkəsinin "Palmeyras" və Sloveniyanın "Ankaran" komandalarında da oynayıb. Hər iki futbolçu ilə bağlı məsələyə yaxın günlərdə tam aydınlıq gələcək.

Qeyd edək ki, "Keşlə" Konfrans Liqasının II təsnifat mərhələsində Rusiyanın "Soçi" klubu ilə qarşılaşacaq. Paytaxt təmsilçisi ilk oyununu iyulun 22-də səfərdə keçirəcək. Cavab görüşü isə bir həftə sonra Bakıda olacaq.

# Rəcəbov və Məmmədyarov Çempionlar Turundan kənarda qaldı

***Şahmat üzrə norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi Çempionlar Turunun VII mərhələsində Azərbaycan təmsilçiləri Teymur Rəcəbov və Şəhriyar Məmmədyarov iştirak etməyəcək.***

"Report" yarışın rəsmi saytına istinadən xəbər verir ki, "Goldmoney Asian Rapid" adlanan turnirdə ancaq Asiya təmsilçiləri mübarizə aparacaq. Kənar qitədən yalnız yarışın təşkilatçısı Maqnus Karlsen iştirak edəcək.

Çempionlar Turunda ilk dəfə qadın iştirakçı da olacaq. FIDE reytinqində 2658 xalla ilk sırada yer alan Hou İfan kişi qrossmeysterlərlə yarışacaq.

Mükafat fondu 100 000 ABŞ dolları olan "Goldmoney Asian Rapid" iyunun 26-da başlayacaq, turnirə iyulun 4-də yekun vurulacaq.